RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 119 (9864) 12 iyun 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Nüfuzlu lider, qüdrətli dövlət...

























Həyata keçirdiyi uzaqgörən və məqsədyönlü siyasəti nəticəsində milli maraqlarımızı qətiyyətlə təmin edən Prezident İlham Əliyevin yürütdüyü diplomatiya ümumilikdə regionda sülhə, əməkdaşlığa və rifaha da yol açıb. Azərbaycan adına əldə edilən bütün bu uğurlar beynəlxalq müstəvidə də etiraf olunur, qalib lider İlham Əliyevin şəxsi səyləri və təşəbbüsləri ilə əldə olunan nailiyyətlər təqdirəlayiq görülür. Bu il 28 May Müstəqillik Günü ilə əlaqədar dövlətimizin başçısına ünvanlanan çoxsaylı təbrik məktubları da Azərbaycanın sayılıb-seçilən, dünyanın nüfuzlu ölkəsinə çevrilməsini özündə əks etdirirdi.

Çoxsaylı dövlət başçıları, mötəbər şəxslər, tanınmış ictimai-siyasi xadimlər tərəfindən göndərilən bu təbrik məktublarının hamısının məzmunu Azərbaycanın yüksək inkişafından xəbər verir. Həmin məktublara nəzər yetirəndə görürsən ki, onların mətni 20 il əvvəlki təbrik məktublarının mətnindən tamamilə fərqlənir. İndi Azərbaycana ünvanlanan təbrik məktublarında respublikamızın keçdiyi dinamik inkişaf yolu, Prezident İlham Əliyevin qlobal liderlik nüfuzu ön planda gəlir, dünyanın iqtisadi və güc mərkəzlərinin Azərbaycanla əməkdaşlıq istəkləri önə çəkilir. Eyni zamanda dost dövlətlərin rəhbərlərinin ölkəmizə ünvanladıqları təbrik məktublarında Azərbaycanın Qarabağ zəfəri bir daha əyan olur.

→ 4



## Daşlarla yazılan qardaşlıq dastanı

### Kahramanmaraşda "Azərbaycan məhəlləsi"nin açılışına çox qalmayıb

2023-cü il fevralın 6-dan 7-nə keçən gecə Türkiyənin cənubunda, əsasən Kahramanmaraş vilayətində baş verən 7,7 və 7,6 bal gücündəki zəlzələ ölkənin son 100 ildə baş vermiş ən böyük təbii fəlakətlərindən biri olaraq tarixə düşdü. Zəlzələ nəticəsində ümumilikdə Türkiyədə 53537 nəfər insan həlak oldu. Təkcə Kahramanmaraş vilayətində 12713 nəfər həyatını itirdi, minlərlə insan yaralandı. Şəhərin bir çox hissəsində yaşayış evləri, infrastruktur binaları ya tamamilə dağılıb yararsız hala düşdü, ya da ciddi ziyan gördü. Yüz minlərlə insan evsiz qaldı, məcburən sığınacaqlara, çadır şəhərciklərinə yerləşdirildi. Kahramanmaraşın iqtisadiyyatı böyük itkilər verdi, xüsusilə tikinti, ticarət və xidmət sahələrinə daha çox zərər dəydi.

→ 5

## Azərbaycan beynəlxalq tədbirlərin əsas mərkəzlərindən biridir

Son dövrlərdə Bakıda keçirilən başqa bir beynəlxalq tədbir BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) oldu. 2024-cü ilin noyabrında keçirilən COP29-da 197 ölkədən 80 minə yaxın iştirakçı, o cümlədən 80 prezident, vitse-prezident və baş nazir iştirak etdi. Ölkəmizə gələn xarici qonaqlar yerli və xarici media resurslarına açıqlamalarında COP29-un yüksək səviyyədə təşkil olunduğunu bildirdilər.

Qarşıdakı dövrdə də Azərbaycan bir neçə beynəlxalq tədbirə evsahibliyi edəcək. Bunlardan biri 2025-ci ilin payızında keçiriləcək III MDB Oyunlarıdır. III MDB Oyunları 23 idman növü üzrə təşkil edilməklə, "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" olan Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində sentyabrın 28-dən oktyabrın 8-dək müddətdə keçiriləcək. Gəncədə 8, Mingəçevirdə 4, Qəbələdə 4, Şəkidə 3, Göygöldə 2, Yevlaxda 1 və Xankəndidə 1 idman növü üzrə yarışlar təşkil ediləcək. Əlbəttə ki, respublikamızın Azərbaycanın MDB Oyunları kimi əhəmiyyətli bir idman tədbirinə evsahibliyi etməsi onun idman ölkəsi kimi artan nüfuzuna, gələcəkdə belə mühüm layihələrin respublikamızda daha yüksək səviyyədə təşkil edilməsinə müsbət təsir göstərəcək.

→ 6






## Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı reallaşmayana qədər bu məsələ gündəlikdən çıxmayacaq

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Zəfər, 2023-cü ildə suverenliyimizin tam bərpası, hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıdışı qərbi azərbaycanlılarda da böyük ruh yüksəkliyi yaratmış, onların daha mütəşəkkil qaydada fəaliyyət göstərməsinə imkan vermişdir. Qərbi Azərbaycan məsələsi artıq beynəlxalq gündəliyə daxil edilmişdir. "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - Qayıdış Konsepsiyası" hazırlanıb və Qərbi Azərbaycan İcması tərəfindən ardıcıl, sistemli şəkildə iş aparılır. Nəhayət, bugünkü Ermənistan rəhbərliyi anlamalıdır ki, qərbi azərbaycanlıların Ermənistandakı dədə-baba torpaqlarına qayıdışının təmin edilməsi regionda sülhün, insan hüquqlarının və barışığın bərqərar olması üçün vacib şərtdir.

→ 7

## Avropa Komissiyası Rusiyaya qarşı yeni sanksiyalar paketi hazırlayıb

Yeni paketə daha 22 Rusiya bankına (SWIFT sistemindən ayrılma) və Moskva ilə Vaşinqton arasında danışıqların iştirakçısı Kirill Dmitriyevin rəhbərlik etdiyi Rusiya Birbaşa İnvestisiya Fonduna (RDIF) qarşı sanksiyalar da daxildir. Bundan əlavə, Rusiya silahlı qüvvələrinə dəstək verən daha 22 yerli və xarici şirkət də sanksiyalar siyahısına əlavə olunacaq. Onların arasında Belarus və Çin müəssisələri də var.

Fon der Lyayenin dediyinə görə, məhdudlaşdırıcı tədbirlər Moskvanı bu sahədə Avropa texnologiyalarına hər hansı çıxışdan məhrum etmək üçün dronların istehsalı üzrə bütün təchizat zəncirinə də təsir edəcək.

Təkliflərə həmçinin Rusiya neftinin qiymətinin bir barel üçün 60 dollardan 45 dollara endirilməsi, Rusiya nefti əsasında emal olunmuş neft məhsullarının idxalına qadağa daxildir. Neftin yeni qiymət həddini təsdiqləmək üçün G7 ölkələri arasında birliyə ehtiyac var. Avropa Komissiyasının rəhbərinin fikrincə, "əgər müvafiq addımlar ABŞ-nin tədbirləri ilə birlikdə atılsa, bu, sanksiyalarımızın ümumi təsirini kəskin şəkildə artıracaq".

→ 12



# Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 536 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 536 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 473 (Cild I) ilə təsdiq edilmiş "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası haqqında Əsasnamə"nin 4.9-cu bəndinin birinci abzasında "8" rəqəmi "15" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2025-ci il*

# Xaçmaz rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (28 km)-Köhnə Xaçmaz-Xaspoladoba-Gəncəli-Bəbəli-Əzizli-Əhmədoba-Müşviq-Müşkür-Hacıqazma-Hacıəhmədoba-Şərifoba-Qaracəlli-Xəzərli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On iki min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (28 km)-Köhnə Xaçmaz-Xaspoladoba-Gəncəli-Bəbəli-Əzizli-Əhmədoba-Müşviq-Müşkür-Hacıqazma-Hacıəhmədoba-Şərifoba-Qaracəlli-Xəzərli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2025-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, əziz Qardaşım.

Ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Azərbaycan xalqına daha da çox tərəqqi və rifah diləyirəm.

Mən həmçinin ölkələrimiz arasında mövcud olan əməkdaşlıq münasibətlərinin dost xalqlarımızın mənafeləri naminə möhkəmlənməsi və inkişafı istiqamətində səyləri davam etdirmək niyyətimizi bir daha bildirirəm.

Zati-aliləri, əziz Qardaşım, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

*Qardaşınız,*

***Məhəmməd uld Şeyx əl-QAZUANİ,***
***Mavritaniya İslam Respublikasının Prezidenti***

# Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib







**Dövlət Gömrük Komitəsində 15 İyun - Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib.**

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, daha sonra Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən qəhrəman şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini Ziyafət Əsgərov 15 İyun - Milli Qurtuluş Gününün dövlətçiliyimizin və müstəqilliyimizin qorunub saxlanılması baxımından əhəmiyyətindən, Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasından bəhs edib. Bildirilib ki, ölkəmiz üçün tarixi sınaq dövründə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndərin həyata keçirdiyi uzaqgörən, düşünülmüş və qətiyyətli siyasət nəticəsində Azərbaycan qısa zaman kəsiyində inkişaf edərək regionun lider dövlətinə, beynəlxalq birliyin etibarlı üzvünə çevrilib.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov öz çıxışında dövlətinin, xalqının maraqlarını daim hər şeydən üstün tutan, ömrünün hər anını ölkəsinin xoşbəxt, firavan gələcəyinə həsr edən Ümummilli Liderin 15 iyunda yenidən hakimiyyətə qayıtması ilə Azərbaycanın davamlı inkişaf dövrünə qədəm qoyduğunu bildirərək vurğulayıb ki, Dahi Rəhbərin dərin zəkası, idarəçilik qabiliyyəti sayəsində ölkəmizdə bütün sahələrdə, o cümlədən gömrük işinin təşkili istiqamətində mühüm addımlar atıldı və müasir standartlara cavab verən gömrük xidməti yaradıldı.

Diqqətə çatdırılıb ki, gömrük orqanlarının yaradılmasının 5-ci ildönümü münasibətilə keçirilən mərasimdə Ümummilli Liderin tarixi çıxışı, tapşırıq və tövsiyələri gömrük xidmətinin gələcək inkişaf konsepsiyasının əsaslarını müəyyənləşdirdi.

Məhz Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla və məntiqi ardıcıllıqla reallaşdırılması nəticəsində işğal altındakı ərazilərimizin azad edildiyi, tarixi ədalətin bərpa olunduğu bildirilib.

O da qeyd olunub ki, Ümummilli Liderin ideyaları daim yaşayacaq və Azərbaycan xalqı Ulu Öndərin xatirəsini hər zaman əziz tutacaq.

Tədbirdə 15 İyun - Milli Qurtuluş Gününün əhəmiyyətindən, Ümummilli Liderin gömrük orqanlarının yaradılmasının 5-ci ildönümü münasibətilə keçirilən mərasimdəki tarixi çıxışından bəhs edən videoçarxlar nümayiş etdirilib.

***"Azərbaycan"***

# Azərbaycanın və Özbəkistanın Baş nazirləri Daşkənddə Ümummilli Lider Heydər Əliyevin barelyefini ziyarət ediblər

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov iyunun 11-də Daşkənddəki Heydər Əliyev Meydanında Ümummilli Liderin barelyefini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, Baş nazirlər barelyefin önünə gül dəstələri qoyub, Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla anıblar.



# Müstəqillik abidəsini ziyarət

Özbəkistan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 11-də bu ölkənin Baş naziri Abdulla Aripovun müşayiəti ilə Daşkənddə Müstəqillik abidəsini ziyarət edib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Əli Əsədov abidənin önünə əklil qoyub.



# Daşkənddə Azərbaycan və Özbəkistan Baş nazirlərinin görüşü

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 11-də Daşkənddə Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovla görüşüb.**





Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə iki ölkə arasında əlaqələrin müxtəlif sahələrdə dinamik inkişaf etdiyi məmnunluqla vurğulanıb. Azərbaycan və Özbəkistan prezidentlərinin qarşılıqlı dövlət səfərləri zamanı ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı yeni istiqamətlərin müəyyən edildiyi bildirilib.

Dövlət başçıları tərəfindən verilən tapşırıqların icrasının təmin olunması üçün hökumətlər xətti ilə sıx işbirliyinin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Cari ilin Azərbaycan-Özbəkistan diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümü ilə əlamətdar olduğu diqqətə çatdırılıb. Ötən dövr ərzində dövlətlərarası münasibətlərin ardıcıl şəkildə hərtərəfli inkişaf etdiyi məmnunluqla qeyd olunub. Ali səviyyədə qarşılıqlı səfərlər və görüşlər, bu səfərlər zamanı imzalanmış ikitərəfli sənədlər bu uğuru təmin edən əsas amil kimi dəyərləndirilib.

Son üç ildə ali səviyyədə on qarşılıqlı səfər baş tutduğu - prezidentlər İlham Əliyevin və Şavkat Mirziyoyevin hər birinin beş səfər etdiyi məmnunluqla xatırlanıb. Diqqətə çatdırılıb ki, dövlət başçılarının ardıcıl birgə səylərinin məntiqi nəticəsi olaraq 2024-cü ildə Müttəfiqlik Münasibətləri haqqında tarixi Müqavilə imzalanıb. Eyni zamanda Özbəkistan Prezidentinin yaxın zamanlarda ölkəmizə növbəti dəfə səfər edəcəyi vurğulanıb. Azərbaycanın və Özbəkistanın regional, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu birgə fəaliyyətinə toxunularaq, qarşılıqlı dəstəkdən məmnunluq ifadə olunub. Türk Dövlətləri Təşkilatı çərçivəsində səmərəli əməkdaşlıq xüsusi qeyd edilib.

İqtisadi-ticari əlaqələrin inkişaf dinamikası yüksək qiymətləndirilib. Bildirilib ki, 2024-cü ildə qarşılıqlı ticarət 41 faiz artıb. Ötən ilin eyni dövrü ili müqayisədə cari ilin birinci rübündə ticarət dövriyyəsi üç dəfəyə yaxın çox olub.

İyunda Azərbaycanda Birgə hökumətlərarası komissiyanın 14-cü iclasının keçiriləcəyi diqqətə çatdırılıb. İqtisadi-ticari və investisiya əməkdaşlığının genişləndirilməsinə dair 2024-2025-ci illər üçün Yol xəritəsinin icrasının uğurla davam etdirildiyi vurğulanıb.

Sevindirici haldır ki, birgə layihələrlə bağlı əldə edilmiş razılaşmaların praktiki icrası təmin olunur.

Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun xətti ilə hazırda 10-dan çox perspektivli layihənin nəzərdən keçirildiyi diqqətə çatdırılıb. Bu layihələr təhsil, tikinti materiallarının istehsalı, toxuculuq sənayesi, logistika, yüngül və yeyinti sənayesi sahələrini əhatə edir.

Sənaye kooperasiyasında səmərəli qarşılıqlı fəaliyyətin nəticələri təqdir edilərək bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi planlarına dair fikir mübadiləsi aparılıb.

Bərpaolunan enerji sahəsində qarşılıqlı faydalı əməkdaşlığın qurulduğu bildirilərək, Azərbaycanın Özbəkistan və Qazaxıstanla birgə Avropaya "yaşıl enerji" təchizatı marşrutunun yaradılmasını hədəflədiyi məmnunluqla qeyd edilib.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa-quruculuq işləri barədə bəhs olunub. Füzulidə Mirzə Uluqbəy adına tam orta məktəbin inşasına görə Özbəkistan tərəfinə minnətdarlıq bildirilib. Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində tikiş fabrikinin açılışının önəmi qeyd olunub.

Söhbət zamanı həmçinin nəqliyyat-tranzit sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib. İki ölkə arasında tranzit daşımalarının 2024-cü ildə 18 faizdən çox artdığı bildirilib. Orta dəhlizin əhəmiyyəti vurğulanaraq, Özbəkistan tərəfi bu dəhlizin imkanlarından daha fəal istifadəyə dəvət olunub.

Bununla yanaşı, gəmiqayırma sahəsində əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

Humanitar və mədəni sahələrdə əlaqələrin nəticələri təqdir olunub. 2023-cü ildə Bakıda Özbəkistanın Mədəniyyət Günləri, ötən il isə Özbəkistanda Azərbaycanın Mədəniyyət Günlərinin keçirildiyi xatırlanıb.

Regionlararası əlaqələrin əhəmiyyətinə toxunularaq iki ölkənin 10 şəhəri arasında qardaşlaşma haqqında sənədlərin imzalanması müsbət qiymətləndirilib.

Görüşdə iki ölkə arasında qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

Pambıqçılıq klasterlərinin yaradılması, sosial və kommersiya obyektlərinin inşası, tikinti materiallarının istehsalı, neft-qaz sənayesi, kənd təsərrüfatı, maliyyə sektoru, nəqliyyat-tranzit, gəmiqayırma, təhsil və bir sıra digər istiqamətlərdə perspektivli layihələr nəzərdən keçirilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstana işgüzar səfərə gedib



**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Şura və 14-cü plenar iclaslarında iştirak etmək üçün iyunun 11-də Qazaxıstan Respublikasının Astana şəhərinə işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Astana şəhərinin Nursultan Nazarbayev adına Beynəlxalq Hava Limanında spiker Sahibə Qafarovanı Qazaxıstan Parlamenti Məclisinin Sədr müavini Albert Rau, Məclisin Beynəlxalq, təhlükəsizlik və müdafiə məsələləri üzrə katibi Aydos Sarım, Məclisin Qanunvericilik və məhkəmə-hüquq islahatları katibi Məhərrəm Məhərrəmov, Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov, TÜRKPA-nın baş katibi Mehmet Süreyya Er və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin spikeri, TÜRKPA-nın fəaliyyətdə olan Sədri Sahibə Qafarovanın TÜRKPA-nın Şura və plenar iclaslarında çıxışı, tədbirdə iştirak edən parlament nümayəndə heyətlərinin rəhbərləri və Qazaxıstanın dövlət rəsmiləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

*"Azərbaycan"*

# Azərbaycanla Özbəkistan bir çox sahələrdə uğurla əməkdaşlıq edirlər

**İyunun 11-də Milli Məclisin sədri Sahibə Qafarova Astanada Türk Dövlətləri Parlament Assambleyasının XIV plenar iclası çərçivəsində Özbəkistan Respublikası Ali Məclisinin Qanunverici Palatasının Sədri Nurdinjon İsmoilov ilə görüşüb.**



Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.

Görüşdə dost ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən razılıq ifadə olunaraq, Azərbaycanla Özbəkistanın bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyi qeyd edilib. Münasibətlərin hazırkı yüksək səviyyəyə çatmasında iki ölkənin dövlət başçılarının mühüm rolu diqqətə çatdırılaraq bildirilib ki, ali və yüksəksəviyyəli qarşılıqlı səfərlər, sıx təmaslar dost və qardaş ölkələrimiz arasında əlaqələrin yeni mərhələyə daxil olmasını şərtləndirib.

Qeyd edilib ki, qanunverici orqanlarımız arasında əlaqələrin genişlənməsi ikitərəfli münasibətlərin inkişafına töhfə verir. Milli Məclisin Özbəkistan parlamentinin hər iki palatası ilə əlaqələrinin yüksək səviyyədə olduğu vurğulanıb.

Spiker Sahibə Qafarova özünün Özbəkistana, qarşı tərəfin qanunverici orqanlarının rəhbərlərinin isə ölkəmizə səfərlərini məmnunluqla xatırladaraq, bu sahədə müsbət dinamikanın olduğunu deyib. Vurğulanıb ki, parlamentarilərimiz həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq edirlər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Türk dövlətləri ilə əlaqələrin daha da genişləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir

**İyunun 11-də Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstanın paytaxtı Astanada Türk Dövlətləri Parlament Assambleyasının XIV plenar iclası çərçivəsində Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) Məclisinin Sədri Ziya Öztürkler ilə görüşüb.**



Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.

Görüşdə Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri Ziya Öztürkler Prezident İlham Əliyev başda olmaqla, Azərbaycanın ŞKTC-yə dəstəyinə görə təşəkkür edib və bunu çox yüksək qiymətləndirdiklərini bildirib.

O, türk dünyasının bir parçası olaraq, TÜRKPA-nın XIV plenar iclasında iştirakdan məmnunluğunu bildirərək, Azərbaycan Milli Məclisinin sədrliyi ilə TÜRKPA-nın uğurlu fəaliyyətinin təşkilatın daha da güclənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət etdiyini vurğulayıb.

Söhbət zamanı Milli Məclisin Sədri Sahibə Qafarova türk dünyasının birləşməsi istiqamətində göstərilən səyləri qeyd edərək, bu baxımdan TÜRKPA çərçivəsində fəal əməkdaşlığın parlamentlərimiz arasında əlaqələrin daha da dərinləşməsinə xidmət etdiyini bildirib. Spiker Sahibə Qafarova türk dünyasının gücləndirilməsinin, türk dövlətləri ilə əlaqələrin daha da genişləndirilməsinin Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri olduğunu qeyd edərək, Prezident İlham Əliyevin bu barədə səsləndirdiyi fikirləri və atdığı addımları diqqətə çatdırıb.

Görüşdə parlamentlərdə mövcud olan dostluq qruplarının əməkdaşlığının və qarşılıqlı fəaliyyətinin əhəmiyyəti qeyd olunub.

Görüşdə Türk Dövlətləri Parlament Assambleyasının XIV plenar iclasının və orada müzakirəsi nəzərdə tutulan məsələlərin təşkilatın gələcək fəaliyyətində önəminə dair fikirlər səsləndirilib, qarşılıqlı maraq doğuran digər məsələlər haqqında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Bakıda TDT ölkələrinin ailə siyasətləri müzakirə olunub

**İyunun 11-də Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazir və qurum rəhbərlərinin ikinci iclası çərçivəsində "Güclü ailələr, güclü toplumlar: TDT ölkələrində ailəni dəstəkləyici siyasətlər" mövzusunda yan tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, TDT-yə üzv ölkələrin nümayəndə heyətlərinin, ekspertlərin iştirak etdiyi tədbirdə əvvəlcə ailə dəyərlərinin vacibliyinə həsr olunan videoçarx nümayiş olunub.

Daha sonra çıxış edən Türkiyənin ailə və sosial xidmətlər naziri **Mahinur Özdemir Göktaş** türk dünyasının ortaq dəyərlərindən biri olan ailənin yalnız toplumların təməli deyil, eyni zamanda millətlərin gələcəyi olduğunu deyib. Onun sözlərinə görə, ailə hər bir fərdin mənəvi dayağı, mənsub olduğu cəmiyyətlə bağlarını gücləndirən əsas sütundur. Onu qorumaq və gələcək nəsillərə ötürmək hər kəsin mənəvi borcudur.

Nazir qeyd edib ki, 2025-ci ilin Türkiyədə "Ailə ili" elan olunması bu sahədə Türkiyənin məsuliyyətini və ailəyə verilən əhəmiyyəti bir daha göstərir.

"Bu gün burada, qardaş Azərbaycan torpağında təşkil olunan və artıq ikinci dəfə keçirilən bu mühüm iclasda müzakirə ediləcək məsələlər ortaq problemlərimizin həllində bizlər üçün bir istiqamət olacaq. Evlilik yaşının getdikcə yüksəlməsi, boşanma hallarının sayının artması təkcə sosial sahəyə deyil, iqtisadi və mənəvi sahələrə də ciddi təsir göstərir. Bu problemlər ailə dəyərlərinin aşınmasına, evlilik və valideynlik kimi anlayışların dəyərdən düşməsinə gətirib çıxarır", - deyə nazir vurğulayıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri **Bahar Muradova** vurğulayıb ki, Türkiyə çox böyük tarixi olan bir dövlətdir. Orada ailələrlə bağlı görülən işlərin miqyası böyükdür. Bundan əlavə, milyonlarla ailənin problemini həll etmək və bunları da dünyaya örnək göstərmək çətin və vacib işdir. Biz türk dünyasında ailəni, sadəcə, sosial institut kimi deyil, milli kimliyimizin təməli, sabitliyin, təhlükəsizliyin amili kimi qiymətləndiririk. İstənilən ölkənin siyasətində bu istiqamət ayrıca yer tutur. Zaman sürətlə dəyişir, ailələr sosial media, urbanizasiya, miqrasiya problemləri ilə qarşılaşırlar. Dövlətlər bu problemləri gözardı edə bilməz. Çünki ailə dəyərlərini qorumaq, sadəcə, mədəni deyil, həm də strateji məsələdir.

Komitə sədri qeyd edib ki, bütün bu məsələləri həll etmək, ortaq müqavimət formalaşdırmaq üçün Türk Dövlətləri Təşkilatı (TDT) çox güclü platformadır. "Biz qısa müddət ərzində TDT-nin necə sürətlə böyüdüyünün şahidiyik. Ailə siyasəti üzrə ortaq layihələrin reallaşmasına ciddi yanaşırıq. Bu məsələdə ortaq koordinasiya mərkəzinin yaradılması vacibdir. Ailələrlə bağlı layihələrin icrasını vacib hesab edirik. Biz ailələrlə bağlı tədqiqat layihələri həyata keçirməliyik. Türk dünyasında ailələrin hansı problemlərlə qarşılaşdığına dair ortaq baza yaratmalıyıq", - deyə B.Muradova əlavə edib.

Şimali Kipr Türk Cümhuriyyətinin əmək və sosial müdafiə naziri **Sadık Qardiyanoğlunun** sözlərinə görə, texnologiyanın sürətlə inkişaf etdiyi müasir dövrdə ailənin təməlinin zəiflədiyinin şahidi oluruq. Sosial təcrid, ailədaxili münasibətlərin səthiləşməsi və fərdiləşmənin artması ailə institutuna birbaşa təsir göstərir. Şimali Kipr Türk Cümhuriyyətində bu təsirlərin qarşısını almaq üçün ailəyə yönəlik sosial dəstək proqramları həyata keçirilir.

O qeyd edib ki, xüsusilə ailə dəyərlərinə zidd düşüncələrin yayılmasının qarşısını almaq vacibdir. Ailənin mahiyyətini zəiflədən bu cür meyillərlə mübarizə aparmaq üçün həm maarifləndirmə, həm də qanunvericilik tədbirləri həyata keçirilir. Rəqəmsallaşmanın gətirdiyi mənfi təsirləri azaltmaq, ailə münasibətlərini texnologiyanın təsirindən qorumaq üçün spesifik strategiya hazırlanır.

Qırğız Respublikasının Əmək, Sosial Təminat və Miqrasiya Nazirliyinin Gender siyasəti və zorakılıqdan müdafiə qərarlarının hazırlanması şöbəsinin baş mütəxəssisi **Jarkınay Əmrakulova** bildirib ki, Türk Dövlətləri Təşkilatının Ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazir və qurum rəhbərlərinin ikinci iclası qardaş türk dövlətləri arasında təcrübə mübadiləsi, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi üçün mühüm platformadır.

O qeyd edib ki, əhalinin həssas təbəqələrinin sosial müdafiəsi və onlara dəstək təkcə dövlət siyasəti deyil, həm də milli birliyin və insan kapitalının davamlı inkişafının əsasını təşkil edir.

"Qırğız Respublikası sosial siyasət sahəsində, xüsusən də ailəyə dəstək, sosial inteqrasiya, uşaqların, yaşlı insanların və əlillərin qorunması kimi aktual sahələrdə birgə səylərə xüsusi əhəmiyyət verir. Əminəm ki, Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətimiz insanyönümlü səmərəli sosial təşəbbüslərin işlənib hazırlanmasına və həyata keçirilməsinə yeni təkan verəcək", - deyə qırğızıstanlı nümayəndə əlavə edib.

O, əməkdaşlıq üçün əlverişli mühitin yaradılmasına görə Azərbaycana minnətdarlığını bildirib.

Qırğızıstanın əmək, sosial müdafiə və miqrasiya nazirinin müavini **Janakova Kyial Bairyşev** Qırğızıstanda ailənin rifahının və dayanıqlığının dövlət siyasətinin prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb. Onun sözlərinə görə, Qırğızıstan sosial müdafiə sistemini ailələri dəstəkləməyə yönəlik daha çevik və əhatəli şəkildə inkişaf etdirir. Xüsusilə gənc ailələrin sosial-iqtisadi sabitliyini təmin etmək və uşaq rifahını artırmaq əsas hədəflərdəndir.

"Texnologiya və cəmiyyətin dəyişən dinamikası ailə münasibətlərində yeni çağırışlar yaradır. Bu səbəbdən biz həmin çağırışlara uyğun sosial və psixoloji dəstək mexanizmləri qurmağa çalışırıq. Bu gün iclasda paylaşdığımız təcrübə və fikir mübadilələri ortaq gələcəyimiz üçün çox dəyərlidir. İnanıram ki, bu əməkdaşlıq ailə institutunun qorunmasına böyük töhfə verəcək", - deyə nazir müavini əlavə edib.

Qazaxıstanın Mədəniyyət və İnformasiya Nazirliyinin Gənclik və Ailə İşləri Komitəsinin sədri **Kayrat Kambatov** mütəxəssislər tərəfindən gənc ailələrə dəstək tədbirlərinin genişləndirilməsinin vacibliyini vurğulayıb. Bildirib ki, Qazaxıstanda bu sahədə ciddi addımlar atılır və yeni proqramların həyata keçirilməsi planlaşdırılır.

"Qazaxıstanda həyata keçirilən yeni layihələr səbəbindən ötən il boşanmaq istəyi ilə məhkəməyə müraciət edən bir çox gənc ailə bu fikrindən daşınıb. Növbəti mərhələdə dünya ölkələrinin ən gözəl ailə dəyərlərinin təbliği üzrə portalın yaradılması nəzərdə tutulur. Bizim bütün regionlarımızda ailələrə dəstək mərkəzləri fəaliyyət göstərir. Həmin mərkəzlər ailələrin sosial problemlərinin həlli ilə məşğul olur. Hazırda Qazaxıstanda bütün sosial xidmətlərin avtomatlaşdırılması üzrə işlər həyata keçirilir", - deyə Kayrat Kambatov əlavə edib.

Türkmənistanın əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini **Halbibi Taçjanov** vurğulayıb ki, iclas cəmiyyətin inkişafı üçün mühüm mövzulara təsir edir. Çünki türkdilli ölkələr kontekstində ailə dəyərləri, böyüklərə hörmət xüsusi yer tutur. Ailənin rolunu anlamaq, gücləndirmək böyük əhəmiyyət kəsb edir.

Onun sözlərinə görə, Türkmənistanda ailənin əsas rolu və bu dəyərlərin əhəmiyyəti dərk edilsə də, bütün ölkələr kimi, evlilik yaşının artması, milli dəyərlərdə dəyişikliklər kimi problemlərlə qarşılaşmaq mümkündür. "Bu məsələlərin həlli üçün ailə dəyərləri dəstəklənir, ailə zorakılığına qarşı mübarizə güclənir, rəqəmsal dəstək tədbirləri həyata keçirilir, dövlət hüquqi və metodiki baza təmin edir", - deyə türkmənistanlı nazir müavini əlavə edib.

Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini **Ömər Kocaman** bu günədək Türk Dövlətləri Təşkilatı (TDT) olaraq bir çox sahədə ortaq fəaliyyətlərin həyata keçirildiyinə diqqət çəkib: "Bizim gənclər və ailələrlə bağlı fəaliyyətimiz yox idi. Gec də olsa bu işləri həyata keçirməyə başladıq. Türk dünyasında gənclərin və ailələrin problemlərinin həlli ilə bağlı gələcək planlarımız olacaq. TDT-nin digər təşkilatlardan fərqi odur ki, bu təşkilatda ortaq proqramlar və layihələr həyata keçirilir. Bu yolla da türk dünyasına xidmət göstərilir. Bizim bir çox sahələrdə ortaq layihələrimiz var".

TDT olaraq gənclər üçün innovasiya sahəsində proqramların həyata keçirildiyini xatırladan Baş katibin müavini deyib: "İndi isə qadınların problemlərinin həlli ilə bağlı layihələr həyata keçirməyin zamanıdır. Türk dünyasında 170 milyon nəfərə yaxın əhali yaşayır, onların 40 faizini gənclər təşkil edir. Bu gün bir çox ailələr təhdidlərlə üzüzədir. Bu baxımdan mənəvi keçmişdən gələn ailə dəyərlərimizi qorumaq önəmlidir. Türk Dövlətləri Təşkilatında ailə siyasətlərinin uyğunlaşdırılması üçün ortaq strategiyaların həyata keçirilməsini davam etdirəcəyik".

Tədbir mövzu ətrafında geniş müzakirələrlə davam edib.

# Məktəbəqədər təhsilin əhatə dairəsi genişləndirilir

**İyunun 11-də Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Anar İsgəndərov iclasda bir məsələnin - "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşda müzakirəyə təqdim edildiyini söyləyib.**



Komitə sədri Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edilən qanun layihəsinin təhsil sahəsinin daha da inkişafı baxımından önəmli olduğunu bildirib.

Sonra parlament Aparatının Sosial qanunvericilik şöbəsinin Humanitar məsələlər üzrə qanunvericilik sektorunun müdiri Şahin Quliyev qanun layihəsinin mahiyyəti haqqında məlumat verib. O, ölkə Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının müvafiq müddəasında məktəbəqədər təhsil sahəsində alternativ təhsil və maliyyələşmə modelləri əsasında əhatəliliyin artırılmasının nəzərdə tutulduğunu deyib. Habelə qeyd edib ki, hazırda məktəbəqədər yaşlı uşaqların təhsili yalnız məktəbəqədər təhsil müəssisələrində deyil, həm də məktəbəhazırlıq qruplarının fəaliyyət göstərdiyi ümumtəhsil məktəblərində və uşaqlar üçün icma əsaslı təlim qruplarında həyata keçirilir. Bununla yanaşı, ölkəmizdə fəaliyyət göstərən bəzi özəl uşaq inkişaf mərkəzlərində məktəbəqədər yaşlı uşaqların təhsili praktikası mövcuddur.

Diqqətə çatdırılıb ki, məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması məqsədilə "Təhsil haqqında" qanunun 18.5-ci maddəsində məktəbəqədər təhsilin həyata keçirildiyi müəssisələrə məktəbdənkənar təhsil müəssisələrinin, "Məktəbəqədər təhsil haqqında" qanunun 8.5-ci maddəsində məktəbəhazırlığın həyata keçirildiyi müəssisələrə məktəbdənkənar təhsil müəssisələrinin, həmin qanunun 11.4-cü maddəsi ilə müəyyən edilən məktəbəqədər yaşlı uşaqların təhsili ilə məşğul olan müəssisələrin növlərinə isə məktəbəhazırlıq qruplarının fəaliyyət göstərdiyi məktəbdənkənar təhsil müəssisələrinin əlavə edilməsi təklif olunur.

Məsələ ilə bağlı müzakirələrdə komitənin sədr müavini Fariz İsmayılzadə, üzvləri Şahin Seyidzadə, Ceyhun Məmmədov, Bəxtiyar Əliyev, Samir Vəliyev, Sevinc Fətəliyeva, Elçin Mirzəbəyli, Rəşad Mahmudov, Fatma Yıldırım, Afət Həsənova çıxış edərək ölkəmizdə təhsil sahəsində davamlı olaraq islahatların həyata keçirildiyini vurğulayıblar, qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin dövlətin təhsil strategiyasına uyğun olduğunu, məktəbəqədər təhsilin inkişafına xidmət etdiyini bildiriblər. Millət vəkilləri bəzi qeyd və təklifləri də səsləndiriblər.

Müzakirələrin yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Leyla Əliyevanın təşəbbüsü ilə Xızı rayonunda keçirilən "Gənc arıçı" layihəsinin təlim mərhələsi yekunlaşıb

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2021-ci ildən etibarən həyata keçirilən "Gənc arıçı" layihəsinin növbəti mərhələsi Xızı rayonunda uğurla davam edir.**



AZƏRTAC xəbər verir ki, bu il layihənin ilkin mərhələsində Xızı rayonundan 100-dən çox gənc ailə müraciət edib. Müraciətlərin qiymətləndirilməsi zamanı iştirakçıların arıçılıq sahəsindəki bilik və təcrübəsi, sosial vəziyyəti, eləcə də arıçılıq təsərrüfatının yerləşdirilməsi üçün həyətyanı torpaq sahəsinin mövcudluğu əsas seçim meyarları kimi nəzərə alınıb. Bu meyarlara əsasən seçilmiş 20 iştirakçı xüsusi təlim proqramına cəlb olunub. Təlim mərhələsində iştirakçılara arıçılıqla bağlı həm nəzəri biliklər, həm də praktik bacarıqlar aşılanıb.

Layihənin növbəti mərhələsində iştirakçılara arıçılıq təsərrüfatı qurmaq üçün arı ailələri, pətəklər, arıçı geyimləri, balsüzən aparat və digər zəruri avadanlıqlar təqdim olunacaq. Bu mərhələdə onların effektiv istehsal fəaliyyəti üçün lazımi şərait yaradılaraq arı ailələrinin paylanması həyata keçiriləcək.

Qeyd edək ki, "Gənc arıçı" layihəsi IDEA İctimai Birliyi, Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə 2021-ci ildən həyata keçirilir. Bu günədək layihə çərçivəsində ölkənin müxtəlif regionlarında yaşayan 60-dan çox gənc ailəyə arıçılıq təsərrüfatının qurulmasına dəstək göstərilib.

Layihənin məqsədi biomüxtəlifliyin əsas qoruyucularından biri olan arıların ölkə üzrə yayılma arealının genişləndirilməsi, arıçılığın ekosahibkarlıq forması kimi regionlarda təşviqi, ekoloji cəhətdən təmiz kənd təsərrüfatı fəaliyyətlərinin dəstəklənməsi və keyfiyyətli təbii bal istehsalının artırılmasıdır. Eyni zamanda layihə gənc ailələrin sosial rifahının yüksəldilməsinə və onların dayanıqlı məşğulluğunun təmin olunmasına töhfə verməyi hədəfləyir.



# Nüfuzlu lider, qüdrətli dövlət...

**Azərbaycan müstəqillik tarixindəki ən qüdrətli dövrünü yaşayır. Düz beş ildir ki, xalqımız Müstəqillik Gününü torpaqlarımızın azadlığının, suverenliyimizin tam bərpasının, bayrağımızın bütün ərazilərimizdə dalğalandırılmasının qüruru ilə qeyd edir.**

Həyata keçirdiyi uzaqgörən və məqsədyönlü siyasəti nəticəsində milli maraqlarımızı qətiyyətlə təmin edən Prezident İlham Əliyevin yürütdüyü diplomatiya ümumilikdə regionda sülhə, əməkdaşlığa və rifaha da yol açıb. Azərbaycan adına əldə edilən bütün bu uğurlar beynəlxalq müstəvidə də etiraf olunur, qalib lider İlham Əliyevin şəxsi səyləri və təşəbbüsləri ilə əldə olunan nailiyyətlər təqdirəlayiq görülür. Bu il 28 May Müstəqillik Günü ilə əlaqədar dövlətimizin başçısına ünvanlanan çoxsaylı təbrik məktubları da Azərbaycanın sayılıb-seçilən, dünyanın nüfuzlu ölkəsinə çevrilməsini özündə əks etdirirdi.

Çoxsaylı dövlət başçıları, mötəbər şəxslər, tanınmış ictimai-siyasi xadimlər tərəfindən göndərilən bu təbrik məktublarının hamısının məzmunu Azərbaycanın yüksək inkişafından xəbər verir. Həmin məktublara nəzər yetirəndə görürsən ki, onların mətni 20 il əvvəlki təbrik məktublarının mətnindən tamamilə fərqlənir. İndi Azərbaycana ünvanlanan təbrik məktublarında respublikamızın keçdiyi dinamik inkişaf yolu, Prezident İlham Əliyevin qlobal liderlik nüfuzu ön planda gəlir, dünyanın iqtisadi və güc mərkəzlərinin Azərbaycanla əməkdaşlıq istəkləri önə çəkilir. Eyni zamanda dost dövlətlərin rəhbərlərinin ölkəmizə ünvanladıqları təbrik məktublarında Azərbaycanın Qarabağ zəfəri bir daha əyan olur.

## D.TRAMP: "Azərbaycanla əlaqələrimizi yüksək qiymətləndiririk"

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra ABŞ-Azərbaycan əlaqələri ikitərəfli şəkildə inkişaf etməyə başlayıb. Hazırda da bu əlaqələr müsbət məcrada inkişaf etməkdədir. Xüsusilə qeyd edək ki, Azərbaycanı regional güc kimi qəbul edən ABŞ ölkəmizlə münasibətləri irəliyə doğru aparmaqda maraqlıdır.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın 28 May Müstəqillik Günü ilə bağlı Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda vurğulanır: "Biz Azərbaycan Respublikası ilə əlaqələrimizi və terrorizmə qarşı mübarizədə, enerji təhlükəsizliyinin inkişafında, qonşunuzla sülhə nail olmaq istiqamətində ABŞ ilə tərəfdaşlığınızı yüksək qiymətləndiririk. 30 ildən artıq diplomatik münasibətlərimiz müddətində əlaqələrimiz əhəmiyyətli dərəcədə inkişaf edib. Biz ümidvarıq ki, ikitərəfli prioritetlərimiz, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlığımız, iqtisadi münasibətlərimiz və enerji inkişafı üzrə tərəfdaşlığımız bundan sonra da davam edəcək".

Məktubda qeyd olunur ki, ABŞ Azərbaycan və Ermənistan arasında möhkəm sülhü dəstəkləməkdə davam edir: "Davamlı sülh Cənubi Qafqaz regionunun daha firavan olmasını təmin edəcək və ABŞ-la əməkdaşlıq üçün daha geniş imkanlar yaradacaq. İndi sülhə nail olmağın və Cənubi Qafqaz xalqları üçün yeni firavanlıq dövrünə qədəm qoymağın vaxtıdır.

Biz qarşıdakı illərdə və onilliklər ərzində daha dərin tərəfdaşlığa ümid edirik".

## R.T.ƏRDOĞAN: "Can Azərbaycanın əldə etdiyi nailiyyətlərdən qürur duyuruq"

"Bir millət, iki dövlət" - Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, həmrəyliyi dünyaya örnəkdir. Bütün beynəlxalq platformalarda bir-birlərinin maraqlarını müdafiə edən, dar gündə də, xoş gündə də birlikdə olan iki qardaş ölkənin səmimi münasibətlərini, sarsılmaz əlaqələrini hər iki ölkə liderinin Türkiyə və Azərbaycanın əlamətdar günlərində bir-birlərinə ünvanladıqları təbrik məktublarında də aydın görmək mümkündür.

Bu il mayın 26-da Müstəqillik Günü ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubu da bu qəbildəndir.

Türkiyə liderinin ölkəmizin rəhbəri İlham Əliyevə, "Hörmətli cənab Prezident, əziz Qardaşım" deyə xitabən başlayan təbrik məktubunda deyilir ki, bu əlamətdar bayramın ildönümündə Türkiyə kədərli və sevincli günlərdə hər zaman birlikdə olduğu Can Azərbaycanın həm regionda, həm də onun hüdudlarından kənarda əldə etdiyi nailiyyətlərdən qürur duyur və yüksəksəviyyəli əlaqələrimizi "Bir millət, iki dövlət" ruhunda daha da möhkəmləndirmək istiqamətindəki qarşılıqlı iradəmizdən böyük məmnunluq hissi keçiririk: "Qardaşlıq əlaqələrimizin və bənzərsiz əməkdaşlığımızın bizi ortaq inkişaf hədəflərimizə gündən-günə daha çox yaxınlaşdırdığını, ölkələrimizi daha da güclü və firavan etdiyini məmnuniyyətlə müşahidə edirəm".

## S.CİNPİN: "Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm"

Dünyanın nəhəng iqtisadi gücü olan Çin Azərbaycanın qlobal müstəvidə ən yaxın tərəfdaşlarından biridir. İki dost ölkə arasında ikitərəfli münasibətlər strateji tərəfdaşlıq müstəvisinə yüksəlib. Azərbaycan və Çin liderləri İlham Əliyev və Si Cinpin arasında olan yüksəksəviyyəli dostluq münasibətləri əlaqələrin möhkəmlənməsinə böyük töhfələr verir. Aprelin 22-24-də Prezident İlham Əliyevin Çinə dövlət səfəri ölkələrimiz arasında münasibətlərin inkişafı üçün tarixi əhəmiyyət kəsb etdi.

Bu il Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda Çin lideri Si Cinpin məhz bu məqamı vurğulayıb: "Siz keçən ay Çində uğurlu dövlət səfərində oldunuz və biz birlikdə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulmasını elan etdik, bununla da ikitərəfli əlaqələrin inkişafı üçün yeni perspektivlər açdıq, yeni vəzifələr müəyyənləşdirdik".

"Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm və çoxvektorlu qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsi, ikitərəfli əlaqələrin yeni səviyyəyə yüksəlməsi, Çin və Azərbaycan xalqlarının rifahı naminə ölkələrimizin inkişafına dəstək verilməsi üzrə Sizinlə birgə səylər göstərməyə hazıram".

## M.Ş.ŞƏRİF: "Qəlblərimiz həmişə bir döyünür"

"Pakistan Azərbaycanla bütün vacib məsələlərdə qarşılıqlı etimada, nümunəvi səmimi münasibətlərə və bir-birinə qətiyyətli dəstəyə əsaslanan tarixən çox gözəl qardaşlıq əlaqələrini yüksək qiymətləndirir. Məmnunluqla bildirmək istərdim ki, Sizin müstəsna liderliyiniz və güclü dəstəyiniz sayəsində dostluq münasibətlərimiz müsbət istiqamətdə inkişaf edir və biz onları daha geniş qarşılıqlı faydalı iqtisadi tərəfdaşlığa çevirmək üçün birlikdə işləyirik".

İki qardaş ölkə Pakistan ilə Azərbaycan arasında sarsılmaz əlaqələrin inkişafını bir daha nümayiş etdirən bu fikirlər Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin ölkəmizin müstəqillik bayramı münasibətilə Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda öz əksini tapıb.

Baş nazir qeyd edib: "Hindistanla yaşanan son böhran zamanı Pakistana davamlı dəstəyinizə görə Zati-alinizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Pakistanla davamlı həmrəylik nümayiş etdirdiklərinə görə azərbaycanlı qardaşlarımıza da təşəkkür edirik. Həqiqətən əsl qardaşlar olaraq, xüsusilə də talelərimiz bir-birinə oxşar olduğu üçün qəlblərimiz həmişə bir döyünür".

## V.PUTİN: "Rusiya-Azərbaycan münasibətləri dostluq, müttəfiqlik xarakteri daşıyır"

Azərbaycan tarixən mədəni, humanitar, iqtisadi əlaqələrin mövcud olduğu şimal qonşumuz Rusiya ilə qarşılıqlı etimada əsaslanan münasibətlərə malikdir. İki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Mayın 27-də Müstəqillik Günü ilə əlaqədar Prezident İlham Əliyevə ünvanladığı tədrik məktubunda Rusiya Prezidenti Vladimir Putin qeyd edib ki, ölkəniz sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq arenada artan nüfuza malikdir: "Rusiya-Azərbaycan münasibətləri dostluq, müttəfiqlik xarakteri daşıyır. Əminəm ki, konstruktiv ikitərəfli əməkdaşlığın, beynəlxalq məsələlərdə tərəfdaşlıq üzrə qarşılıqlı fəaliyyətin bundan sonra da birgə səylərlə gücləndirilməsini təmin edə biləcəyik. Bu, xalqlarımızın maraqlarına tamamilə uyğundur - Cənubi Qafqazda və Xəzər regionunda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi məcrasında davam edir".

## İ.HERSOQ: "Bilin ki, İsrail Dövləti uğurlarınıza və nailiyyətlərinizə sevinir"

Tarixi dostluq münasibətlərinə malik İsrail Azərbaycan əlaqələri daim inkişaf edir.

"Həm İsrail, həm də regionumuz üçün sabitlik mayakı olan Azərbaycanla strateji tərəfdaşlığımız Yerusəlimdə yüksək qiymətləndirilir. Siz regional sülhün əldə olunmasında səylər göstərməyi prioritet müəyyən etmisiniz, bu da Azərbaycanın dialoq və diplomatiya üçün mühüm platformaya çevrilməsinə səbəb olub", - deyə Müstəqillik Günü ilə əlaqədar dövlətimizin başçısı İlham Əliyevə göndərdiyi təbrik məktubunda İsrail Prezidenti İsxak Hersoq vurğulayıb ki, Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi tərəqqinin və rifahın parlaq nümunəsinə çevrilib. Ölkəniz dini tolerantlığın və anlaşmanın gözəl modeli hesab olunur və burada cəmiyyətin bütün təbəqələri harmoniya içərisində yaşayırlar. Həqiqətən də antisemitizmin bütün dünyada yayıldığı bir dövrdə Azərbaycan harmoniya içərisində birgəyaşayışın parlaq nümunəsidir.

İ.Hersoq bildirib: "Təhlükəsizlik, innovasiya, enerji və ticarət kimi çox əhəmiyyətli sahələr də daxil olmaqla, ortaq məqsədlərimizə nail olmaq üçün imkanlar çoxdur.

"Konstitusiya və Suverenlik İli"ni qeyd etdiyiniz bir vaxtda, bilin ki, İsrail Dövləti uğurlarınıza və nailiyyətlərinizə sevinir".

## T.ŞUYOK: "Macarıstan üçün Azərbaycanla dostluq münasibətlərinin dərinləşməsi mühüm əhəmiyyət kəsb edir"

Azərbaycan və Macarıstan strateji tərəfdaşlıq əlaqələrinə malik ölkələrdir. Azərbaycan Macarıstan ilə münasibətlərin inkişafına əhəmiyyət verir və iki dost ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir.

28 May Müstəqillik Günü ilə bağlı dövlətimizin başçısı İlham Əliyevə göndərdiyi təbrik məktubunda Macarıstan Prezidenti Tamaş Şuyok şad olduğunu bildirib ki, son illər ölkələrimiz qarşılıqlı hörmət və səmimiyyətə əsaslanan geniş əməkdaşlığı inkişaf etdiriblər: "Macarıstan üçün Azərbaycanla dostluq münasibətlərinin dərinləşməsi mühüm əhəmiyyət kəsb edir və bunun üçün genişlənmiş strateji tərəfdaşlığımız möhkəm təməl yaradır.

Sizi əmin edə bilərəm ki, Macarıstan siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığımızı daha da inkişaf etdirməyə sadiqdir".

## İran əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə qədər genişləndirmək əzmindədir

İran Azərbaycan əlaqələri qarşılıqlı etimad quruculuğu əsasında inkişaf edir. Bu il aprelin 28-də İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfər etməsi bunu bir daha təsdiq etdi.

İran Prezidenti Məsud Pezeşkianın Müstəqillik Günü ərəfəsində Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda da deyilir ki, dost və qonşu xalqlarımızın ortaq tarixi, onlar arasındakı qırılmaz bağlar ölkələrimizin münasibətlərinin inkişafı üçün qiymətli sərmayə yaratmışdır: "İran İslam Respublikası əlaqələri ortaq maraqlar çərçivəsində strateji tərəfdaşlıq səviyyəsinə qədər genişləndirmək və yüksəltmək əzmindədir, bu baxımdan nəqliyyat, elektrik enerjisi, təbii qaz ilə bağlı müxtəlif sahələrdə ortaq layihələrin tamamlanması işlərinin sürətləndirilməsinin, ticarət mübadiləsinin həcminin artırılmasının, insanlar arasında təmasların asanlaşdırılmasının önəm kəsb etdiyini vurğulayır".

Məktubda o da qeyd olunur ki, İran İslam Respublikası ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşmaqla regionda davamlı sülhün və təhlükəsizliyin bərqərar olmasında mühüm rol oynaya biləcək kommunikasiya yollarının açılacağına inanır.

## S.MATTARELLA: "Ənənəvi dostluq münasibətləri əməkdaşlığımızın möhkəm təməlini təşkil edir"

Mayın 27-də İtaliya Prezidenti Sercio Mattarellanın Müstəqillik Günü ilə əlaqədar Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda deyilir: "Xalqlarımız arasında mövcud olan ənənəvi dostluq münasibətləri əməkdaşlığımızın möhkəm təməlini təşkil edir. Son illərdə əlaqələrin getdikcə intensivləşməsi, xüsusilə də ötən ilin sentyabr ayında Sizin Romaya etdiyiniz dəyərli səfər münasibətlərimizin gələcəyinə inamla baxmağa imkan verir. Bu isə ortaq maraq doğuran bir çox sahələrdə strateji tərəfdaşlığın daha da inkişafı üçün ideal zəmin yaradır".

İtaliya Prezidenti bildirib ki, daimi dialoq və qarşılıqlı anlayış həm ikitərəfli səviyyədə, həm də Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlər kontekstində İtaliya tərəfindən ardıcıl olaraq təşviq olunan vasitələrdir: "Məqsədimiz bugünkü mürəkkəb beynəlxalq şəraitdə yaxşı qonşuluq əlaqələrini, regional sabitliyi və ümumi inkişafı dəstəkləməkdir".

## Əlahəzrət III ÇARLZ: "Mən çox şadam ki, ölkələrimiz belə sıx əlaqələrə malikdir"

Müstəqillik Günü münasibətilə Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlz Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda yazır: "Mən çox şadam ki, ölkələrimiz belə sıx əlaqələrə malikdir və dostluğumuzun daha da möhkəmlənməsini səbirsizliklə gözləyirəm.

Ümidvaram və əminəm ki, ölkələrimiz qlobal miqyasda hamımıza təsir edən iqlim dəyişikliyinin və ətraf mühit problemlərinin müsbət həlli üçün əməkdaşlıq edə bilərlər".

## D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi: "Azərbaycan qlobal məsələlərdə rolunu daha da artırıb"

Azərbaycanın Müstəqillik Günü ilə əlaqədar çoxsaylı dövlət başçıları Prezident İlham Əliyevə təbrik məktubları ünvanlayıblar və biz onlardan sadəcə bir neçəsini nümunə gətirdik. Eyni zamanda ölkəmizin liderinə beynəlxalq təşkilatların rəhbərləri, tanınmış xadimlər təbriklərini çatdıraraq xoş arzularını bildiriblər.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda deyib: "Müstəqilliyinin bərpasından keçən dövr ərzində siyasi, iqtisadi və sosial sahələrdə böyük irəliləyişlərə nail olmuş Azərbaycan Respublikası zati-alinizin müdrik siyasəti sayəsində daha da inkişaf etmiş, regional və beynəlxalq məsələlərdə fəal iştirakı ilə seçilmiş, xüsusilə də sülhün, sabitliyin, əməkdaşlığın və rifahın təşviqində göstərdiyiniz səylərlə regionun lider ölkəsinə çevrilmişdir".

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi İsiaka Abdulqadir İmam təbrik məktubunda yazıb: "Azərbaycan, şübhəsiz ki, Zati-alinizin müdrik rəhbərliyi ilə sosial-iqtisadi inkişaf istiqamətində möhtəşəm uğurlar əldə edib və bununla da həm regional, həm də qlobal məsələlərdə rolunu daha da artırıb.

D-8 ailəsinin ən yeni üzvü kimi Azərbaycan təşkilatımıza özü ilə zəngin təcrübə, dinamizm və inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığa möhkəm sadiqlik gətirib. Biz Azərbaycanın çoxtərəfliliyə və inklüziv inkişafa davamlı dəstəyini yüksək qiymətləndiririk. Əminəm ki, Azərbaycanın D-8 təşkilatında fəal iştirakı qarşılıqlı fayda naminə qurumun daha da inkişaf etməsinə mühüm töhfə verəcək".

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Taha qeyd edib ki, İƏT Azərbaycanla sıx əlaqələrini yüksək qiymətləndirir və islam fəaliyyətinin birgə təşviqi məqsədini daşıyan bu qurumun dəstəklənməsində ölkənizin rolunu təqdir edir: "Üzv ölkələrin xalqları arasında həmrəyliyin gücləndirilməsində və birgə islam fəaliyyəti üçün yeni üfüqlərin açılmasında Zati-alinizin dəstəyinə ümidvaram".

Gətirdiyimiz misallardan da göründüyü kimi, dünyanın hər yanından dövlət və hökumət başçıları, nüfuzlu təşkilatların rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər tərəfindən Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə çoxsaylı təbrik məktubları ünvanlanıb. Bütün bunlar bir daha Azərbaycanın dünyadakı nüfuzundan, Prezident İlham Əliyevin qlobal liderliyindən xəbər verir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Baş prokurorun Keniyaya işgüzar səfəri başa çatıb



**İyunun 10-da Mombasa şəhərində Millətlər Birliyinə (Commonwealth of Nations) üzv ölkələrin baş prokurorlarının 23-cü konfransı başlayıb.**



Konfransın açılış mərasimində Keniya və Avstraliya dövlət prokurorluqlarının rəhbərləri çıxış edərək Azərbaycan prokurorluğunun nümayəndə heyətinin xüsusi qonaq qismində iştirakını yüksək qiymətləndirib, ölkəmizin beynəlxalq hüquqi əməkdaşlıq sahəsindəki fəal rolunu vurğulayıblar.

Daha sonra baş prokuror Kamran Əliyev cinayət təqibinə qədər terrorçuluğun qarşısının erkən alınması üzrə milli yanaşmalara həsr olunmuş əsas sessiyaya sədrlik edib. İclasda radikallaşmanın qarşısının alınması və terrorçuluğun yaranma səbəblərinə erkən müdaxilə mexanizmlərinin tətbiqi məsələləri müzakirə olunub.

Kamran Əliyev Azərbaycanın terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığa daim xüsusi önəm verdiyini vurğulayıb, bu istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat verib.

Sessiyada Uqandanın baş prokuroru Ceyn Abodo, Cənubi Avstraliya ştatının baş prokuroru Martin Kinton və Böyük Britaniya Ali Komissiyasının Nayrobidəki müşaviri Cenifer Ridel çıxış ediblər. Panel müzakirələrində radikallaşma və zorakı ekstremizmin qarşısının alınması sahəsində prokurorluq orqanlarının tətbiq etdiyi preventiv müdaxilə mexanizmləri üzrə milli təcrübələr bölüşülüb.

Konfrans çərçivəsində baş prokuror Kamran Əliyev Birləşmiş Krallıq, Avstraliya, Uqanda, Tanzaniya, Zimbabve, Seyşel Adaları və digər ölkələrin baş prokurorları ilə ikitərəfli görüşlər keçirərək cinayətkarlıqla mübarizədə təcrübə mübadiləsi, hüquqi əməkdaşlığın və müqavilə-hüquq bazasının genişləndirilməsi imkanları barədə müzakirələr aparıb. Kamran Əliyev Keniyanın yerli media nümayəndələrinə müsahibə verib.

Nümayəndə heyətinin Keniyaya işgüzar səfəri başa çatıb.

*"Azərbaycan"*

# COP29 rəhbərliyi Brüsseldə keçirilən COP30-IEA yüksəksəviyyəli enerji dialoqu konfransında çıxış edib

**COP29-un rəhbəri və Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Brüsseldə keçirilən COP30-IEA (Beynəlxalq Enerji Agentliyi) Avropa Komissiyası arasında yüksəksəviyyəli enerji dialoqu konfransında iştirak edir.**



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxışı zamanı Muxtar Babayev ədalətli, nizamlı və bərabər enerji keçidinin təmin olunması, iqlim maliyyəsi öhdəliklərinin yerinə yetirilməsi və Milli Müəyyən Edilmiş Töhfələrin (NDC) gücləndirilməsinin vacibliyinə toxunub.

Muxtar Babayev ötən il Bakıda keçirilmiş COP29 konfransında əldə olunan əsas nəticələrə diqqət çəkərək bildirib ki, BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Təsirin Azaldılması üzrə İş Proqramı danışıqlarda çətinliklərlə üzləşsə də, Bakı sammitində böyük irəliləyişlərə nail olunub. Bu proqramın şəhərlər, binalar və şəhər sistemləri üzərində mühüm təsiri qeyd olunub. Bu istiqamətdə iş prosesinin davamı olaraq, Azərbaycan 2026-cı ildə Ümumdünya Şəhər Forumuna evsahibliyi edəcək.

Muxtar Babayev həmçinin COP29-un Qlobal Enerji Saxlancı və Şəbəkələri çərçivəsində elan olunan qlobal öhdəliklər barədə danışıb. Bunlar arasında 2030-cu ilə qədər enerji saxlanması gücünün 1500 qiqavata çatdırılmasını və 2040-cı ilə qədər 80 milyon kilometrə yaxın enerji ötürmə şəbəkəsinin tikilməsini nəzərdə tutan "Qlobal Enerji Saxlama və Şəbəkələr üzrə Öhdəlik", eləcə də "Yaşıl Enerji Zonaları və Dəhlizləri üzrə Öhdəlik" və "Hidrogen üzrə Bəyannamə" xüsusi yer tutur. Bu sənədləri 60-dan çox ölkə dəstəkləyib.

COP29-un rəhbəri çıxışında Bakıda qəbul edilən 300 milyard dollarlıq Bakı Maliyyə Məqsədinin tarixi nəticə olduğunu vurğulayıb. O, bəzi donor ölkələrin iqlim dəstəyi və yardım proqramlarını azaltmasından narahatlığını ifadə edərək bildirib ki, bu vədlər yerinə yetirilməzsə, qlobal etimada ciddi zərbə dəyəcək.

M.Babayev qeyd edib ki, təmiz inkişaf yollarını dəstəkləyən çevik və dayanıqlı maliyyə sisteminin yaradılması enerji keçidinin uğurla həyata keçirilməsi üçün əsas şərtdir. Bu məqsədlə Azərbaycan və Braziliya hökumətləri "Bakıdan Beləmə yol xəritəsi" üzərində birgə işləyir və yaxın günlərdə Bonn şəhərində bu istiqamətdə rəsmi məsləhətləşmələr keçiriləcək.

Çıxışının sonunda M.Babayev Azərbaycanın COP30 sədrliyi ilə sıx əməkdaşlıq edərək, Beləmdə keçiriləcək növbəti COP-un "icra COP-u" olması üçün dəstəyini davam etdirəcəyini bildirib.

Qeyd edək ki, iyunun 13-də Azərbaycan və Avropa Komissiyası arasında yüksəksəviyyəli enerji dialoqunun üçüncü raundu Brüsseldə keçiriləcək. Danışıqlarda Azərbaycan tərəfini energetika naziri Pərviz Şahbazov, Avropa Komissiyasını isə Aİ-nin enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgensen təmsil edəcək.

Xatırladaq ki, ötən il Beynəlxalq Enerji Agentliyi (BEA) və COP29-un sədrliyi birlikdə COP28-in nəticələrinin həyata keçirilməsini inkişaf etdirmək və COP29-a qədər enerji gündəmini formalaşdırmaq üçün nazirləri, texniki ekspertləri və əsas tərəfdaşları bir araya gətirən beş Yüksəksəviyyəli Enerji Keçid Dialoqu keçirib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Daşlarla yazılan qardaşlıq dastanı

## Kahramanmaraşda "Azərbaycan məhəlləsi"nin açılışına çox qalmayıb

**O gün səhərə yaxın saat 4:17-də zəlzələ qaranlıq gecəni sarsıdan, ürəkləri titrədən, göz yaşlarını axıdan bir fırtına kimi gəldi. Qəflətən ana torpaq yerindən oynadı, dağlar titrədi, şəhərlər yıxıldı. Türkiyənin ürəyi dayandı, bütün türk dünyası sarsıldı. Səssizlik birdən-birə qışqırıqlara, ah-naləyə, göz yaşlarına və kədərə çevrildi. Yerlə göy bir-birinə qarışdı sanki. Dünya bir anlıq susdu.**



2023-cü il fevralın 6-dan 7-nə keçən gecə Türkiyənin cənubunda, əsasən Kahramanmaraş vilayətində baş verən 7,7 və 7,6 bal gücündəki zəlzələ ölkənin son 100 ildə baş vermiş ən böyük təbii fəlakətlərindən biri olaraq tarixə düşdü. Zəlzələ nəticəsində ümumilikdə Türkiyədə 53537 nəfər insan həlak oldu. Təkcə Kahramanmaraş vilayətində 12713 nəfər həyatını itirdi, minlərlə insan yaralandı. Şəhərin bir çox hissəsində yaşayış evləri, infrastruktur binaları ya tamamilə dağılıb yararsız hala düşdü, ya da ciddi ziyan gördü. Yüz minlərlə insan evsiz qaldı, məcburən sığınacaqlara, çadır şəhərciklərinə yerləşdirildi. Kahramanmaraşın iqtisadiyyatı böyük itkilər verdi, xüsusilə tikinti, ticarət və xidmət sahələrinə daha çox zərər dəydi. Fəlakətdən sonra 95 ölkə Türkiyəyə yardım göndərdi. Bir gün içində 8000-dən çox insan dağıntılar altından xilas edildi. 2,7 milyon insan evini tərk etmək məcburiyyətində qaldı, 658000 nəfər işini itirdi. Türkiyə hökuməti dağıntılar nəticəsində 319000 yeni ev tikməyi vəd etdi. Beynəlxalq yardımların ümumi həcmi 7,5 milyard dolları keçdi.

Zəlzələ təbiətin amansız çağırışı, xatırlatmasıdır - nə qədər güclü olursan ol, bəzən səni həyatın kövrəkliyini, birlik və sevginin nə qədər vacib olduğunu anlamağa məcbur edir. Dağıntıların arasında közərən işıq, bir-birindən yapışan əllər, ürəklərin bir ritm kimi döyünməsi, hər itki, hər göz yaşı həm də yenidən doğulmağın, dirçəlməyin, insan ruhunun sarsılmazlığının işarəsidir. Zəlzələ dağıtsa da, insanlıq toxumunu heç vaxt əzə bilməz. Çünki hər sarsıntı, bir ümiddir. Hər dağıntı yenidən qurulacaq sabahın başlanğıcıdır. Və hər qəlb yaşanmış acılarla daha güclü, daha mərhəmətli döyünür. Zəlzələ fəlakəti nə qədər güclü gəlsə də, hər yanı viran qoysa da, dağıntılar arasında belə insanın ən dərin gücü olan ümid, mərhəmət, şəfqət çiçəklənir, qardaşlıq güclənir. Belə çətin günlərdə əsl qardaşlıq özünün gücünü, səxavətini, mərhəmətini göstərir, insanlar acını, kədəri, ağrını bölüşürlər. Fəlakətin ortasında doğan bu doğmalıq ruhu hər kəsin içindəki ən yaxşı duyğuları oyadır, qəlbləri titrədir.

Fəlakət baş verən günün ertəsi Azərbaycan xalqının yardımı dünyaya örnək idi. Hamı bir yumruq kimi birləşərək qardaş Türkiyənin yanında oldu, çətin günlərdə həmrəylik və insanlıq nümunəsi göstərdi. İnsanlar sərhədləri unudub, yardıma tələsdi, ürəklərdəki mərhəmət və sevgi ilə əl-ələ verdi. Bu böyük bəlanın ağrısına dayanmaq, həyatları xilas etmək üçün ortaya sərhədsiz bir birlik qoyuldu. Hər evdən, hər qəlbdən çıxan kiçik bir yardım belə zəlzələ qurbanlarına sevinc və ümid oldu. Kimin əlində nə vardısa, nəyə gücü çatdısa - isti paltar, yataq dəsti, yemək, tibbi ləvazimatlar - paylaşıldı. Hər bir yardım paketi qardaşlıq və mərhəmətin simvoluna çevrildi. Bu, təkcə maddi dəstək deyil, həm də qəlblərin birləşməsinin, kədəri bölüşməyin ən gözəl ifadəsi idi. Azərbaycandan gedən hər bir yardım dağıntıların içində doğan yeni ümid kimi parladı.

Azərbaycan dövlətinin bu fəlakətə qarşı göstərdiyi səylər həm regional, həm də beynəlxalq miqyasda dərin təəssürat yaratdı. Yardım kampaniyaları təşkil olundu, tibb mütəxəssisləri və xilasedicilər dərhal bölgəyə göndərildi. Bu, həm Azərbaycan xalqının və dövlətinin qardaşlıq ruhunun, həm humanitar yardımın nə qədər güclü və səmərəli ola biləcəyinin bariz sübutu kimi yaddaşlara hopdu, həm də onu göstərdi ki, insanlığı birləşdirən, sınanmış dostluğu və sarsılmaz qardaşlığı möhkəmləndirən nəsnə həmrəylik, mərhəmət və şəfqətdir. Bu yardım dalğası sübut etdi ki, fəlakətlər insanları parçalamaq əvəzinə, daha da yaxınlaşdırır, birlikdə daha güclü olmağımıza səbəb olur. Ölkəmizin göstərdiyi möhtəşəm həmrəylik nümunəsi bütün dünyaya insanlıq dərsi verdi. Rəsmi dövlət xətti ilə zəlzələ anından etibarən qardaş Türkiyəyə sürətli və genişmiqyaslı yardım göstərildi. Xilasetmə komandaları dərhal sahəyə göndərildi. Azərbaycan dövləti zəlzələdən zərərçəkən ailələrə ünvanlı sosial yardımlar təyin etdi. Yardımların məbləği ailənin orta aylıq gəliri ilə ehtiyac meyarının məcmusu arasındakı fərq əsasında hesablandı. Bu, həmrəyliyin, dostluğun, qardaşlığın ən gözəl nümunəsi idi.

Azərbaycan xalqının, dövlətinin həmrəylik və yardım əzmi zəlzələnin yaratdığı acıları azaltmağa böyük dəstək verdi. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun zəlzələ bölgəsinə göndərdiyi humanitar yardım türk xalqının yarasına məlhəm oldu. Yardım yalnız dövlətlərarası əlaqələrdən ibarət deyil, həm də xalqların bir-birinə olan və çox dərindən gələn sevgisi, daha çox isə qardaşlıq duyğusudur. Həmin duyğu "Bir millət, iki dövlət"in simvolu olaraq heç vaxt unudulmayacaq. Bu duyğular yalnız yardım paketləri ilə yox, eyni zamanda yaşayış üçün yeni ümidlər yaradan layihələrlə yaşadıldı.

Qardaşlıq yalnız dərdlərə şərik olmaqla deyil, eyni zamanda yenidən birlikdə tikib-qurmaqla daha da güclənir. Zəlzələnin izlərini silmək üçün Azərbaycan tərəfindən atılan mühüm addımlar arasında xüsusilə Kahramanmaraşda "Azərbaycan məhəlləsi"nin tikintisi yaddaşlardan heç bir zaman silinməyəcək. Zəlzələdən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan hökuməti fəlakətin baş verdiyi Kahramanmaraş vilayətində yeni yaşayış məhəlləsinin tikintisinə dəstək verdi. Türkiyə hökumətinin təşəbbüsü ilə həmin ərazi "Azərbaycan məhəlləsi" adlandırıldı.

Dəhşətli fəlakətdən bizi iki illik zaman kəsiyi ayırır. Ötən müddət ərzində aparılan sürətli işlərin nəticəsi olaraq "Azərbaycan məhəlləsi"nin tikintisi artıq başa çatıb. Yaxın günlərdə Prezident İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə məhəllənin açılışı nəzərdə tutulub. Layihə çərçivəsində Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) və Türkiyənin Mənzil İnşaatı İdarəsi (TOKİ) birgə əməkdaşlıq ediblər. "Azərbaycan məhəlləsi" layihəsi Kahramanmaraşın Hayrullah mahalləsi ilə Şazibey mahalləsi arasındakı 320 hektarlıq ərazidə inşa edilib. Məhəllə zəlzələ şəraitində insanların təhlükəsiz yaşaya bilmələri üçün xüsusi olaraq tikilmiş binalardan ibarətdir. Bu binalar müasir tikinti standartlarına uyğun olaraq, zəlzələyə davamlı materiallarla inşa edilib. Azərbaycan mühəndislərinin və inşaatçılarının əməyi nəticəsində binalar həm funksional, həm də estetik cəhətdən gözəl dizayn edilib. Ərazidə 1323 mənzil, 799 qeyri-yaşayış obyekti olmaqla 2122 bina tikilib. Tikililər arasında məktəb, mədəniyyət mərkəzi, parklar və digər sosial obyektlər də yer alıb. 4 kvartalda hər biri 4 mərtəbədən ibarət 26 yaşayış binası yerləşir. Ümumilikdə 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib. Burada zəlzələdən ciddi ziyan çəkən Sezai Karakoç ibtidai məktəbinin yerində Heydər Əliyev adına məktəb tikilib.

Xatırladaq ki, hələ 2024-cü il 11 sentyabr tarixində "Azərbaycan məhəlləsi"ndə inşa edilən həmin məktəbin və uşaq bağçasının açılışı baş tutub. Üçmərtəbəli müasir məktəb və uşaq bağçası kimi fəaliyyət göstərən binalarda 20 ibtidai sinif otağı, 3 uşaq bağçası otağı yerləşir. İbtidai məktəbdə təhsilə dəstək məqsədilə əlavə otaqlar da mövcuddur. Bunlar texnologiya, riyaziyyat və mühəndislik sahəsində bacarıqların təkmilləşdirilməsi üçün, eləcə də xüsusi alətlər və tədris materialları ilə təchiz olunmuş emalatxanalardır. Məktəbdə musiqi dərslərinin keçirilməsi üçün musiqi alətlərinin olduğu musiqi otağı, rəsm və əmək dərslərinin keçirilməsi üçün 2 emalatxana da şagirdlərin xidmətindədir.

Çətin günlərdə ölkələr arasındakı bu dostluq körpüsü bir daha sübut etdi ki, ən ağır sınaqlarda belə insanlıq və qardaşlıq hissləri sarsılmazdır. Bu hadisə bizə göstərdi ki, zəlzələ fəlakəti nə qədər böyük olsa da, insanları birləşdirən, bir-birinə dayaq olan sevgidən, mərhəmətdən daha güclü heç nə yoxdur. "Azərbaycan məhəlləsi" qardaşlıq ruhunun parlaq bir nümunəsi olaraq iki ölkə arasındakı əlaqələri gücləndirərək, birgə mədəniyyət mübadiləsi, ticarət və əməkdaşlıq sahələrində yeni imkanlar açacaq, qarşılıqlı anlaşma və dostluğun möhkəmlənməsinə zəmin yaradacaq. Məhəllə bir zamanlar yerindən oynamış Kahramanmaraşın yenidən həyat taparaq qurulması və gələcək nəsillərin təhlükəsiz yaşaması üçün möhkəm bir təməl olmağa davam edəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# BP-nin ölkəmizdə təhsilə növbəti dəstəyi

**BP Azərbaycanda hüquq təhsili sahəsində keyfiyyətin artırılmasına yönəlmiş yeni bir layihəsini təqdim edib. Layihə yerli universitetlərdə hüquqşünaslıq üzrə tədrisin təkmilləşdirilməsi məqsədilə altı mühüm dərsliyin hazırlanması və nəşrindən ibarətdir.**

Layihənin məqsədi təhsildə mükəmməlliyin təmin olunmasına dəstək vermək, hüquqi savadlılığı təşviq etmək və ölkədə yeni nəsil hüquq mütəxəssislərinin yetişməsinə töhfə verməkdir. Artıq nəşr olunmuş 5 kitab ictimaiyyətə təqdim edilib. Qalan altıncı kitabın nəşri isə bu ilin sentyabr ayına planlaşdırılır. Bu layihə BP-nin Azərbaycanda təhsilin inkişafına və bacarıqların artırılmasına dəstəyinin bir hissəsidir.

Kitablardan biri "Beynəlxalq Tibb Hüququ. Xüsusi hissə" adlanır. Azərbaycanda yeni olan bu dərslik səhiyyə və insan hüquqları sahələrinin kəsişməsini əhatə edir və ölkənin beynəlxalq tibbi əməkdaşlıqda artan iştirakını əks etdirir. "Azərbaycan Respublikasının Mediasiya Hüququ. Ümumi Müddəalar". Azərbaycanda bu sahədə də ilk olan bu dərslik mediasiyanın hüquqi çərçivəsini təqdim edir, onun prinsipləri, quruluşu və normativ aspektləri barədə ətraflı məlumat verir. "Mediasiya Hüququ. Xüsusi hissə", adından da göründüyü kimi, mediasiya hüququnun elmi və doktrinal əsaslarına həsr olunub.

"Beynəlxalq Publik Hüquq Kursu. Ümumi Hissə" (birinci cild, ikinci nəşr, yenilənmiş) beynəlxalq publik hüquq üzrə ilk akademik kursun yenilənmiş nəşridir və bu sahənin öyrənilməsində əhatəli doktrinal yanaşmanı təqdim edir. Beşinci kitab "Beynəlxalq Publik Hüquq Kursu. Xüsusi Hissə"dir (ikinci cild, ikinci nəşr, yenilənmiş). Bu dərslik beynəlxalq publik hüququn xüsusi sahələrinin, o cümlədən beynəlxalq müqavilələr hüququnun, xarici əlaqələr hüququnun, beynəlxalq təşkilatlar hüququnun, humanitar hüququn və beynəlxalq iqtisadi hüququn ətraflı təhlilini təqdim edir. Bundan sonra nəşr olunacaq kitab isə "İnsan Hüquqları. Ensiklopediya"dır.

Altı tədris vəsaitinin hamısı tələbələr, müəllimlər, elmi ictimaiyyətin nümayəndələri, hüquqşünaslar, insan hüquqları müdafiəçiləri, beynəlxalq münasibətlər üzrə mütəxəssislər, magistr və doktorantlar, hüquq alimləri və təcrübəçiləri, eləcə də mediatorlar və siyasətçilər daxil olmaqla geniş auditoriya üçün nəzərdə tutulub.

Layihənin ümumi dəyəri 230 min 38 AZN-dir. Bu məbləğə məzmunun hazırlanmasından nəşr və layihənin idarə olunmasına qədər bütün xərclər daxildir.

Layihə "Müasir Beynəlxalq Hüquq və Davamlı İnkişaf" İctimai Birliyi tərəfindən icra olunur.

# "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində 25 minə yaxın şəxs üçün təsərrüfatlar qurulub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində ötən dövrdə 25 minə yaxın şəxs avadanlıqlarla təmin edilib.**

Verilmiş avadanlıqlar hesabına onlar istehsal və xidmət sahələri üzrə kiçik təsərrüfatlarını qurublar.

2020-2025-ci illəri əhatə edən bu layihə özünüməşğulluq proqramının genişlənməsinə, həssas əhali qruplarının (əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və b.) kiçik biznesə çıxışına dəstək məqsədi daşıyır.

22 min işsiz şəxsi əhatə etməsi hədəflənən layihənin uğurlu icrasının nəticəsi olaraq 2025-ci ilin sonunadək 26 mindən artıq benefisiarın bu layihəyə cəlb edilməsi hədəflənib.

# "Süni zəka ilə sosial dəyişim"

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Qusar rayonunda "Konstitusiya və Suverenlik" ilinə həsr olunmuş "Süni zəka ilə sosial dəyişim" adlı tədbir keçirilib.**

Tədbirin əsas məqsədi süni intellekt sahəsindəki aktual trendləri, bu texnologiyanın dövlət idarəçiliyində tətbiqi imkanlarını və ictimai xidmətlərdə rolunu müzakirə etmək olub.

Hər iki qurumun nümayəndələrinin iştirakı ilə "Dövlət və süni zəka: Texnologiyadan strateji alətə" adlı panel müzakirə keçirilib. Həmçinin süni intellektin sosial ehtiyaclarının proqnozlaşdırılması mövzularında da müzakirələr aparılıb. İştirakçılar həm nəzəri, həm də praktiki bilik və bacarıqlarını paylaşmaq və inkişaf etdirmək imkanı əldə ediblər. Proqram çərçivəsində müxtəlif komanda yarışları təşkil olunub, qaliblərə diplom və mükafatlar təqdim edilib.

# Azərbaycanda 21 yeni domen dövlət qurumlarının istifadəsinə verilib

**Bu ilin yanvar-may aylarında Azərbaycanda 21 yeni domen dövlət qurumlarının istifadəsinə verilib. AZƏRTAC Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter insidentlərinə qarşı mübarizə mərkəzinin hesabatına istinadla xəbər verir ki, bu göstərici 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 34 faiz azdır.**

Hesabat dövründə dövlət qurumlarının istifadəsinə 103 yeni subdomen də verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 36 faiz azdır. Eləcə də ötən dövr ərzində Azərbaycanda dövlət qurumlarının adına bənzər 5 saxta domen bloklanıb.

Qeyd edək ki, 2024-cü ildə dövlət qurumları 64 yeni domen və 367 yeni subdomen əldə edib. Hesabat dövründə 100 saxta domen aşkarlanaraq Dövlət Xidməti tərəfindən bloklanıb.

# Dünya ticarət bazarının tələbi: ucuz, keyfiyyətli, innovativ

## Azərbaycanda bu tələbi hədəfləyən dövlət proqramının icrası cari il başa çatır

**Bu gün Azərbaycanın dünyanın bütün qitələri ilə ticarət əlaqələri var. Bu onu göstərir ki, ölkəmiz beynəlxalq bazarın tələblərinə uyğun rəqabətədavamlı məhsul istehsal edə bilir və etibarlı ticarət tərəfdaşı imicinə malikdir.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Monitorinq və qiymətləndirmə şöbəsinin müdir müavini Səbinə Cumazadə deyir ki, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın əsas məqsədi milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, texniki tənzimləmə və dövlət nəzarəti sistemlərinin gücləndirilməsidir: "Dövlət başçısının tapşırığı ilə bu proqramın icrasının monitorinqi və qiymətləndirilməsi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə həvalə olunub. Mərkəz dövlət proqramında 2024-cü il üçün əsas icraçı qurumlar tərəfindən yerinə yetirilməsi nəzərdə tutulan tədbirlərin icra vəziyyətinin və hədəf göstəricilərinə uyğunluğunun müəyyənləşdirilməsi məqsədilə monitorinq aparılıb və ilkin monitorinq hesabatını hazırlayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə təqdim edib".

Səbinə Cumazadə bildirir ki, Azərbaycanın milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində həyata keçirilən islahatlar ölkənin iqtisadi inkişafı və beynəlxalq bazara inteqrasiyasının əsas komponentlərindən biri olaraq mühüm əhəmiyyət kəsb edir. Bu islahatlar qlobal ticarət əlaqələrinin genişlənməsi, yerli məhsulların beynəlxalq bazarlara çıxış imkanlarının artırılması və istehlakçıların daha təhlükəsiz və keyfiyyətli məhsullarla təmin olunmasına yönəlib.

Mütəxəssis vurğulayır ki, dövlət proqramının icrası çərçivəsində milli texniki reqlamentlərin hazırlanması, texniki tənzimləmə üzrə normativ-hüquqi bazanın gücləndirilməsi, müasir laboratoriya infrastrukturunun qurulması və texniki tənzimləmə sahəsində yeni standartların tətbiqi kimi mühüm tədbirlər həyata keçirilir: "Bu addımlar Azərbaycanın beynəlxalq tələblərə uyğun iqtisadiyyatını gücləndirmək və yerli istehsalçıların rəqabət qabiliyyətini artırmaq məqsədi daşıyır. Dövlət proqramı çərçivəsində Avropa İttifaqının və Avrasiya İqtisadi Birliyinin tələblərinə uyğun texniki tənzimləmə sahəsində beynəlxalq standartların tətbiqi və uyğunluğun qiymətləndirilməsi üzrə genişmiqyaslı işlər görülür", - deyə S.Cumazadə bildirib. Onun sözlərinə görə, bu islahatların əsas məqsədi daha rəqabətqabiliyyətli məhsullar istehsal etmək və həmin məhsulların beynəlxalq bazarlarda etibarlığını artırmaqdır. Uyğunluğun qiymətləndirilməsi prosesi vasitəsilə daxili və xarici bazarlarda məhsulların keyfiyyətinin artırılması təmin edilir. Rəqəmsal texnologiyalar və uyğunluğun avtomatlaşdırılmış qiymətləndirilməsi sistemlərinin tətbiqi ilə proseslərin şəffaf və operativ şəkildə həyata keçirilməsi mümkündür.



Səbinə Cumazadə həmçinin qeyd edib ki, gələcəkdə milli standartlaşdırma çərçivəsinin genişləndirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi və innovativ həllərin tətbiqi prioritetlər arasında yer alacaq: "Bununla yanaşı, istehlakçıların hüquqlarının qorunması və sağlam rəqabət mühitinin yaradılması üçün məhsulun keyfiyyətinin artırılması da diqqət mərkəzində olacaq. Ümumilikdə bu islahatlar Azərbaycanın beynəlxalq tələblərə uyğun inkişafını təmin etməklə yanaşı, yerli istehsalçıların beynəlxalq bazarda mövqeyini möhkəmləndirəcək, həmçinin istehlakçılara etibarlı və yüksəkkeyfiyyətli məhsullara çıxış imkanı yaradacaq".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan beynəlxalq tədbirlərin əsas mərkəzlərindən biridir

### Bütün bunlar həm də respublikamıza qlobal səviyyədə olan yüksək ehtiramdan və etimaddan xəbər verir




**Respublikamız və xüsusən Bakı şəhəri uzun müddətdir ki, dünyada beynəlxalq tədbirlər mərkəzi kimi tanınır. Azərbaycanın inkişafı və burada möhkəm siyasi-ictimai sabitliyin hökm sürməsi ölkəmizi qlobal ictimaiyyət üçün cəlbedici edir. Elə buna görə Bakıda indiyədək çoxsaylı mötəbər beynəlxalq tədbirlər təşkil olunub.**

### Hər bir tədbir yüksək təşkilatçılığı ilə yadda qalıb

"Avroviziya" mahnı müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və hazırda da Bakıda keçirilməsi davam edən "Formula-1" kimi kütləvi beynəlxalq tədbirlər yüksək təşkilatçılığı ilə yadda qalıb. Bundan başqa indiyədək ölkəmizdə beynəlxalq təşkilatların çoxlu sayda siyasi, iqtisadi və humanitar mövzulu tədbirləri keçirilib. Fəaliyyətdə olan, habelə sabiq dövlət və hökumət başçılarının, tanınmış siyasi xadimlərin, dünyanın müxtəlif yerlərindən gələn siyasi ekspertlərin, jurnalistlərin iştirakı ilə keçirilən Qlobal Bakı Forumu artıq ənənə halını alıb. Son olaraq bu ilin martında Bakıda "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu keçirilib. Prezident İlham Əliyevin himayəsi altında keçirilən bu foruma beynəlxalq səviyyədə böyük maraq var.

Bakı həm də digər beynəlxalq tədbirin - Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirildiyi ünvandır. Bu ilin mayında Bakı VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi edib. Bu forum Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsidir. "Bakı Prosesi" bütün dünyada mədəniyyətlərarası dialoqa dair vacib platforma kimi qəbul olunur.

Son dövrlərdə Bakıda keçirilən başqa bir beynəlxalq tədbir BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) oldu. 2024-cü ilin noyabrında keçirilən COP29-da 197 ölkədən 80 minə yaxın iştirakçı, o cümlədən 80 prezident, vitse-prezident və baş nazir iştirak etdi. Ölkəmizə gələn xarici qonaqlar yerli və xarici media resurslarına açıqlamalarında COP29-un yüksək səviyyədə təşkil olunduğunu bildirdilər.

Qarşıdakı dövrdə də Azərbaycan bir neçə beynəlxalq tədbirə evsahibliyi edəcək. Bunlardan biri 2025-ci ilin payızında keçiriləcək III MDB Oyunlarıdır. III MDB Oyunları 23 idman növü üzrə təşkil ediləcək, "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" olan Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində sentyabrın 28-dən oktyabrın 8-dək müddətdə keçiriləcək. Gəncədə 8, Mingəçevirdə 4, Qəbələdə 4, Şəkidə 3, Göygöldə 2, Yevlaxda 1 və Xankəndidə 1 idman növü üzrə yarışlar təşkil ediləcək. Əlbəttə ki, respublikamızın Azərbaycanın MDB Oyunları kimi əhəmiyyətli bir idman tədbirinə evsahibliyi etməsi onun idman ölkəsi kimi artan nüfuzuna, gələcəkdə belə mühüm layihələrin respublikamızda daha yüksək səviyyədə təşkil edilməsinə müsbət təsir göstərəcək.

### Bakı Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasına evsahibliyi edəcək

Qarşıdakı dövrdə respublikamızda keçiriləcək digər növbəti beynəlxalq tədbir BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyası olacaq. Qeyd edək ki, Prezident İlham Əliyev Ümumdünya Şəhər Forumunun "Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək" mövzusunda 2022-ci ilin iyun ayında Polşanın Katovitse şəhərində keçirilən 11-ci sessiyasında videoformatda çıxışı zamanı Azərbaycanın Ümumdünya Şəhər Forumunun növbəti sessiyalarının birinə evsahibliyi etmək arzusunda olduğunu bildirmişdi. "Əminəm ki, yüksəksəviyyəli beynəlxalq tədbirlərə evsahibliyi etməkdə böyük təcrübəyə malik ölkə olan Azərbaycanda Ümumdünya Şəhər Forumunun keçirilməsi uğurlu olacaqdır", - deyə dövlətimizin başçısı qeyd etmişdi. Şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti layiqincə qiymətləndirilərək, irimiqyaslı qlobal tədbirlərdən hesab edilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərara alınıb.

Respublikamızda şəhərsalma fəaliyyəti sosial-iqtisadi inkişafın əsas hədəflərindən biridir. Son illərdə ölkəmizdə bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atılır, şəhərsalma və urbanizasiya sahəsində müasir standartlar tətbiq edilməklə Bakıda və respublikanın digər şəhərlərində müxtəlif layihələr həyata keçirilir. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra isə respublikamızda şəhərsalma fəaliyyəti yeni mərhələyə qədəm qoyub. İşğaldan azad edilmiş şəhərlərimiz ən müasir tələblər, o cümlədən "ağıllı" şəhər konsepsiyaları əsasında bərpa olunur. Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tamamilə dağıdılmış yüzlərlə şəhər, kənd və qəsəbənin planlı şəkildə yenidən qurulması həyata keçirilir.

Qeyd edək ki, 2022-ci və 2023-cü illərdə respublikamızda milli şəhərsalma forumları keçirilib. Azərbaycanın müasir şəhərsalma təcrübəsi məhz bu forumlar vasitəsilə bütün dünyaya bəyan olunub. Ağdam və Zəngilanda keçirilən bu forumlar şəhərsalma ilə bağlı ən dolğun müzakirələrin aparıldığı bir platformaya çevrilib. Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyası isə respublikamızın inkişaf strategiyalarının və dayanıqlı şəhərsalma sahəsindəki nailiyyətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması işinə əhəmiyyətli töhfə verəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Yeni geosiyasi güc oxu: əsas xüsusiyyətləri

**Ekspertlər Laçın Zirvəsindən danışarkən, sanki, coğrafi miqyas faktorunu arxa plana atır və Azərbaycanın bu sərhəd şəhərində üç qardaş dövlətin keçirdiyi Zirvə görüşünü regional miqyasdan çıxarıb qlobal səviyyədə dəyərləndirirlər.**

Bizim üçün qürur mənbəyi olan bu gedişat, eyni zamanda politoloji kontekstdə də bir sıra mühüm məqamların üzərində geosiyasətin qanunları çərçivəsində düşünməyə sövq edir. Burada həm Azərbaycan-Türkiyə-Pakistan üçlüyünün hansı anlam, dərinlik və əhatədə geosiyasi güc ola biləcəyi obyektiv şəkildə dərk olunmalı, həm də ona qarşı atıla biləcək mümkün addımlar öncədən proqnozlaşdırılmalıdır. Çünki bu geosiyasi güc oxu o dərəcədə yenidir ki, bir çox böyük qüvvələr tərəfindən ən müxtəlif istiqamətlərdən hədəfə alınıb. Artıq bunun siyasi və ideoloji təzahürünü müşahidə etməkdəyik.

### XXI əsrdə geosiyasi situasiya

Öncə, XXI əsrdə, ümumiyyətlə, geosiyasi situasiyanın politoloji anlamını nəzərdən keçirək. Çünki "geosiyasi güc oxu" ifadəsinin adekvat anlamına indiki şərtlər və geostrateji və coğrafi-iqtisadi reallıqlar daxilində geosiyasi situasiyanın başlıca xarakteristikaları kontekstində vara bilərik. Geosiyasi situasiya coğrafi vahidlər üzərində nəzarət uğrunda mübarizəni ifadə edir. Üstəlik, beynəlxalq və regional məna kəsb etməlidir. Bundan başqa, geosiyasi situasiyadan həmin coğrafi vahidlərdən siyasi fayda götürmək üçün istifadə olunur. Bu tərif özündə bir neçə vacib aspekti ehtiva edir.

Birincisi, geosiyasi situasiya müəyyən coğrafi ərazi ilə bağlı olan elə siyasi, sosial, hüquqi, iqtisadi, kommunikativ faktorların kompleksidir ki, onlar qlobal və beynəlxalq əhəmiyyət daşıyır. Bunun fonunda tamamilə aydındır ki, heç də hər bir coğrafi vahid geosiyasi situasiya yaratmır - xüsusi əhəmiyyəti olan və zaman kontekstində müəyyən kompleks təsirləri özündə daşıyan dinamik mənzərə olmalıdır.

İkincisi, geosiyasi situasiya o zaman yaranır ki, ona nəzarət uğrunda mübarizə baş verir. Məsələnin bu tərəfi XXI əsrdə daha çox aktuallıq kəsb edir. Çünki geosiyasi situasiyalar elə sürətlə dəyişir ki, onlara kimin necə nəzarət edə biləcəyi məsələsi aydın olmur. Bəlkə də məhdud perspektivlər dairələr mənzərəni bütövlükdə görə bilirlər.

Beləliklə, müasir mərhələdə geosiyasi situasiya iki aspekti vəhdət halında özündə birləşdirən dinamik fenomendir. Onun səciyyəvi xüsusiyyətləri, coğrafi vahidin siyasi, ideoloji, demoqrafik, geosiyasi, mədəni və sair təsirləri region, regionlararası mühit və dünya üçün hiss edilən olmalıdır. İndi bu parametrlərin Azərbaycan-Türkiyə-Pakistan üçlüyünün əməkdaşlığına hansı anlamlarda aid edilə biləcəyinə baxaq.

### "Üç xalq, bir dövlət"

Maraqlı və qürurvericidir: Azərbaycan və Türkiyə eyni həvəs və səmimiyyətlə Pakistana "qardaş xalq, ölkə və dövlət" deyirlər. Eynilə Pakistan dərin səmimiyyət və mehribanlıqla Azərbaycan və Türkiyəyə "qardaş" deyir. Deməli, burada üç dövlətin münasibətləri milli sərhədləri aşaraq müasir dövlətçilik kontekstində konkret meyarlara əsaslanan "Üç xalq, bir dövlət" formulu ilə xarakterizə olunur. Bu anlamın mərkəzində isə XXI əsr kontekstində geosiyasi situasiyalılıq dayanır. Həmin situasiyanın başlıca əlaməti geniş coğrafi ərazidə üç dövlətin hansı hüdudda və hansı aspektlər üzrə əməkdaşlıq edə, vahid komanda kimi fəaliyyət göstərə biləcəyinin aydın olması ilə bağlıdır. Nəhayət, "Laçın üçlüyü"nün geosiyasi anlamı vahid komanda halında fəaliyyətin üzv dövlətlərə verəcəyi faydanın qarşılıqlı olması şərti ilə əlaqəlidir.

Bu özəlliklərin kompleks halda yekun effekti müasir geosiyasi situasiyada yeni geosiyasi güc oxunu xarakterizə edir. Laçın Zirvəsinin geosiyasi kontekstdə tarixiliyinin əsaslarını həmin xüsusiyyətlər təşkil edir.

### Üçlüyün geosiyasi kontrol metodunun mahiyyəti

Bu mahiyyət üç dövlət başçısının qısa, lakin dərin siyasi və geosiyasi mənalı tezislərində öz əksini tapıb. Onlara nəzər salaq.

Prezident İlham Əliyev: "Bu gün Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlığının yeni səhifəsi açılır".

Prezident Rəcəb Tayyib Ərdoğan: "Ankara, Bakı və İslamabad arasında həmrəylik və əməkdaşlıq seçim məsələsi deyil, zəruri ehtiyacdır".

Baş nazir Məhəmməd Şahbaz Şərif: "Bayraqlarımız hər zaman bir yerdə yüksəklərdə dalğalanacaq".

Bu üç fundamental tezisin ortaq məna sahəsi belədir: Azərbaycan, Türkiyə və Pakistan geosiyasi anlamda konstruktiv və qarşılıqlı faydalı əməkdaşlığı zərurət kimi qəbul edirlər. Onun iki mühüm "qolu" var - həmrəylik və əməkdaşlıq.

Deməli, həmrəylik və əməkdaşlıq əsasında geniş coğrafiyada üç dövlət müstəqil olaraq qalacaqlar və bunu ümumi güc kimi qəbul edərək sülhə, sabitliyə, təhlükəsizliyin təmininə sərf edəcəklər. Pakistanın Baş nazirinin "Bayraqlarımız hər zaman bir yerdə yüksəklərdə dalğalanacaq" tezisi bunun təsbitlərindən biridir. Bayraqlar varsa, müstəqillik var, onlar bir yerdə dalğalanacaqsa, sonsuza qədər bu dövlətlər qarşılıqlı hörmət, hüquq və ədalət əsasında əməkdaşlığa davam edəcək və bu anlamda geosiyasi ox statusunda güclərini dinamik artıracaqlar.

Belə çıxır ki, "Laçın üçlüyü" geosiyasi situasiyaya nəzarət etməyəcək, əksinə, güclərini birləşdirərək və onu daim artıraraq əməkdaşlığı, təhlükəsizliyi və hüququ təmin edəcəklər. Bunu, obrazlı olaraq, "geosiyasi situasiya üzərində humanitar nəzarət" adlandıra bilərik. Bu məntiqin konkret cizgiləri də məlumdur.

### "Laçın üçlüyü" geosiyasi ox kimi: özəllikləri

Müasir politologiyada "geosiyasi ox" anlayışına aşağıdakı kimi tərif verilir: "geosiyasi ox - iki və ya daha çox dövlətin geostrateji məqsədlərə çatmasına istiqamətlənmiş ittifaqıdır". Bu məntiqdən aydın olur ki, Azərbaycan, Türkiyə və Pakistanın ortaq geostrateji məqsədləri vardır. Bu məqsədlər nədən ibarətdir? Geniş bir coğrafi və geosiyasi məkanda əməkdaşlıq, təhlükəsizlik, ədalət və hüququ təmin etməkdən! Yəni burada söhbət, faktiki olaraq, yeni ruhlu geosiyasi oxdan gedir.

Bu proses üç qardaş dövlətin birliyinin "yeni reallıq yaratması" kimi xarakterizə olunur. Onun mühüm parametri isə belədir: "Ruhun diplomatiyası - mədəniyyətin və yumşaq gücün dirçəlişi".

Bu iki ümumi tezisin çətiri altında Prezident İlham Əliyev əməkdaşlığın konkret aspektlərini açıb. Onlar aşağıdakılardır: 1) Hərbi əməkdaşlığın geniş coğrafiyada sülhü və sabitliyi gücləndirməsi; 2) "Üçlüy"ün yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsini dəyişməkdə davam etməsi; 3) Azərbaycan, Türkiyə və Pakistanın hər zaman suverenlik, ərazi bütövlüyü və ədalətin tərəfində olmaqda davam etməsi.

Bu üç strateji fəaliyyət və əməkdaşlıq istiqamətləri çərçivəsində "Üçlük" onu da nəzərə alacaq ki, "Laçın Beynəlxalq Hava Limanı regionun inkişafına və dünyaya inteqrasiyasına mühüm töhfə verəcək" (Rəcəb Tayyib Ərdoğan), "Azərbaycan bu gün beynəlxalq müstəvidə güclü mövqeyə malikdir" (Məhəmməd Şahbaz Şərif).

### Yekun mənzərə: təzyiq və şantaj rıçaqları işə düşür

Azərbaycan-Türkiyə-Pakistan əməkdaşlığının geosiyasi ox kimi həqiqi mənada böyük güc olduğu aydınlaşmaqdadır. Çünki Laçın Zirvəsindən cəmi bir neçə gün keçib, lakin kütləvi informasiya vasitələrində "ajiotaj" "tüğyan edir". O cümlədən Azərbaycan və Türkiyənin arasını vurmağa istiqamətlənmiş absurd arqumentli cızma-qaralar meydana gəlir. Məlum qüvvələr hər iki ölkəyə "atdıqları informasiya desant/diversantları" vasitəsilə "Laçın üçlüyü"nə kölgə salmağa çalışırlar. Bu zaman əsas hədəf kimi Türkiyəni seçiblər. Çünki Türkiyə çox güclüdür və geniş geosiyasi məkanda özünə güvənən çox sayda dövləti diz çökdürür.

Təəssüf ki, Azərbaycan mətbuatında da bu düşmən toruna düşən "oxşar saqqallı" "analitiklər" də vardır və onlar özlərini "milli maraqları gözləyən vətənpərvərlər" kimi təqdim edirlər. Lakin Azərbaycan, Türkiyə və Pakistan bu kimi informasiya təxribatlarına qarşı durmaq üçün çoxdan hazırdırlar. Qısa müddətdə bu təxribatçı informasiya düşərgəsi darmadağın olacaqdır.

Lakin bu, yekun mənzərənin yalnız bir fraqmentidir. Azərbaycan, Türkiyə və Pakistan əməkdaşlığı həm genişlənir, həm də dərinləşir. "Laçın üçlüyü" birgə fəaliyyətləri ilə geosiyasi maraqlarını uğurla təmin edir. İndi kimsə şübhə etmir ki, şərin, dağıdıcılığın və qarşıdurmanın qarşısında "Laçın üçlüyü" dayanır! O, həm də yeni geosiyasi güc oxudur!

Bütün bunlar ekspert və analitiklərin Azərbaycan-Türkiyə-Pakistan birliyini yeni geosiyasi güc oxu kimi xarakterizə etmələrinin tam əsaslı olduğunu göstərir. Geniş bir geosiyasi məkanda proseslər yeni səviyyəyə yüksəlir!

*Kamal ADIGÖZƏLOV,*
*beynəlxalq münasibətlər üzrə ekspert*

## SOCAR-ın etibarlı tərəfdaş imici Bakı Enerji Həftəsində bir daha təsdiqləndi

### "Uralskaya stal" da neft şirkətimizlə əlaqələrini genişləndirmək istəyir

**SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) etibarlı tərəfdaş imicini ildən-ilə möhkəmləndirir. Bu, özünü həm dünyaşöhrətli neft, qaz, bərpaolunan enerji şirkətləri ilə birgə həyata keçirilən layihələrdə, həm karbohidrogenlərin idxal-ixrac məsələlərində, həm də sahədə istifadə olunan bir çox məhsulların sifarişində, alqı-satqısında göstərir.**







Cari ayın əvvəlində keçirilən Bakı Enerji Həftəsində bunun bir daha şahidi olduq. Azərbaycanın Dövlət Neft Şirkəti ilə əməkdaşlıq qurmaq, eləcə də mövcud əlaqələri daha da genişləndirmək istəyən bir sıra şirkət nümayəndələrinin arzularını eşitdik. Onlardan biri də "Uralskaya stal" ("Ural poladı") şirkətlər qrupunun idarə rəisi İlya Ustinov idi.

İ.Ustinov bildirdi ki, çalışdığı qrupun müəssisələri tikintidə, maşınqayırmada, körpülərin salınmasında istifadə olunan polad təbəqələr istehsal edir. Eləcə də su, neft, qaz sahələri, digər infrastruktur obyektləri üçün böyük diametrli borular buraxırlar. İstehsal edilən məhsullardan biri də hamar səthli borulardır ki, bu da əsasən neft sənayesində işlədilir.

"Uralskaya stal"ın nümayəndəsi onu da dedi ki, qrupun müəssisələrinin bu və digər məhsullarından təkcə Rusiyada deyil, Azərbaycanda, Özbəkistanda, digər MDB ölkələrində də istifadə olunur. Elə Bakı Enerji Həftəsində iştirakın başlıca məqsədlərindən biri də SOCAR-la əlaqələri genişləndirmək, ölkəmizə daha çox məhsul göndərməkdir.

"Uralskaya stal"ın "Bakı-Ekspo" Mərkəzində keçirilən 30-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisindəki pavilyonunda qrupun aparıcı müəssisələrindən olan Zaqorsk boru zavodu haqqında da geniş məlumat təqdim edilirdi. Bu, Rusiyanın böyük diametrli elektrik qaynağı borularının istehsalı üzrə ixtisaslaşan ən iri müəssisədir. Bu, həm də yeganə boru şirkətidir ki, SSRİ dönəmindən qalan baza əsasında deyil, məhz müasir Rusiyanın bazar mexanizmləri sayəsində çalışır. Başqa sözlə, Zaqorsk zavodu səmərəli idarətməni və daxili resursların istifadəsini birləşdirən, yeni trendlər nümayiş etdirən bir müəssisədir.

Üç il əvvəl bu zavod metallurgiya kombinatı ilə birləşərək inteqrasiya edilmiş metallurgiya holdinqinin tərkibinə daxil oldu. Bu partnyorluq onlara nəhəng neft, qaz, tikinti və digər infrastruktur layihələrini borularla təmin etməyə imkan verir.

Müsahibimiz "Missiyamız müştərilərimizə keyfiyyətli və münasib qiymətlərlə məhsul, nümunəvi servis təqdim etməkdir", - dedi. O, Xəzər Neft və Qaz Sərgisini çox yüksək dəyərləndirdiyini, bununla təkcə sözügedən sektor üçün deyil, bir çox digər sahələr üçün də faydalı olduğunu, burada çox vacib görüşlər keçirildiyini söylədi. Söhbətin sonunda isə onu da əlavə etdi ki, əvvəllər başqa bir şirkətdə çalışıb və işi ilə əlaqədar Gəncədə olub. Gəncədən Bakıya gələrkən yolboyu keçdiyi bölgələrin gözəlliyinə, əsrarəngiz təbiət mənzərələrinə heyran qalıb. Yenidən Bakıda olmağından, həm də belə bir mötəbər tədbirdə iştirakından çox məmnundur.

*Flora SADIQLI,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin açıqlaması



**Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi açıqlama yayıb. AZƏRTAC açıqlamanı təqdim edir:**

"Azərbaycan Respublikasının ərazi bütövlüyünün və tam suverenliyinin təmin edilməsindən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq və yenidənqurma işləri, doğma yurdlarına dönən vətəndaşlarımızın məskunlaşmaları, onların sosial qayğılarının qarşılanması istiqamətində ardıcıl tədbirlər uğurla davam etdirilir.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi müvafiq ərazinin müəyyən edilmiş hədəflərə uyğun olaraq inkişafını təmin etmək, orada fəaliyyət göstərən dövlət orqanlarının yerli bölmələrinin fəaliyyətini əlaqələndirmək, mülkiyyətin mühafizəsini, dövlət əmlakından səmərəli istifadəni, habelə sahibkarlıq, şəhərsalma, tikinti və digər sahələrdə fəaliyyətin həyata keçirilməsinin təşkili istiqamətində üzərinə düşən vəzifələri icra edir.

Azərbaycan mediası bu ərazilərdə görülən işləri, dövlət orqanlarının fəaliyyətini hərtərəfli və geniş işıqlandırır, bununla da ölkə ictimaiyyətinin obyektiv məlumatlandırılması ilə bağlı üzərinə düşən vəzifəni peşəkar şəkildə icra edir. Təəssüf ki, "Reaksiya TV" yutub kanalı kimi informasiya vasitələri yanlış məlumat əsasında, heç bir araşdırma aparmadan qərəzli materiallar yayaraq ictimaiyyətdə dövlətimiz tərəfindən həyata keçirilən bərpa-quruculuq, eləcə də sosial-iqtisadi inkişaf layihələri barədə yanlış təsəvvür formalaşdırmağa çalışırlar. Xankəndi şəhərində yerləşən "Xan Araz" restoranını icarə hüququ ilə istifadəyə götürmüş vətəndaş Salmanov Səfər Vəliyəddin oğlunun yalan iddialar səsləndirməsi və həm aparıcı, həm də Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu tərəfindən qərəzli şəkildə şərh edilməsi də bu qəbildəndir.

Vətəndaşın müraciətində səsləndirilmiş iddialara cavab olaraq bildiririk ki, "Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi antiterror əməliyyatları nəticəsində azad edilmiş ərazilərdə dövlət əmlaklarının istifadəsi ilə bağlı yaradılmış Təşkilat Komissiyası"na daxil olan çoxsaylı müraciətlərin araşdırılması, qaliblərin meyarlar üzrə seçilməsi və müsabiqənin keçirilməsi prosesi müəyyən zaman tələb edir. Vətəndaş Səfər Salmanov isə həmin prosedurları keçmədən qısa zamanda qalib edilməsi tələbində olub.

Müsabiqənin qalibi olduqdan sonra 2024-cü il aprelin 25-də Əmlak Məsələləri Dövlət Xidməti yanında "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsi ilə Səfər Salmanov arasında icarə müqaviləsi bağlanan zaman Xankəndi şəhərində yerləşən qeyri-yaşayış obyektləri üzrə icarə haqlarının qiymətləri və formalaşma meyarları mövcud olmayıb. İcarə haqlarının qiymətləri 2024-cü ilin aprelində yaradılmış "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının 2024-cü il 20 avqust tarixli qərarı ilə təsdiq edilib. Hazırda Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında qeyri-yaşayış obyektləri üzrə icarə haqları bu qiymətlər əsasında və heç bir ayrı-seçkilik edilmədən tətbiq olunur. "Xan Araz" restoranı ilə bağlı da eyni qaydalar tətbiq edilib və vətəndaşa obyekt üçün icarə haqqının yeni qaydalar üzrə hesablanması təklif olunub. Yeni icarə haqqı məbləği vətəndaşın iddia etdiyi kimi, 68 dəfə deyil, 64 faiz artım nəzərdə tutur. Lakin sahibkar tərəfindən müqavilənin imzalanmasından əsassız şəkildə imtina edilir və obyekt faktiki olaraq qeyri-qanuni fəaliyyət göstərir.

Bundan başqa, vətəndaş tərəfindən şəhərsalma və memarlıq normaları gözlənilmədən, müvafiq qurumlarla rəsmi razılıq əldə olunmadan qeyri qanuni tikinti - manqalxana inşasına cəhd göstərilib, ona qanunvericiliyin tələbləri izah edilməklə müvafiq qurumların iştirakı ilə tikinti işləri dayandırılıb. Həmçinin vətəndaş tərəfindən guya obyektə 200 min manat dəyərində investisiya qoyulması faktı da öz təsdiqini tapmayıb. İlk növbədə o, müvafiq sənədləri təqdim edə bilməyib, digər tərəfdən isə obyekt ona təhvil verilərkən aparılmış foto və video çəkilişlərlə faktiki vəziyyət müqayisə edilib, iddia edilən investisiya məbləğinin dəfələrlə şişirdildiyi məlum olub.

Təəssüf doğuran digər hal isə tez-tez "Reaksiya TV"nin efirində qonaq olan ADP sədri Sərdar Cəlaloğlunun reallıqla heç bir araya sığmayan, hətta savadsız və bəsit mülahizələrlə çıxış etməsidir. Görünür o, vaxtilə torpaqlarımızın itirilməsinə səbəb olan AXC-Müsavat hakimiyyətinin xəyanətkar siyasətini, o dövrdəki özbaşınalığı, anarxiyanı, silahlı dəstələrin hökmranlığını, işğalçılarla yanacaq alverini, rüşvət və korrupsiyanın dövlət siyasəti səviyyəsinə yüksəldiyini, insanların çörəklə sınağa çəkildiyini və bu kimi digər çoxsaylı halları unudub və ya kimsənin xatırlamadığını düşünür. Yəqin ki, S.Cəlaloğlu işğaldan azad olunmuş ərazilərin bərpasının dövlət proqramı əsasında həyata keçirildiyini bilmir və buna görə də orada özbaşınalığı təşviq edir. Onun dövlətin işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün yaratdığı əlverişli şəraitdən və güzəştlərdən xəbəri belə yoxdur.

Qeyd edək ki, Vergi Məcəlləsinə əsasən, işğaldan azad edilmiş ərazinin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergidən azad ediliblər. Fərdi sahibkarlar, ailə-kəndli təsərrüfatları, torpaq pay mülkiyyətçiləri və s. tərəfindən ödənilən sosial sığorta haqlarının 2023-cü il yanvarın 1-dən 10 il müddətində 100 faiz həcmində dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması nəzərdə tutulur. İşğaldan azad edilmiş ərazilərdə həmin tarixdən istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 10 il müddətində hər ay istehlak edilən kommunal xidmətlərin tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 faizi məbləğində dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı göstərilir.

Dövlətin təşviq mexanizmləri və aparılan işlər nəticəsində ərazi üzrə ümumilikdə 474 obyektin icarəyə verilməsi təmin edilib, bunlardan 299-u fəaliyyətə başlayıb. Hazırkı dövrədək ərazidə investorlar tərəfindən 45,5 milyon manata yaxın investisiya qoyuluşu həyata keçirilib. Fəaliyyətə başlamış obyektlər üzrə 1900-ə yaxın şəxs işlə təmin olunub. Digər obyektlər fəaliyyətə başladıqdan sonra iş yerlərinin sayı 5 mindən çox olacaq. Ərazidə dövlət və özəl qurumlarda çalışan, eləcə də öz yurdlarına köç etmiş 13 mindən artıq şəxsin məskunlaşması təmin edilib.

Göründüyü kimi, işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi üçün dövlət tərəfindən yuxarıda qeyd edilən, eləcə də digər effektiv təşviq mexanizmi tətbiq olunur. Bütün bunların müqabilində sahibkarlardan ölkə qanunvericiliyinə ciddi əməl etməklə fəaliyyət göstərmələri tələb edilir. Rəqabət mühitini pozan tələblərin, özləri üçün əlahiddə imtiyaz və digər sahibkarlara ayrı-seçkilik yaradacaq şərtlərin irəli sürülməsi qəbuledilməzdir. Təəssüf ki, yaradılan bütün əlverişli şəraitin müqabilində bəzi sahibkarlar tərəfindən bu cür əsassız tələblər irəli sürülür, tələblərə nail olunmadıqda isə şər və böhtan xarakterli məlumatların tirajlanmasına cəhdlər göstərilir.

Qarşı tərəfin rəyini öyrənmədən, birtərəfli qaydada, qanunvericiliyin və "Jurnalistlərin Etik Davranış Qaydaları"nın tələblərinə zidd olaraq "Reaksiya TV"nin efirində səsləndirilən fikirləri savadsız və qərəzli iddialar, bütünlükdə verilişi isə ictimaiyyətin çaşdırılması məqsədi güdən məzhəkə adlandırmamaq mümkün deyil".

## Qərbi Azərbaycana qayıdış: milli ideyanın əsas hədəflərindən biri

# Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı reallaşmayana qədər bu məsələ gündəlikdən çıxmayacaq

**Birinci Dünya müharibəsi dövründə və ondan sonra da erməni radikalizmi və ekstremizmi Azərbaycan xalqını misli görünməmiş müsibətlərə düçar etmiş, nəticədə yüz minlərlə soydaşımız öz dədə-baba torpaqlarından zorla çıxarılmış, kütləvi qətl və qırğınlara məruz qalmışdır.**



Qərbi Azərbaycanda - Ermənistan ərazisində 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə sistemli və total şəkildə etnik təmizləmə həyata keçirilmiş və beləliklə, Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamışdır. Bu etnik təmizləmə böyük humanitar faciə olmaqla yanaşı, 1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi ilə Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanla quru əlaqəsini kəsmək kimi mənfur geosiyasi məqsədə də xidmət etmişdir.

Bununla kifayətlənməyən haylar həmin ərazilərdən Azərbaycan xalqının izini silmək və regionun tarixini yenidən yazmaq məqsədilə insanlığa yaraşmayan vandalizm hərəkətlərini davam etdirərək minilliklər boyu Qərbi Azərbaycanda yaşamış soydaşlarımızın zəngin mədəni irsini, qədim yaşayış məskənlərini, məscidlərini, ziyarətgahlarını və qəbiristanlıqlarını məhv etmişlər.

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Zəfər, 2023-cü ildə suverenliyimizin tam bərpası, hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıdışı qərbi azərbaycanlılarda da böyük ruh yüksəkliyi yaratmış, onların daha mütəşəkkil qaydada fəaliyyət göstərməsinə imkan vermişdir. Qərbi Azərbaycan məsələsi artıq beynəlxalq gündəliyə daxil edilmişdir. "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - Qayıdış Konsepsiyası" hazırlanıb və Qərbi Azərbaycan İcması tərəfindən ardıcıl, sistemli şəkildə iş aparılır. Nəhayət, bugünkü Ermənistan rəhbərliyi anlamalıdır ki, qərbi azərbaycanlıların Ermənistandakı dədə-baba torpaqlarına qayıdışının təmin edilməsi regionda sülhün, insan hüquqlarının və barışığın bərqərar olması üçün vacib şərtdir.

Erməni xalqı və Ermənistan rəhbərliyi birmənalı olaraq qəbul etməlidir ki, qərbi azərbaycanlılara qarşı böyük haqsızlıq törədilib. Bu haqsızlıq yalnız etnik təmizləmə ilə məhdudlaşmır. Yurdlarından zorla çıxarılmış azərbaycanlılar bu ağrılı keçmişi heç vaxt unutmayacaqlar. Amma onu da qəbul edirlər ki, sülh və inkişafın təmin edilməsinin yolu barışıqdan keçir. Qərbi azərbaycanlılar onların vətəninə başqa ölkələrdən köçürülmüş ermənilərlə dinc və yanaşı yaşamağa hazır olduqlarını dəfələrlə bəyan edib. Qərbi azərbaycanlılar insan hüquqlarına hörməti, hüququn aliliyini və ikili standartların aradan qaldırılmasını barışın əldə edilməsi üçün ən mühüm vasitələr kimi görürlər. Bu baxımdan icma Ermənistanın azərbaycanlılara qarşı nifrət və ayrı-seçkiliyi aşılayan siyasət və praktikasını dayandırmasına, soydaşlarımıza qarşı cinayət törətmiş şəxsləri ədalət məhkəməsinə təslim etməsinə, onları şöhrətləndirməyə dərhal son verməsinə, o cümlədən xalqımıza qarşı cinayətlərdə iştirak etmiş hərbçi və siyasətçilərə, terrorçulara qoyulmuş abidələri sökməsinə və aparılmış yer adları dəyişikliklərini ləğv etməsinə nail olmaq üçün ardıcıl səy göstərir.

Təəssüf ki, Ermənistan cəmiyyətində türk xalqlarına qarşı dərin kök salmış nifrət, "böyük Ermənistan" xülyası həmin ölkənin konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının yer alması, qərbi azərbaycanlıların qayıdışına imkan verilməməsi sülhə mane olur.

Soydaşlarımızın Qərbi Azərbaycana qayıdışı milli qürur və ləyaqətimizin müdafiəsi deməkdir. Prezident İlham Əliyev xalqımızın Qərbi Azərbaycana qayıtmaq niyyətində qətiyyətli olduğunu, bunun üçün dövlətimizin insanlara hər cür dəstək göstərəcəyini konkret bəyan edib. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan bu prosesi sülh yolu ilə həyata keçirəcək. Bu məqsədə çatmaq üçün beynəlxalq hüququn imkanlarından maksimum faydalanılacaq. Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı Ermənistana qarşı ərazi iddiası demək deyil. Ermənistan öz doğma yurdlarından zorla köçürülmüş soydaşlarımızın istəyini bu formada təqdim etmək cəhdlərindən əl çəkməlidir. İrəvan başa düşməlidir ki, qayıdış reallaşmayana qədər bu məsələ Azərbaycanın gündəliyindən çıxmayacaq. Şübhəsiz ki, öz yurdlarına dönəcək qərbi azərbaycanlılara təhlükəsizlik zəmanəti də verilməlidir.

Dövlətimizin başçısının vurğuladığı kimi: "Ermənistan qonşu dövlətlərə qarşı ərazi iddialarına son qoymalı, azərbaycanlılara məxsus mədəni irsin bərpası və qorunması üçün addımlar atmalı, bu məqsədlə UNESCO-nun monitorinq missiyasına icazə verməli, qayıdış mövzusunda icma ilə dialoqa başlamalıdır. Ermənistan qərbi azərbaycanlıların nə vaxt və hansı şərtlərlə öz dədə-baba yurdlarına dönə bilmələri ilə bağlı aydın mövqe ifadə etməlidir".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Qərbi Azərbaycan mövzusunda QHT layihələrinin keyfiyyət və kəmiyyət göstəriciləri yüksəlib

**İyunun 11-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi "Qərbi Azərbaycana qayıdış" mövzusunda icra edilən QHT layihələri ilə bağlı ictimai hesabat xarakterli brifinq keçirib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə çıxış edən agentliyin icraçı direktoru Aygün Əliyeva "Qərbi Azərbaycana qayıdış" mövzusunun artıq 3 ildir agentliyin qrant müsabiqələrinin prioritet istiqamətlərindən biri olduğunu bildirib. Deyib ki, bu müddət ərzində 50 QHT-nin "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - Qayıdış Konsepsiyası"nın müvafiq müddəaları ilə əlaqədar 54 təşəbbüsü dəstəklənib. Hesabat dövründə Azərbaycan QHT-ləri beynəlxalq kürsülərdə - BMT-nin, ATƏT-in müxtəlif toplantılarında, xarici ölkələrdə bu mövzuda məsələlər qaldırıb, ictimai diskussiyalar açıb, yan tədbirlər təşkil etməyə nail olublar. Ümumilikdə bu tədbirlər ABŞ, Belçika, İspaniya, Rumıniya, Polşa, Türkiyə, Özbəkistan, Qazaxıstan kimi ölkələri əhatə edib: "Qərbi Azərbaycana qayıdış" istiqaməti üzrə QHT-lərin indiki miqyasda fəallığı heç vaxt olmayıb. Azərbaycanın vətəndaş cəmiyyəti təsisatları haqlı olaraq, bu mövzuya Qarabağ və Şərqi Zəngəzurun azadlığından sonra milli ideyanın yeni hədəfi kimi yanaşır, bu ümumxalq arzusunu reallığa çevirmək üçün imkanlarını səfərbər edir".

Məlumat verilib ki, agentliyin 2025-ci il qrant müsabiqəsində "Qərbi Azərbaycana qayıdış: maddi-mədəni irs və hüquqlar" istiqaməti üzrə daha 51 QHT-nin layihəsi dəstəklənib. İl ərzində bu mövzuda beynəlxalq təşkilatlar, Avropa və türk dünyası regionlarında onlarla konfrans, sərgi və müxtəlif tədbirlər keçiriləcək.

Agentliyin departament direktoru Elnur Bağırlı qeyd edib ki, builki yeni layihələrdə Qərbi Azərbaycan hekayələrinin daha təsirli vasitələrlə - musiqi, bədii əsərlər, ekran həlləri, sənətkarlıq nümunələri əsasında izahına üstünlük verilməsi müşahidə edilir. "Monitorinq nəticələrimiz də göstərir ki, bu üsullarda təbliğat daha çox diqqət cəlb edir. Yaxın günlərdə "Bizi Birləşdirən Mədəniyyət" İctimai Birliyinin icra etdiyi layihə çərçivəsində "Zəngəzur mahnısı" ictimaiyyətə təqdim olunacaq, radiolarda səslənəcək. Bu musiqi əsərini Azərbaycanın tanınmış sənətkarları ifa ediblər. Aşıqların konsert proqramları da Qərbi Azərbaycan nisgilini çatdıracaq. "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin "Ustad Ələsgərin Göyçə harayı - Vətənə sarı", "Ozan Dünyası" Aşıq Yaradıcılığının Təbliği İctimai Birliyinin "Aşıqlar Qərbi Azərbaycanı tərənnüm edir", Azərbaycan Aşıqlar Birliyinin "Qərbi Azərbaycan aşıqlarının dastan repertuarı" layihələri bu qəbildəndir. Bundan başqa, "Tətbiqi Sənət Nümunələrinin Qorunmasına və Təbliğinə Yardım" İctimai Birliyi Özbəkistanda Qərbi Azərbaycan mövzusunda sərgi təşkil edəcək", - deyə o vurğulayıb.

Qeyd olunub ki, QHT-lərin layihələri çərçivəsində "Qərbi azərbaycanlıların Qars köçü" mövzusunda sənədli film də hazırlanır. Azərbaycan Ədəbiyyatı Fondu isə "Qərbi Azərbaycan əsərlərdə" layihəsi çərçivəsində yeni bədii əsərin təqdimatını edəcək.

Bildirilib ki, "Elmi Araşdırmalar" İctimai Birliyinin "İrəvan: hər daşı tarix", "Dünya Gənc Türk Yazarlar" İctimai Birliyinin "Türk dünyasında Qərbi Azərbaycan mövzusu" və digər layihələr Qərbi Azərbaycanın maddi-mədəni irsinə qarşı vandalizmin hüquq müstəvisində və digər aspektlərdən qiymətləndirilməsinə töhfə verəcək.

Brifinq çərçivəsində "Qərbi Azərbaycana qayıdış" mövzusunda agentliyin dəstəyi ilə ərsəyə gətirilmiş layihələrin nəticələrinə dair sərgi də təşkil olunub. Qeyd edilib ki, bu mühüm xətt üzrə son illər QHT-lər 200-dən çox məqalə ilə çıxış edib, 15 kitab nəşr edib. "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin "İrəvan: tariximiz, torpağımız, taleyimiz", "Kainat" Milli-Mənəvi Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin "İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər" kitabları bu qəbildəndir.

Sərgidə təqdim olunan materiallarda Qərbi Azərbaycan mövzusu tarixi ədalət, qayıdış hüququ, fundamental insan hüquqları, etnik təmizləmənin ifşası, monoetnik dövlətdə siyasi və hüquqi mübarizə obyekti, regionda sabitliyə töhfə verən konsepsiya kimi təqdim edilib.

Sonda Qərbi Azərbaycan mətbəxinə dair qənnadı nümunələri iştirakçılara təqdim olunub.

# Budapeştdə keçirilən beynəlxalq tədbirdə Qərbi Azərbaycan məsələsinin tarixi barədə məlumat verilib

**Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Qaya Məmmədov iyunun 10-da Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilmiş "Qafqazın açarı: Geosiyasət və Azərbaycanın humanitar gündəliyi" mövzusunda konfransda iştirak edib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Q.Məmmədov Qərbi Azərbaycan məsələsinin tarixi, miqyası, Qərbi Azərbaycan İcmasının sülh yolu ilə qayıdış məqsədilə beynəlxalq hüquq çərçivəsində fəaliyyəti barədə ətraflı məlumat verib. Konfransda həmçinin bildirilib ki, məcburi köçkünlərin təhlükəsiz şəkildə qayıdışına əngəl törədən mina problemi və Qərbi Azərbaycan məsələsinin birlikdə təqdim edilməsi Ermənistan tərəfindən işğal, dağıntı və etnik təmizləmə ilə müşayiət olunmuş keçmiş münaqişənin Azərbaycan xalqı üçün ağır humanitar nəticələrinin işıqlandırılması baxımından faydalı olub.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Medinskinin açıqlaması regionda siyasi atmosferə mənfi təsir göstərir

### Moskva qərəzli bəyanatların doğuracağı nəticələri nəzərə almalıdır

**İkinci Qarabağ müharibəsinin başa çatmasından beş il keçir. Azərbaycan Ordusu BMT Nizamnaməsinin və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyünü bərpa edib, separatçılıq meyilləri aradan qaldırılıb və Ermənistanın uzun illər apardığı işğalçılıq siyasətinə son qoyulub. Amma təəssüf ki, bu müddət ərzində fasilələrlə, konkret maraqlardan qaynaqlanan situasiyalara uyğun olaraq, Rusiyanın bəzi siyasətçilərinin, deputat və məmurlarının Azərbaycanın ərazi bütövlüyü ilə bağlı ritorikalarında beynəlxalq hüquqa, tarixi reallıqlara uyğun olmayan bəyanatların şahidi oluruq.**



Milli Məclisin deputatı Elçin Mirzəbəyli "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Rusiya Prezidentinin köməkçisi Vladimir Medinskinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin ayrılmaz bir parçası olan Qarabağı yenidən "mübahisəli zona" adlandırması ciddi suallar doğurur: "Bu bəyanat hansı geosiyasi məqsədlərə xidmət edir? Məqsəd nədən ibarətdir? Medinski həqiqətənmi reallıqlardan, tarixi həqiqətlərdən və beynəlxalq hüququn norma və prinsiplərindən məlumatsızdır, yoxsa Rusiya Prezidentinin köməkçisinin beyninin gözlə görünən və inkarı mümkün olmayan hadisələri dərk edən hissəsi mübahisəli zonaya düşüb?"

Deputat qeyd edib ki, Azərbaycan öz suverenliyini tam bərpa edib və bu proses BMT nizamnaməsi və beynəlxalq hüququn prinsiplərinə əsaslanıb. Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir. Rusiyanın bəzi rəsmilərinin bu reallığı hələ də dilə gətirməməsi, ya da mübahisələndirməsi, ya situativ diplomatik taktika, ya da daxili auditoriyaya hesablanmış ritorika kimi də başa düşülə bilər. Lakin bu, artıq real vəziyyəti dəyişmir. Bu tip açıqlamalar regionda siyasi atmosferə mənfi təsir göstərir. Azərbaycan ictimaiyyəti bu ritorikanı əsaslı şəkildə rədd edir və bunu doğuran səbəblərə uyğun da Rusiyaya olan münasibətini dəqiqləşdirir. Moskva bu cür qərəzli bəyanatların doğuracağı nəticələri nəzərə almalı və münasibətlərə mənfi təsir edəcəyini hesablamalıdır. Əgər Medinski Azərbaycanın suveren ərazilərini "mübahisəli zona" adlandırmaqla Ermənistandakı revanşçı meyilləri stimullaşdırmaq, kilsə-Paşinyan qarşıdurmasında Eçmiədzinin mövqelərini möhkəmləndirmək istəyirsə, bunun üçün Azərbaycanın suveren əraziləri ilə bağlı dövlət əxlaqına, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun gəlməyən ritorikanı vasitə hesab edirsə, bu, çox uğursuz taktikadır.

E.Mirzəbəyli vurğulayıb ki, Vladimir Medinskinin fikirlərinə Rusiya xarici işlər nazirliyinin sözçüsünün şərhi də təəccüb və təəssüf doğurur: "Mariya Zaxarovanın mülahizəsinə görə, Vladimir Medinskinin müsahibəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazilərinin bir hissəsi ilə bağlı yer alan fikirlər Bakı tərəfindən düzgün dəyərləndirilməyib. Məsələnin mahiyyətinin dəqiqliklə anlaşılması üçün Mariya Zaxarovanın dediklərini olduğu kimi təqdim edirəm. Sitat: "Mövcud olmayan tezisləri kontekstdən çıxarıb sözləri dəyişmək, onlara tamam başqa məna vermək lazım deyil. Rusiya bu bölgəni (Qarabağı - E.M) rəsmən Azərbaycan Respublikasının ərazisi kimi tanıyır. Medinski məsələnin tarixi aspektindən, sosial-mədəni xüsusiyyətlərindən, insanların dərdindən danışıb. Çıxış sırf silahlı münaqişə yaranmış faciə ilə bağlı olub".

İndi isə Azərbaycanın suveren ərazisinin bir hissəsi ilə bağlı Vladimir Medinskinin müsahibəsində yer alan fikirlərə nəzər salaq: "Əgər cəbhə xəttində sülh əldə edilmədən Rusiya-Ukrayna münaqişəsi dayandırılarsa, o zaman bu, bilirsiniz, Ermənistanla Azərbaycan arasında mübahisəli bölgə olan Qarabağ olacaq. O zaman bu region nəhəng Qarabağa çevriləcək". Göründüyü kimi, Vladimir Medinski hazırda Rusiyanın nəzarəti altında olan Ukrayna ərazilərini vaxtilə Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan Respublikasının suveren ərazisinin bir hissəsi ilə müqayisə edir. Bu, yumşaq desək, qüsurlu və bir-biri ilə daban-dabana zidd olan iki fərqli vəziyyətin müqayisəsinin, Mariya Zaxarovanın təbirincə ifadə etsək, sosial-mədəni xüsusiyyətlərə heç bir aidiyyəti yoxdur.

Deputat bildirib ki, istər tarixi, istərsə də hüquqi aspektdən Qarabağ bu ərazinin özünə, dağlarına, çaylarına, bulaqlarına, yaşayış məntəqələrinə doğma ana dilində ad verən azərbaycanlılara məxsusdur: ""İnsan dərdləri"nə gəldikdə isə dərdi də öz evlərindən işğal nəticəsində didərgin düşən azərbaycanlılar çəkiblər və hələ də çəkməkdə davam edirlər. Onların dərdinə isə Azərbaycan dövləti məlhəm olur. Fikirlərim bir az siyasi üslubdan uzaq oldu, amma hətta Mariya Zaxarova Medinskiyə haqq qazandırmaq üçün poetik-sentimental notlardan istifadə edirsə, mən niyə etməyim? Məsələnin təməlində dayanan əsas fakt isə ondan ibarətdir ki, Vladimir Medinski Zaxarovanın da qeyd etdiyi kimi, Rusiyanın da Azərbaycanın suveren ərazisi kimi tanıdığı iqtisadi rayonu "mübahisəli ərazi" adlandırıb. Bunu hansı "dərd"dən, "ağrı-acı"dan, yaxud arzu və istəkdən çıxış edərək və hansı zaman kəsiyini nəzərdə tutaraq deməsinin isə heç bir anlamı yoxdur".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Paşinyan qərarında israrlıdır

### Baş nazir bütün ermənilərin patriarxını hədəfə alıb

**Ermənistanda siyasi müstəvidə yaşanan gərginlik keçmiş hərbi xunta ilə Nikol Paşinyan iqtidarı arasında münasibətlərin daha da gərginləşməsi ilə xarakterizə edilməkdədir. Məlumdur ki, müharibədəki məğlubiyyət baş nazirin ölkə daxilində mövqelərini sarsıdıb. Bu səbəbdən də erməni siyasi qüvvələri daxilində hakimiyyət uğrunda fəal müzakirələr davam etməkdədir.**

Bu fonda Paşinyanla erməni kilsəsi arasında mübarizənin son zamanlar daha da gücləndiyinin şahidi oluruq. Bunların Rusiyanın xarici işlər naziri Sergey Lavrovun İrəvana səfərindən sonra baş verməsi də təsadüfi deyil.

Arxiyepiskop Baqrat Qalstanyan gələn həftədən etibarən "müqəddəs mübarizə"yə başlayacaqlarının anonsunu verib. O, 3-4 aydır, bütün Ermənistan üzrə təşkilati iş apardıqlarını bildirib: "Biz insanları küçə mübarizəsinə, mülki itaətsizliyə hazırlamaq üçün böyük iş görmüşük. Buna son qoyacağımıza tam əminəm. 2026-cı ildə seçkilərin Vətəndaş Sazişi Partiyası (Paşinyanın liderlik etdiyi siyasi təşkilat-red.) olmadan keçirilməsi lazımdır".

Qalstanyanın timsalında müxalifətdə olan kilsənin yenidən fəallaşması, keçmiş prezident Robert Koçaryanın yeni komanda formalaşdırmaq cəhdləri Rusiyanın Ermənistanda rolunun artmasından xəbər verir.

Bütün bunlara baxmayaraq, Nikol Paşinyan nəinki Erməni Apostol Kilsəsinə (EAK) qarşı kampaniyasını dayandırmaq niyyətində deyil, həm də bütün ermənilərin patriarxını hədəfə alaraq hərəkətə keçir. Paşinyan "Dövlət (hakimiyyət) xalqındır. Kilsə xalqındır. Biz dövləti (hakimiyyəti) xalqa qaytardıq. Biz kilsəni də xalqa qaytarmalıyıq", - deyə o, ötən gün elan edib. Bu gün isə nə istədiyini artıq təfərrüatlı şəkildə izah edib. Paşinyanın sözlərinə görə, II Qaregin könüllü olaraq subaylıq andını pozub və övladı var.

"Past" nəşri yazıb ki, baş nazir Nikol Paşinyan bütün ermənilərin katolikosunun istefasını tələb etməklə, özünü ümidsiz vəziyyətə salıb və indi ya sona qədər oynamalıdır, ya da geriyə addım atmaq onun üçün ciddi məğlubiyyət olacaq. Qeyd edilib ki, Paşinyan parçalanmalar yaratmaq, hətta vətəndaş müharibəsinə gətirib çıxarmaq ideyasını seçib: "Xatırladaq ki, Paşinyan II Qareginin subaylıq andını pozduğunu və övladı olduğunu, ona görə də katolikos taxtını tuta bilməyəcəyini bəyan etmişdi. O, tərəfdarlarını katolikosun vəzifədən uzaqlaşdırılmasına nail olmağa çağırmışdı. Bundan sonra hakim partiya üzvlərindən biri olan Vahaqn Aleksanyan öz ssenarilərinin bir hissəsini açıqlayıb. "Erməni Apostol Kilsəsinin dindarları tərəfindən EAK-ı bidət və murdarlıqdan azad edəcək komissiya və ya qrup yaradılmalı, kilsənin dəyərlərinə uyğun gələn yeni ruhani lider seçilməlidir. Özləri bunu etmirlər, dindar insanlar bunu sevgi ilə və zorakılıq olmadan etməlidirlər", - deyə deputat bildirib. "Sevgi ilə və zorakılıq olmadan" cümləsi adətən "nifrət və düşmənçiliklə" ifadəsinə çevrilir. Əbəs yerə deyildi ki, ötən gün artıq kilsədən Paşinyanın dövlət səviyyəsində terror planlaşdırması barədə fikirlər səslənirdi".



Erməni ictimai xadim Vahan Hovhannisyan bildirib ki, Ermənistan konstitusiyasının 6-cı maddəsinə əsasən, dövlət və yerli özünüidarəetmə orqanları və vəzifəli şəxslər yalnız konstitusiya və ya qanunlarla icazə verilmiş hərəkətləri etmək səlahiyyətinə malikdirlər. Hovhannisyan sual verib ki, Ermənistan baş naziri kilsəyə qarşı kampaniyaya başlamaqla, din xadimlərinin şəxsi həyatına müdaxilə etməklə, konstitusiya və qanunlarla nəzərdə tutulmuş səlahiyyətlərindən hansını həyata keçirir: "Onun belə səlahiyyətlərini hansı qanun müəyyən edir? Əgər hüquq-mühafizə orqanları bu suala cavab verməsələr, o zaman baş nazirin hərəkətlərinə hökumətin səlahiyyətlərini aşması kimi cinayət-hüquqi qiymət verməyə borcludurlar".

Hər halda proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

## Şeyxülislam Allahşükür Paşazadə erməni kilsəsinin kövrək sülh şəraitini pozan qızışdırıcı cəhdlərinə dəstək verilməməsi barədə çağırış edib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Ümumdünya Kilsələr Şurasının Baş katibi Jerry Pilleyə məktub ünvanlayıb. AZƏRTC xəbər verir ki, məktubunda Şeyxülislam Allahşükür Paşazadə Baş katib Jerry Pilleyi Azərbaycanda görmək istəyini ifadə edib. QMİ sədri qeyd edib:**



"Biz Ümumdünya Kilsələr Şurasını ədalətli dinlərarası dialoq və səmərəli əməkdaşlıq müstəvisi kimi tanımışıq. Belə ki, 1993-cü il fevralın 8-də Montrödə keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində dəyərli addım atılıb, məhz ÜKŞ-nin vasitəçiliyi ilə iki ölkənin dini liderlərinin iştirakı ilə yüksəksəviyyəli görüş təşkil olunub. Azərbaycanın dini lideri olaraq mənim ermənilərin Katolikos-Patriarxı I Vazgen ilə Montrö görüşünün nəticələrinə dair imzaladığımız, Ümumdünya Kilsələr Şurasının da təsdiqlədiyi Birgə Kommünikedə birmənalı olaraq vurğulanırdı: "Xalqlarımızı və bizi narahat edən problemləri müzakirə edərək hər şeydən əvvəl onu deməyi zəruri sayırıq ki, günahsız qanların tökülməsi ilə nəticələnən bu münaqişəni xristian-müsəlman qarşıdurması kimi qiymətləndirmək yönündə bəzi cəhdlərə baxmayaraq, bu, dini münaqişə deyildir. Xristian ermənilər və müsəlman azərbaycanlılar bundan sonra da sülh, qarşılıqlı hörmət və mehriban qonşuluq şəraitində yaşamalıdırlar".

O xatırladıb ki, ÜKŞ-nin ovaxtkı Baş katibi Konrad Rayzerin tapşırığı ilə Azərbaycana səfər etmiş nümayəndə heyəti təcavüzə uğramış, etnik təmizləmə siyasəti nəticəsində doğma torpaqlarından qaçqın və məcburi köçkün olaraq didərgin salınmış azərbaycanlıların ağır vəziyyəti ilə yerindəcə - çadır şəhərciklərində tanış olub, qayıtdıqdan sonra ölkəmizə humanitar yardım göstərmək barədə qərar qəbul edib.

Şeyxülislam Allahşükür Paşazadə diqqətə çatdırıb ki, Azərbaycan dünyada dinlərarası dialoq və əməkdaşlıq məkanı olaraq tanınır, qəbul edilir, dövlətimizin başçısı səviyyəsində bu prosesə hər zaman dəstək və himayə nümayiş etdirilir. Dini mərkəz olaraq Qafqaz Müsəlmanları İdarəsi bu proseslərdə fəal iştirak edir, dünyanın bütün nüfuzlu dini mərkəzləri ilə əməkdaşlıq müstəvisində sıx əlaqələr saxlayır.

QMİ sədri vurğulayıb ki, həqiqət gec-tez yerini alır, ədalət zəfər çalır. Dünyanın ən müxtəlif ölkələrinin təmsilçiləri, diplomatik korpus nümayəndələri, BMT, ICESCO və digər beynəlxalq təşkilatlar Ermənistan işğalından azad olunmuş Azərbaycan ərazilərinə səfərlər edib, törədilmiş kultursid, urbisid, ekosid cinayətlərinin nəticələrini öz gözləri ilə görüb, obyektiv qiymət veriblər. İkinci Qarabağ müharibəsindən sonra BMT tərəfindən bölgəyə səfər etmiş müşahidəçi missiyalar bu ərazidə dinc erməni əhalisinə, mülki infrastruktura qarşı zorakılığın tətbiq olunmadığını təsdiq ediblər. BMT nümayəndələri səfərləri zamanı erməni mədəniyyət abidələrinə, o cümlədən xristian ibadət yerlərinə də sərbəst şəkildə baxış keçirərək hər hansı zorakılıq və ya vandalizm təzahürlərini müşahidə etmədiklərini bildiriblər. Azərbaycan tərəfindən BMT missiyasına yaradılan bu şərait ölkəmizin şəffaflıqdan yayınmadığının və ortada gizlədiləsi bir vəziyyətin olmadığının bariz nümunəsidir. Bir daha xüsusi olaraq qeyd etməliyik ki, erməni təbliğatının dezinformasiyalarına baxmayaraq, beynəlxalq müşahidəçilərin də təsdiq etdiyi kimi, Azərbaycanın Qarabağ bölgəsində erməni mülki əhalisinə qarşı heç bir təzyiq və ya zorakılıq göstərilməmişdir və onlar bu ərazini könüllü olaraq tərk ediblər.

Məktubda həmçinin qeyd olunur: "ÜKŞ rəhbəri olaraq siz beynəlxalq təşkilatların həmin hesabatları və beynəlxalq müşahidəçilərin bəyanatları ilə tanış olsaydınız, sizin açıqlamalarınız da obyektiv və Uca Yaradana xoş gedən tərzdə ədalətli olardı. Bizi narahat edən məqam ondan ibarətdir ki, 1993-cü ildə keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə töhfə verən və münaqişənin dini mahiyyət kəsb etmədiyini o vaxt təsdiq edən ÜKŞ-nin hazırda erməniпərəstliyi, xristian təəssübkeşliyi ilə verilən birtərəfli bəyanatları, sizin Baş katib olaraq erməni tərəfinin açıq-aydın təsiri altında verdiyiniz açıqlamalar Ümumdünya Kilsələr Şurasının sülhpərvər nüfuzuna və ədalətli mövqeyinə xələl gətirir, onun dinlərarası əməkdaşlıq müstəvisində fəaliyyətinə kölgə salır, dinlərarası dialoq işinə sağalmaz zərbə vurur. Təəssüflə vurğulayırıq ki, ÜKŞ kimi beynəlxalq kilsə təşkilatının erməni məkri və iftiralarına istinad edən sənədlərində islamofob dəst-xət aydın sezilir ki, bu, rəhbərlik etdiyiniz təşkilatın adına ləkə gətirir. Erməni kilsəsi qərəzli iftiraları ilə yoluxdurduqları ÜKŞ sənədlərini əldə bayraq edib bütün dünyaya, hətta beynəlxalq müsəlman təşkilatlarına yayaraq hamını anti-Azərbaycan cəbhəsində yer almağa çağırışlar edir. Biz ÜKŞ-nin adından belə sui-istifadə hallarının qarşısının ən tez bir zamanda alınmasında israr edir, Baş katib olaraq sizdən qətiyyətli mövqe nümayişi gözləyirik. Belə ki, müasir dünyada din adından siyasi məqsədlər üçün sui-istifadənin yaratdığı təhlükələrin, nifrət çağırışlarının, dini və irqi zəmində ayrı-seçkilik hallarının, dini atributların təhqir olunması kimi vandalizm aktlarının artdığı bir dövrdə dünya kilsələrini təmsil edən qurumdan Uca Yaradanın buyurduqlarına istinadən beynəlxalq müstəvidə etimad mühitini, insan qardaşlığını zədələyən halların qarşısının alınması naminə tərəfsizlik və obyektivlik tələb olunur. Məkr, qərəz və revanşizmi xristian dininin postulatları, İsa Məsihin tövsiyələri ilə ziddiyyət təşkil edən, şərəf və nüfuzu öz ölkəsində belə mübahisələndirilən, ruhani müqəddəsliyini itirməkdə olan erməni kilsə rəhbərlərinin təsirindən nə qədər tez uzaqlaşarsınızsa, ÜKŞ-nin beynəlxalq imici bir o qədər az zərər görər".

Şeyxülislam Allahşükür Paşazadə məktubunda həmçinin bildirib: "Cari ilin mayın 27-28-də Berndə keçirilən konfrans zamanı sizin çıxışınızla bağlı bir daha nəzərinizə çatdırmalıyam ki, Azərbaycanın dünya birliyi tərəfindən tanınan 86,6 min kvadratkilomter ərazisində "Artsax" adlı inzibati vahid mövcud deyildir. Bu tarixi həqiqəti hətta Ermənistanın baş naziri dəfələrlə etiraf etməyə məcbur olub. Öz çıxışınızda bildirmişdiniz ki, 2023-cü ildə Laçın koridoruna yaxın ərazidə olduğunuz zaman "...fiziki yaraların, həm də öz kökündən qoparılan insanların iztirablarının şahidi" olmusunuz. Əfsuslar olsun ki, sizin binoklunuzla yaxın keçmişimizə 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində Ermənistan tərəfindən törədilmiş soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i ahıl olmaqla 613 nəfərin, o cümlədən 8 ailənin tamamilə məhv edilməsini, şəhər və kəndlərimizin yerlə yeksan olunmasını, işğal edilmiş ərazilərimizdə 67 məsciddən 65-nin büsbütün dağıdılmasını, minlərlə məbədlərin, qəbiristanlıqların, tarixi abidələrin, muzeylərin, kitabxanaların talan edilməsi, məscidlərimizin tövləyə çevrilməsi, orada islam dinində haram sayılan heyvanların saxlanılmasını Azərbaycan xalqının yaşadığı dəhşətləri və iztirabları, zəhərlənmiş çaylarımızı, qırılmış meşələrimizi, yandırılmış torpaqlarımızı, basdırılmış saysız-hesabsız minaları görmək mümkün olmayıb".

O vurğulayıb ki, biz dini liderlərin müqəddəs vəzifəsi dünyanın daha əmin-aman olmasına, ədalətin bərqərarı işinə öz töhfələrimizi verməkdir. Bu məramla çağırış edirəm ki, erməni kilsəsinin kövrək sülh şəraitini pozan qızışdırıcı, revanşist həqiqətə uyğun olmayan təbliğatına və xristian təəssübkeşliyindən sui-istifadə cəhdlərinə ÜKŞ tərəfindən bundan sonra dəstək verilməsin. Öz xalqına heç bir nicat yolu qoymayan, onu yeni faciələrə sürükləyən erməni kilsəsinin destruktiv təsirinin ÜKŞ-nin rəsmi mövqeyi olaraq dünyaya bəyan edilməsinə son qoyulsun. "Ümid etmək istəyirəm ki, Ümumdünya Kilsələr Şurası bundan sonrakı fəaliyyətində haqqın, ədalətin və bəşəri sülhün daima carçısı olacaq, xalqların rifahı və təhlükəsizliyi naminə səylərini əsirgəməyəcəkdir!", - deyə şeyxülislam əlavə edib.

# REGİONLAR

## Samuxda arpa biçini sürətlənir

**Keçən il yüksək göstəricilər əldə edən Samux taxılçıları cari il bu nailiyyəti yüksəltmək üçün bütün qüvvələrini səfərbərliyə almışlar.**



Rayonun təsərrüfatlarında 11128,6 hektar biçiləcək taxıl sahələri mövcuddur. Rayon Statistika İdarəsindən verilən məlumata görə, bu taxıl sahələrinin 5673,8 hektarı buğda, 5454,8 hektarı arpadır. Taxıl sahələrinin 5080,3 hektarı və ya 45,7 faizi kənd təsərrüfatı müəssisələrinin, 6048,3 hektarı və ya 54,3 faizi əhali təsərrüfatlarının payına düşür.

Rayonda taxıl biçini ilə bağlı qərargah yaradılmışdır. Biçini optimal müddətdə başa çatdırmaq və məhsulun itkisiz yığılması üçün tədbirlər planı təsdiq edilmişdir. Tədbirlər planına uyğun olaraq, biçinə hazırlıqla əlaqədar yerlərdə fermerlərlə görüşlər keçirilmiş, müzakirələr aparılmışdır. Görüşlərdə fermerlərə taxıl sahələrinin biçindən sonra tez şumlanması, eləcə də taxıl sahələrinin yandırılmasının qarşısını almaq üçün tövsiyələr verilmişdir. Bundan başqa, kombaynların biçinə hazırlığının vəziyyəti ilə əlaqədar monitorinq aparılmışdır.

Hazırda biçin davam edir. İndiyədək 569,6 hektar sahədən 2135 ton arpa biçilmişdir ki, bu da keçən ilin müvafiq dövründəkindən çoxdur.

## Qazaxda barama təhvilinə başlanılmışdır

**Mayın 5-dən Qazaxda barama istehsalı mövsümünə start verilib.**



Qazax Dövlət Aqrar İnkişaf Mərkəzində barama yetişdirilməsi ilə əlaqədar Qax Damazlıq İpəkçilik stansiyasından 30 qutu ipəkqurdu toxumu gətirilərək qazaxlı kümçülərə paylanılmışdır. Cari ilin barama mövsümü üçün rayonun İkinci Şıxlı, Birinci Şıxlı, Yuxarı Salahlı, Aslanbəyli, Kəmərli, Aşağı Salahlı, Orta Salahlı, Kosalar, Hüseynbəyli, Çaylı, Daş Salahlı, Xanlıqlar, Alpout, Dəmirçilər, Cəfərli kəndlərində barama yetişdirən kümçülər tərəfindən 1200 kiloqam yaş baramanın istehsalı nəzərdə tutulmuşdur.

Kümçülər artıq ilkin barama tədarükünə başlamışlar. İndiyəcən onlar ilkin olaraq 200 kiloqrama yaxın barama təhvil vermişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Cəlilabadda və Füzulidə taxıl biçini ilə bağlı regional müşavirələr keçirilib

**Kənd Təsərrüfatı Nazirliyi bölgələrdə taxıl biçininin gedişi, mövcud vəziyyət və qarşıda duran vəzifələrlə bağlı məlumatlandırma sessiyalarını davam etdirir. Məlumatlandırma sessiyaları çərçivəsində nazirliyin rəhbər şəxslərinin iştirakı ilə regional müşavirələr təşkil olunur.**



Taxıl biçininin gedişatına həsr olunmuş növbəti müşavirə Cəlilabad rayonunda keçirilib. Regional müşavirədə Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi, Cəlilabad və ətraf rayonların icra hakimiyyəti strukturlarının məsul şəxsləri, Dövlət Aqrar İnkişaf Mərkəzlərinin direktorları, "Aqroservis" ASC-nin rəhbər şəxsləri və regional nümayəndəliklərinin, rayon bölmələrinin əməkdaşları, texniki nəzarət müfəttişləri, mühəndislər, mexanizatorlar və fermerlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Cəlilabad rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov bildirib ki, ölkədə taxılçılığın inkişafı ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas istiqamətlərindən biri kimi nəzərdə tutulur. Bu sahənin inkişafına dövlət dəstəyinin genişləndirilməsi sayəsində ölkədə taxılçılıq ildən-ilə inkişaf edir. Cəlilabadın ölkənin ən böyük taxılçılıq rayonlarından biri olduğunu diqqətə çatdıran Rafiq Cəlilov əvvəlki illərdə olduğu kimi, bu il də biçin prosesinin mütəşəkkil şəkildə başa çatdırılması üçün lazımi tədbirlərin görüldüyünü bildirib.

Taxıl biçininin mütəşəkkil başa çatdırılması üçün müşavirə iştirakçılarına məlumat verən kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov qeyd edib ki, nazirlik tərəfindən respublikanın bölgələrində taxıl biçininin qısa müddət ərzində, məhsul itkisinə yol verilmədən həyata keçirilməsi, məhsul istehsalçılarının taxılyığan kombaynlarla təmin edilməsi ilə bağlı onlara müvafiq köməkliklərin göstərilməsi üçün bir sıra zəruri tədbirlər hazırlanıb həyata keçirilib. Respublikanın bölgələrində taxıl biçininin mütəşəkkil qaydada və optimal müddətdə biçilib başa çatdırılması üçün "Aqroservis" ASC və digər fiziki və hüquqi şəxslərin balansında olan kombaynların gündəlik dislokasiya planı hazırlanıb, ölkə ərazisində yanğınlara qarşı qabaqlayıcı tədbirlərin səmərəliliyini artırmaq məqsədilə regionlarda mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən aidiyyəti qurumların, həmçinin fiziki və hüquqi şəxslərin iştirakı ilə müşavirələr təşkil olunub.

Müşavirədə çıxış edən nazirliyin yerli qurumlarının rəhbərləri hazırda Cəlilabad, Neftçala və Biləsuvar rayonları üzrə əkin aparılmış 124800 hektar sahənin 27 faizində biçin prosesinin başa çatdığını, hazırda biçin prosesində 256 kombaynın iştirak etdiyini qeyd ediblər. Natiqlər biçin prosesinin optimal müddətdə başa çatdırılması üçün yerli qurumlar tərəfindən koordinasiyalı fəaliyyətin həyata keçirildiyini vurğulayıblar.

Daha sonra regional müşavirədə biçin zamanı qarşıya çıxa biləcək çətinliklər, onların həlli yolları müzakirə edilib, fermer və mexanizatorların təklifləri dinlənilib, qaldırılan məsələlərin operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

Tədbirdən sonra müşavirə iştirakçıları Cəlilabad rayonunun Üçtəpə kəndində taxıl biçininin gedişi ilə tanış olub, fermerlərlə görüşüblər. Bildirilib ki, cari ildə Cəlilabad rayonu üzrə 60,4 min ha sahədə taxıl əkinləri aparılıb. Əkin sahələrinin 47,0 min hektarı buğda, 13,4 min hektarı arpa sahəsidir. Bu günə kimi 8000 hektar sahədə biçin başa çatıb, sahələrdən 24,7 min ton taxıl yığılıb. Hazırda biçin prosesinə 90 kombayn cəlb edilib ki, onlardan 17-si "Aqroservis" ASC-yə, 73-ü isə hüquqi və fiziki şəxslərə məxsusdur.

Müşavirə iştirakçıları sahələrdə məhsuldarlığın vəziyyəti ilə əyani tanış olub, məhsulun vaxtında və itkisiz yığılması üçün görülən işlər barədə fermerləri məlumatlandırıblar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

* * *

**Füzulidə keçirilən regional müşavirədə Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi, Füzuli və ətraf rayonların icra hakimiyyəti strukturlarının məsul şəxsləri, Dövlət Aqrar İnkişaf Mərkəzlərinin direktorları, "Aqroservis" ASC-nin rəhbər şəxsləri və regional nümayəndəliklərinin, rayon bölmələrinin əməkdaşları, texniki nəzarət müfəttişləri, mühəndislər, mexanizatorlar və fermerlər iştirak ediblər.**



Tədbirin təşkilində əsas məqsəd cari ildə taxıl biçinini itkisiz və mütəşəkkil həyata keçirməkdir.

Tədbiri giriş sözü ilə açan Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirib ki, ölkədə kənd təsərrüfatının bütün sahələri kimi taxılçılığın da inkişafına xüsusi diqqət yetirilir. Taxıl əkinləri subsidiyalaşdırılır, bu sahəyə dövlət dəstəyi mexanizmləri genişləndirilir, məhsuldarlığın artırılması, taxılçı fermerlərin gəlirlərinin artması üçün müvafiq tədbirlər görülür. Bu il Füzuli rayonunda 38 min hektardan çox sahədə taxıl əkilib, hazırda məhsulun vaxtında və itkisiz yığılması istiqamətində koordinasiya olunmuş fəaliyyət həyata keçirilir.

Müşavirədə çıxış edən kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aqrar sahənin inkişafına xüsusi diqqət yetirir. Taxılçılığın kənd təsərrüfatının ən aparıcı sahələrindən biri olduğunu deyən nazir müavini əlavə edib ki, digər sahələrdə olduğu kimi, bu sahə də dövlət qayğısı ilə əhatə olunub. Dövlət tərəfindən fermerlərə subsidiyalar verilir, kənd təsərrüfatı texnikaları güzəştli şərtlərlə fermerlərə təqdim olunur. Nazir müavini Azərbaycanda taxılçılığın inkişafı ilə bağlı mövcud vəziyyət və qarşıda duran vəzifələr, taxıl biçininə hazırlıqla bağlı görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Qeyd olunub ki, hər il olduğu kimi, bu il də bölgələrdə taxıl biçini prosesinin mütəşəkkil təşkili üçün Kənd Təsərrüfatı Nazirliyi və tabeli qurumları tərəfindən davamlı olaraq zəruri tədbirlər həyata keçirilib.

"Aqroservis" ASC-nin İdarə Heyətinin sədri Mehman Veysəlov vurğulayıb ki, rəhbərlik etdiyi qurum tərəfindən biçinlə bağlı hazırlıqlar yekunlaşıb. Bütün rayonlar üzrə biçinə cəlb ediləcək mövcud kombaynlara texniki baxış keçirilib, nasaz vəziyyətdə olan texnikalarda təmir, sazlama işləri həyata keçirilib. Hazırlıqların ilkin mərhələsində cari ildə taxıl biçininin itkisiz və mütəşəkkil həyata keçirilməsi məqsədilə kombaynları idarə edəcək mexanizatorlara ödənişsiz təlimlər keçirilib. Həmçinin biçin zamanı dislokasiya planına nəzarət edilməsi üçün kombaynlar GPS nəzarət sistemi ilə təchiz edilib. Bu innovativ nəzarət sistemi biçin zamanı operativliyin təmin edilməsi, biçin prosesinə və dislokasiya planına nəzarət edilməsi və şəffaf idarə etmə mexanizminin qurulmasına imkan yaradır.

Hər il olduğu kimi, bu il də kənd və qəsəbələrdə biçin prosesi növbəlilik əsasında həyata keçiriləcək. Növbəliliyin yaradılmasına icra nümayəndəlikləri və bələdiyyələr tərəfindən dəstək göstəriləcək, biçinə və növbəlilik sisteminə nəzarətin təmin olunması isə Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM) tərəfindən həyata keçiriləcək.

Müşavirədə biçin zamanı qarşıya çıxa biləcək çətinliklər, onların həlli yolları müzakirə edilib, fermer və mexanizatorların təklifləri dinlənilib, qaldırılan məsələlərin operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## *Gəncə Cihazqayırma Zavodu:* hədəf daxili tələbatı ödəməkdir

### Ancaq ixrac da unudulmur

**Prezident İlham Əliyevin bu gün apardığı iqtisadi islahatların əsas hədəfi yeni dövrün tələblərinə uyğun sənaye məhsullarının istehsalına nail olmaqdır. Bu istiqamətdə görülən işlər artıq öz bəhrəsini verir. Əvvəllər idxal etdiyimiz bir sıra məhsullar indi ölkəmizdə istehsal olunur. Bu bizə nəinki idxaldan asılılığı azaltmağa, üstəlik, ixrac imkanlarımızı artırmağa şərait yaradır.**




Belə müəssisələrdən biri də Gəncə Cihazqayırma Zavodudur. Müəssisə ölkənin tələbatı olan sənaye məhsullarının istehsal həcmini və çeşidini artırmaq üçün fəaliyyətini genişləndirməkdə qərarlıdır. Burada ilk dəfə ölkənin böyük tələbatı olan qazpaylayıcı şəbəkə üçün qaz ölçmə qovşaqlarının istehsalına başlanılıb.

Müəssisədə qısa müddət ərzində yeni sexlər tikilib, müasir texnoloji avadanlıqlar quraşdırılıb. Qaz sayğaclarının hissələrinin mexaniki emalı, yığımı və test olunması üçün sahələr yaradılıb. Onu da qeyd edək ki, bu istiqamətdə çalışan mütəxəssislər zavod daxilində hazırlanırlar.

Gəncə Cihazqayırma Zavodunda ildə 500 minə yaxın qaz sayğacı istehsal olunur. Lakin müəssisə fəaliyyətə başladığı dövrdə illik istehsal gücü 300 min ədəd idi. Müəssisənin əlavə yaranacaq tələbatı ödəmək üçün bütün texniki və insan resursları var. Hazırda zavodda 250-270 nəfər işçi çalışır.

Burada istehsal olunan məhsullar daxili tələbatı ödəməklə yanaşı, ixrac da olunur. Zavodun qaz sayğacları əsasən ölkə daxilindəki tələbatı ödəsə də, su sayğacları Qazaxıstan, Özbəkistan, Gürcüstan və Rusiya kimi xarici ölkələrə ixrac edilir. Zavod həmçinin enerji resurslarının ölçülməsi sahəsində ixtisaslaşıb. Bununla yanaşı, müəssisədə 2022-ci ildən su sayğaclarının istehsalına da başlanılıb. Hazırda həmin məhsullar ölkənin su təchizat sistemində geniş istifadə olunur və keyfiyyəti ilə seçilir.

2023-cü ildə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən aparılan islahatlar sayəsində yerli istehsaldan istifadəyə xüsusi fikir verilir. Belə ki, SOCAR tərəfindən əvvəllər idxal edilən bir çox məhsulun ölkə daxilində istehsalına başlanması Gəncə Cihazqayırma Zavoduna da həvalə olunub. Müəssisə etimadı doğrultmaq üçün məişət qaz sayğacları və onların montaj hissələri - elektron modullar, qoruyucu qutular, müxtəlif təyinatlı plomblar və digər komponentlərin istehsalını təşkil edib.

Yeri gəlmişkən, qeyd edək ki, məişət tipli qaz sayğaclarının yerli istehsal hesabına təmin olunması məqsədilə 2021-ci il noyabrın 4-də "Azəriqaz" İstehsalat Birliyi ilə "Gəncə Cihazqayırma Zavodu" ASC arasında memorandum imzalanıb.

Həmin sənədə əsasən, zavod tərəfindən texniki tələblərə, eyni zamanda meteoroloji parametrləri və texniki xüsusiyyətləri standartlara uyğun olan məişət tipli qaz sayğaclarının istehsal olunması və istehsal edilən qaz sayğaclarının "Azəriqaz" tərəfindən xidməti sahələrdə quraşdırılması nəzərdə tutulub.

Memorandum çərçivəsində ilkin olaraq 2 min qaz sayğacı "Azəriqaz"a təqdim olunub. Həmin qaz sayğacları sınaq qurğularında yoxlanılıb və "Azəriqaz"ın qaz şəbəkəsində quraşdırılıb. Sözügedən yoxlama və sınaqlar zamanı heç bir qüsur aşkar edilməyib.

Artıq 2023-cü ilin may ayında "Azəriqaz"ın məişət tipli qaz sayğaclarına olan tələbatının yerli istehsal hesabına tam ödənilməsi məqsədilə Gəncə Cihazqayırma Zavodu ilə müqavilə bağlanıb.

Müqavilədə "Azəriqaz" ilə Gəncə Cihazqayırma Zavodu arasında əməkdaşlıq çərçivəsində sayğaclara olan tələbatın ödənilməsi üçün SOCAR-ın idxaldan asılılığının aradan qaldırılmasına imkan verərək yeni qaz sayğaclarının alqı-satqısının yerli istehsal hesabına həyata keçirilməsi, yerli sahibkarlığın inkişafına dəstəyin verilməsi, xarici valyutanın ölkədən kənara çıxmasının qarşısının alınması, şəffaflığın təmin edilməsi və qaz sayğaclarının təmiri, həmçinin servis xidməti ilə bağlı məsələlərin asanlaşdırılması və ucuzlaşdırılmasının təmin edilməsi nəzərdə tutulur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycanda ilk dəfə tütün sahəsi üzrə sığorta ödənişi edilib

**Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmindən faydalanan fermerlərin sayı artır.**



Aqrar Sığorta Fondu (ASF) ilk dəfə olaraq tütün sahələri üzrə sığorta ödənişləri həyata keçirib. Tütün əkini sahələrində baş verən dolu vurması və selsubasma hadisələri nəticəsində təsərrüfatlara dəyən zərər ümumilikdə 130 hektara yaxın sığortalı əkinləri əhatə edib. Fermerlərin Aqrar Sığorta Fonduna hadisə ilə bağlı müraciətlərindən sonra təsərrüfatlara müstəqil aqrar sığorta ekspertləri yönləndirilib. Ekspertlər, tütün sahələrinə baxış keçirib, baş vermiş hadisəni qeydə alıb və zərərləri hesablayıblar. Toplanmış məlumatlar əsasında fermerlərə müvafiq sığorta ödənişləri təyin edilib və vəsait onların hesablarına köçürülüb. Ümumilikdə tütün sahələrinə dəymiş zərərlər üzrə fermerlərə 147 min manata yaxın sığorta ödənişi edilib. Bu vəsaitdən 58 min manat Şəki rayonu, 27 min manat Balakən rayonu, 29 min manat Zaqatala rayonu və 33 min manat Qax rayonundan olan fermerlərə ödənilib.

# Tolerantlıq və multikulturalizm ünvanı

# Dini zəmində qərəzli münasibətə və konfessional ədavətə qarşı barışmaz mübarizə

**Bakıda keçirilən "İslamofobiya diqqət mərkəzində: Qərəzin ifşası, stiqmaların dağıdılması" mövzusunda beynəlxalq elmi konfrans Azərbaycanın islam həmrəyliyi və müsəlman aləminin konsolidasiyası istiqamətində atdığı növbəti addımdır. Azərbaycan islam ölkələri və xalqlarına qarşı izlənilən ikili standartlara və qərəzli münasibətə, yanlış stereotiplərə və konfessional ədavətə qarşı barışmaz mübarizə aparır.**

Dövlətimiz müasir dünyada multikultural ölkə kimi tanınır. Azərbaycanda bütün səmavi dinlərin nümayəndələri azad və sülh şəraitində fəaliyyət göstərir və yaşayır, dövlət tərəfindən himayə olunurlar. Azərbaycan xalqının hər üç dünyəvi dinə fərq qoymadan ehtiramı və hörməti tariximizdən qaynaqlanan dəyərimizdir. Dinlərin hər hansı ayrı-seçkilik olmadan firavan və mehriban şəraitdə mövcudluğu ölkəmizin Konstitusiyasında təsbit olunub. Azərbaycan islam ölkəsidir və dini ədavət mövzusunda istənilən ədalətsizlik, qərəz və gözdənsalma milyonlarla azərbaycanlının dini hissiyyatına toxunduğu kimi, dövlətimiz tərəfindən də məqbul sayılmayan təzahürlərdir.

### Azərbaycanın tolerantlıq təşəbbüslərinə beynəlxalq diqqət

Hər il martın 15-i BMT çərçivəsində İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü kimi qeyd olunur. Bu barədə qərar ilk dəfə 2020-ci il noyabrın 27-28-də İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Niger Respublikasının Niamey şəhərindəki toplantısında elan olunub. BMT Baş Assambleyası isə 2022-ci ildə martın 15-ni İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü kimi qəbul edib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbir də İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününün üçüncü ildönümünə həsr olunmuşdur.

Konfransın əsas məramı islamofobiyanı doğuran qlobal, tarixi və siyasi amilləri araşdırmaq üçün mütəxəssisləri, akademikləri və dövlət rəsmilərini bir araya gətirməklə tarixi və mənəvi faktorlardan qidalanan bu problemin qlobal və geosiyasi proseslərin, eyni zamanda insan hüquqları kimi həssas problemin müzakirə mövzusu olduğunu bütün dünyaya göstərməkdir. Həm iştirakçıların sayı və təmsil etdikləri dövlətlər, həm müzakirə edilən problemlər, həm də konfransa nüfuzlu xarici partnyorların dəstək verməsi tədbirin aktuallığını göstərməklə yanaşı, həm də Azərbaycanın bu təşəbbüsünün beynəlxalq platformada ciddi diqqətə səbəb olduğunu nümayiş etdirir. İslamofobiya ilə mübarizənin müxtəlif aspektləri, tarixi və müasir baxış bucaqları, birgə əməkdaşlığın təşviqi və mübarizədə beynəlxalq təşkilatların rolu kimi problemlərin müzakirə olunduğu tədbirin xarici tərəfdaşları sırasında G20 Dinlərarası Forumu (IF20), İƏT, ICESCO, Doha Beynəlxalq Dinlərarası Dialoq Mərkəzi (DICID), İnsan Qardaşlığının Ali Komitəsi, Müsəlman Ağsaqqallar Şurası, Almaniya Müsəlmanlarının Mərkəzi Şurası, EULEMA - Avropa Müsəlman Liderləri Məclisi və Beynəlxalq Müsəlman Forumu kimi nüfuzlu institutlar çıxış edirlər. Bu, olduqca ciddi beynəlxalq diqqətin təzahürü olmaqla yanaşı, həm də aydın formada göstərir ki, Bakı artıq islamofobiyaya qarşı mübarizədə mühüm beynəlxalq platformaya çevrilir.

Bu məqsədlə müxtəlif ölkələrdən olan tədqiqat institutları və müvafiq qurumlarla fəal əməkdaşlıq qurulub və Azərbaycan qarşıdakı illərdə də islamofobiya və dini qərəzə qarşı mütəmadi mübarizəsini davam etdirəcək.

### İslamofobiya insan hüquqları problemi kimi

İslamofobiya dini mövzuda ədavətin təzahürü olmaqla yanaşı, həm də bir siyasi məsələdir. Dünyanın müxtəlif nöqtələrində dini məzmunlu qərəz və ikili yanaşma geniş ictimai narazılıqlara, münaqişələrə, hətta müharibələrə rəvac verir. Bu amil aşkar şəkildə göstərir ki, dini ədavət artıq geosiyasi və qlobal xarakter almağa başlayıb. İnformasiya və süni intellekt əsrində dini zəmində ədavətin qızışdırılması və dərinləşməsi ayrı-seçkilik müəllifləri üçün daha da asanlaşıb. Bu baxımdan dini zəmində istənilən ziddiyyətlərin neytrallaşdırılmasının ən səmərəli yolu təhsil və maarifləndirmədir.

İnsan dinini seçməkdə azaddır və bu azadlıq ona Tanrı tərəfindən bəxş edilib. Hər bir insanın fundamental təbii hüquqları var ki, bunlardan biri də din seçimidir. Bu baxımdan dünyada izlənilən dini təzyiqlər, xüsusilə də müsəlman aləminə qarşı tətbiq edilən total islamofobiya daha aktual mahiyyət kəsb etməyə başlayıb. XXI əsrdə islamofobiya kimi neqativ təzahürə insan hüquqları kontekstində yanaşma yaşadığımız reallığın tələbinə çevrilib.

Müsəlmanlara qarşı düşmənçilik halları yeni bir məsələ deyil, lakin son illərdə bu halların intensivliyində ciddi artım müşahidə olunur. İslamofobiya yalnız fərdi səviyyədə deyil, sistemli formada - media, mədəniyyət, təhsil və əmək sahələrində də təzahür edir. Araşdırmalar göstərir ki, müsəlmanların 39 faizi ümumi diskriminasiyaya məruz qalıb. 35 faiz müsəlman iş mühitində, 35 faiz isə yaşayış sahəsi tapmaqda ayrı-seçkiliklə üzləşib. Daha çox narahatedici fakt odur ki, hicablı qadınların 45 faizi vəzifələrə qəbulda ayrı-seçkiliklə üzləşir. Təhsil sahəsində isə 35 faiz müsəlman dini kimliyinə görə diskriminasiyaya məruz qalır.

Bakı konfransında iştirak edən nüfuzlu ekspertlərin gəldikləri ümumi rəy bundan ibarət oldu ki, islamofobiya bəzi siyasi qüvvələr tərəfindən alət kimi istifadə olunur. Dinə, kimliyə və mənsubiyyətə qarşı yönəlmiş belə ritorikalar cəmiyyətin daxilində parçalanmanı dərinləşdirir və qarşılıqlı güvəni zədələyir. Lakin ümid və çıxış yolları mövcuddur. Dini nifrətə qarşı konkret hüquqi və sosial tədbirlərin görülməsi, müxtəlif toplumlar arasında anlayış və hörmətin təşviqi daha sülhsevər və ədalətli cəmiyyətin formalaşmasına zəmin yarada bilər. Bu, yalnız müsəlmanların deyil, bütün insanların təhlükəsizliyi və ləyaqəti üçün vacibdir. Təhsil sahəsində və dövlət xidmətlərində müsəlmanlara qarşı ayrı-seçkilik halları artıb. Gənc müsəlman tələbələrin şəxsiyyətlərinə görə təzyiqlərə məruz qalması və ya müsəlman dövlət qulluqçularının karyeralarında maneələrlə üzləşməsi cəmiyyətin ən vacib sahələrində belə bərabərliyin pozulduğunu göstərir.

İslamofobiya çox zaman yanlış məlumatlardan və stereotiplərdən qaynaqlanır. Bu səbəbdən maarifləndirici tədbirlər, ictimai məlumatlandırma kampaniyaları, təhsil proqramları və media vasitəsilə aparılan obyektiv təqdimatlar cəmiyyətin yanlış təsəvvürlərini aradan qaldırmaqda əsas rol oynaya bilər. Ancaq təkcə maarifləndirmə kifayət deyil. Hüquqi yanaşma da bu mübarizənin vacib sütunlarından biridir. Müsəlman icmalarının ayrı-seçkiliklə üzləşməsi yalnız onların dini kimliklərinə deyil, həm də fundamental insan hüquqlarına qarşı açıq təhdiddir. Bu cür ayrı-seçkiliklə mübarizə aparmaq üçün müəyyən yollar mövcuddur. Lakin əsas mübarizə üsulu maarifləndirmədir. Bu fikirlər konfransda geniş şəkildə səsləndirilib.

### Azərbaycanın dönməz mübarizəsi

Azərbaycan dövlət olaraq müxtəlif dini icmaların birgəyaşayışının tərəfdarıdır. Biz bunu həm dövlət siyasətimizlə, həm də cəmiyyətimizdə olan dini, milli və irqi zəmində dözümlülüyümüzlə bütün dünyaya sübut etmişik. Eyni zamanda Azərbaycan əldə etdiyi bu misilsiz nailiyyətlə kifayətlənməyəcək dövlətdir. Ona görə də rəsmi Bakı dünyanın istənilən nöqtəsində dini zəmində baş verən gərginlik, ayrı-seçkilik və münaqişəyə qarşı çıxış edir və bu istiqamətdə bütün zəruri addımları atmaqda qərarlıdır.

Azərbaycanın bu dövlət siyasəti xalqımızın dünyagörüşü və iradəsinə əsaslanır və Prezident İlham Əliyev tərəfindən uğurla, ardıcıllıqla həyata keçirilir. Dövlət başçısının Bakıda keçirilən beynəlxalq konfrans iştirakçılarına ünvanladığı müraciət dövlətimizin sadalanan istiqamətdə davam edən əzminin bariz təzahürüdür. "İslamofobiya müxtəlif formalarda, o cümlədən gündəlik həyatda müsəlmanlara qarşı irqçilik və ayrı-seçkilik, nifrət nitqi, fiziki hücumlar, media və sosial media platformalarında stiqmatizasiya, institusional diskriminasiya və digər formalarda təzahür edir. Bu cür ədalətsiz və qərəzli münasibət müsəlmanların cəmiyyətə inteqrasiya olunmalarına və özlərini onun bərabərhüquqlu üzvü kimi hiss etmələrinə böyük maneə yaradır", - deyən dövlət başçısı vurğulayıb ki, vaxtilə qul ticarəti ilə məşğul olan, işğalçılıq və müstəmləkəçilik siyasəti yürüdən, soyqırımları törədən, indi isə özlərini insan hüquqlarının keşiyində duran demokratik ölkələr qismində təqdim edən bəzi ölkələrdə bu gün islamofobiya bir növ dövlət siyasətinə çevrilib. Bu ölkələrdə dünyəvi dəyərlərin müdafiəsi adı altında müsəlmanların hüquqlarını və etiqad azadlığını məhdudlaşdıran qanunlar qəbul edilir, onların təhsil almaq, mənzilə sahib olmaq, işlə təmin olunmaq və digər hüquqları tapdalanır.

Prezident İlham Əliyevin problemə bu baxış bucağından yanaşması göstərir ki, islamofobiya təkcə teoloji deyil, həm də geosiyasi maraqlar mövzusuna çevrilib. Böyük, imperializm maraqlarını güdən güclər siyasi iddialarını reallaşdırmaq üçün din amilindən istifadə etməyə çalışırlar. Bu yanaşma Azərbaycan üçün tanışdır, çünki torpaqlarımızın 30 illik işğalı dövründə xalqımız Ermənistanın ərazi iddialarının dağıdıcı fəsadlarının, həmçinin dini abidələrə və məscidlərə qarşı tətbiq etdiyi vandalizm siyasətinin şahidi olub.

Prezident İlham Əliyevin sözlərinə görə, islamofobiyanın belə bir miqyas almasının başlıca səbəbi dünyada lazımi diqqəti görməməsindədir: "Məyusedici haldır ki, islamofobiya kimi ümumbəşəri bəlaya və təhlükəyə qarşı nəinki mübarizə aparılmır, hətta bir sıra ölkələrdə onun yayılması təşviq edilir. İslam dinini və müsəlmanları Qərb kimliyinə və dəyərlərinə təhdid kimi göstərərək insanların hisslərini və düşüncələrini yönəltməyə çalışan radikal cərəyanların və ifrat sağçı partiyaların pərəstişkarlarının sayı getdikcə artır, onların nümayəndələri parlamentlərdə daha çox yer qazanmağa başlayırlar. Eyni zamanda Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi təsisatlar qərəz və ikili standartlara üstünlük verərək antimüsəlman əhvali-ruhiyyəsini təlqin edirlər".

Dövlətimizin başçısı hesab edir ki, islamofobiyanın yayılmasına təkan verən digər faktorlardan biri də ictimai rəyin formalaşdırılmasında və müsəlmanların mənfi obrazının yaradılmasında dağıdıcı rolu olan bəzi media orqanlarının fəaliyyətidir: "Media qurumları məqsədyönlü şəkildə ekstremizm, terrorizm və bu kimi anlayışları islamla eyniləşdirərək dinimizə qarşı qərəzli təsəvvür yaradır, dinimizi təhlükə mənbəyi kimi aşılayır və ona terror damğası vurmağa çalışırlar. Ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında mövcud problemləri islam və müsəlmanlarla əlaqələndirərək cəmiyyətdə etimadsızlıq və qorxu hisslərini alovlandırırlar".

Azərbaycan islamofobiya ilə mübarizəyə dair BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş qətnamələri alqışlayır və sənədlərdə qeyd olunan tədbirlərin təxirəsalınmaz qaydada həyata keçirilməsinə çağırış edir. Dövlət başçısının sözlərinə görə, "islamofobiya son dövrdə qlobal müstəvidə daha qabarıq və sistematik xarakter almağa başlayıb. Hazırda bu mənfi tendensiya hər hansı konkret ölkədə deyil, dünyanın bir çox yerlərində müşahidə olunur. İslama qarşı düşmənçilik, müsəlmanlara qarşı nifrət və dözümsüzlük, antiislam əhvali-ruhiyyəsi getdikcə böyük vüsət almağa başlayır və daha da kəskinləşir".

Bu gün dünyanın müxtəlif yerlərində dini məzmunda yalnız regional deyil, həm də qlobal səviyyədə baş verən hadisələr ciddi narahatlıq doğurur. Yaxın Şərqdə, eləcə də Cənubi Asiyada - Pakistan-Hindistan münasibətləri fonunda Hindistanda müşahidə olunan antimüsəlman siyasəti Azərbaycan dövləti tərəfindən məqbul sayılmayan neqativ tendensiyaların göstəriciləridir. Bir sıra dövlətlər, ələlxüsus da Fransa özünün neokolonial siyasətinin tərkib hissəsi kimi müsəlman ölkələrinə və əhalisinə qarşı nümayiş etdirdiyi dini qərəz və ayrıseçkilik siyasətini başlıca alət qismində görür. Rəsmi Bakı atdığı əməli addımları ilə bu kimi zərərli tendensiyalara qarşı amansız mövqedə olduğunu nümayiş etdirir. Həm beynəlxalq platformalarda, həm ikitərəfli münasibətlərdə, həm də humanitar aksiyalarda fəal iştirak edən dövlətimiz bütün dünyaya nümayiş etdirir ki, yalnız cəmiyyətimizdə nail olduğumuz multikultural mühit bizim üçün yetərli ola bilməz. Dini ədavət və islamofobiya bir bəşəri bəladır. Azərbaycan isə dünyanın bir parçası olaraq bu kimi problemlərə laqeyd qala bilməyəcək dövlətdir. Bu reallıq bizim tarixi və mənəvi irsimizlə yanaşı, malik olduğumuz siyasi reputasiya və imicimizin, qazandığımız yeni geosiyasi statusun prinsiplərinə ziddir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Xalq Cümhuriyyətində din və dövlət münasibətlərinin konseptual əsasları

**XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda mövcud müstəmləkəçi rus rejiminin bütün qadağalarına rəğmən, ictimai fikirdə, mətbuat səhifələrində Azərbaycan milləti, siyasi coğrafiyası, ümmət və millət anlayışları, din və milli dövlət münasibətləri ilə bağlı ciddi müzakirələr başladı. Cəmiyyətdə baş verən bu siyasi və ideoloji dəyişikliklər nəticəsində elmi və fəlsəfi fikir özünün inkişafinda əksər Şərq ölkələrini xeyli qabaqlayaraq, mədəniyyətin, ictimai fikrin inkişafina böyük təsir göstərdi.**



Məhz bu amilləri nəzərdə tutaraq görkəmli ictimai-siyasi xadim M.Ə.Rəsulzadə qeyd edirdi: "İnkişafa meyilli olduqlarını göstərmək üçün bu kafi deyilmi ki, ilk türk dramaturqu azərbaycanlı, ilk türk bəstəkarı azərbaycanlı, Rusiya türkləri arasında ilk qəzet yaradıcısı azərbaycanlı, məzhəb uzlaşmadığını ilk olaraq ortadan qaldıran yenə azərbaycanlı, əlifba islahatını ilk düşünən azərbaycanlı, nəhayət, islam aləmində ilk dəfə cümhuriyyət elan edən də azərbaycanlıdir".

Köhnəliklə yeniliyin, M.Ə.Rəsulzadənin təbirincə, hürrəndişlərlə (novatorlarla) mühafizəkarların (konservatorların) mübarizəsi son nəticədə birincilərin qələbəsi ilə başa çatmış, Şərqlə Qərbin sintezinə can atan böyük azərbaycanlı mütəfəkkirlərin sayəsində Azərbaycanda islam ümmətçiliyindən islam millətçiliyinə, daha sonra isə türk millətçiliyinə keçid prosesi baş vermişdi.

Əsasını A.A.Bakıxanov, M.F.Axundzadə, H.B.Zərdabi kimi ziyalıların qoyduğu maarifçilik hərəkatı XIX əsrin sonu XX əsrin əvvəllərində Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəriman Nərimanov və başqa ziyalılarımız tərəfindən daha da inkişaf etdirildi.

Bu dövrdə qızğın müzakirələrə səbəb olan məsələlər arasında dövlət anlayışı, monarxiya, sülalə hakimiyyətləri, demokratik idarəçilik forması, milli dövlət, ümmət-millət münasibətləri, milli dövlət sistemində dinin rolu kimi problemlər xüsusilə müzakirə predmeti idi.

Azərbaycanın və türk dünyasının görkəmli şəxsiyyətlərindən biri olan Əhməd bəy Ağaoğlu çoxşaxəli elmi və siyasi görüşlərində türk dövlətçilik tarixini şərh edərkən dövlətin növləri, idarəçilik forması, hökumət sistemi, dövlətin atributları olan millət, fərd və dövlət münasibətləri, cəmiyyətdə plüralizm, ziyalı zümrəsinin dövlət sistemində rolu və s. kimi məsələlərin elmi-nəzəri aspektlərini təhlil edərək göstərirdi ki, "Qədim qərinələrdən bəri Şərqdə dövlət məfhumu çox qəribə bir mənada izah edilmişdir. Dövlət hökumətlə qarışdırılmışdır. Guya ikisi də eyni məna ifadə edir. Türklər bu barədə təsəvvürlərində "daha irəli" getmişlər. Onlar dövləti yalnız hökumətlə qarışdırmamışlar. Təsis etdikləri hökumətləri, dövlətləri belə bir şəxsin ismi, bir ailənin adı ilə adlandırmışlar. Deyilənlərə misal olaraq Qəznəvilər, Səlcuqlar, Osmanlılar və s. yad edilir. Halbuki bu üç məfhum, yəni hökumət, sülalə və dövlət arasında istər zahiri, istər batini, istər maddi və istərsə də mənəvi cəhətdən çox bariz fərqlər mövcuddur. Fəqət Şərq bunları qarışdırmış, hər sülaləni ayrı bir dövlət hesab etmiş və hər yeni gələn özündən əvvəl gələnləri, adətən, əcnəbi hesab etmişdir. Bunun yanlış bir cəhd olduğunu ondan görmək olar ki, hakim sülaləsini dörd dəfə dəyişdirən İngiltərə dünyanın bir çox ölkəsini zəbt etməsinə baxmayaraq, heç bir şair və ya tarixçi tərəfindən həmin sülalələrin adı ilə adlandırılmamışdır. Napoleon bütün Avropanı istila etdiyi halda, nə Fransa Napoleon adını aldı, nə də fransız dövlətinin təsisi ona aid edildi".

Əhməd Ağaoğlu Şərq və Qərb tarixi metodologiyasını təhlil edərək bu qənaətə gəlmişdir ki, dövlətdə yeganə "paydar" və həlledici ünsür onu doğuran millətdir. Avropalılar bir dövlətin bir sülalə adı ilə adlanmasını zehinlərinə sığışdıra bilmədiklərinə görə "Osmanlı" kəlməsinə heç cür isinə bilmir, daim "Türkiyə" deyirlər. Həqiqətdə dövlət müstəqil bir millətin yerləşdiyi sahə ilə o millətin bütün siyasi, ictimai, iqtisadi təsisatına deyildiyi halda, "hökumət" yalnız o təsisatın bır qismini, "sülalə" isə onun çox məhdud bir hissəsini ifadə edir. Dövlət istiqlaliyyətsiz yaşaya bilməz, istiqlaliyyətini itirdimi, özü də yox olur. Halbuki o, sülaləsiz yaşaya bilir. Bu gün dünyanın çox hissəsi cümhuriyyət üsulu ilə yaşayır. Odur ki, bir dövləti bir sülalə və yaxud hökumət adı ilə adlandırmaq qədər qeyri-elmi və əsassız bir hərəkət təsəvvür edilə bilməz. Dövlətin varlığı sülalənin varlığı, ya yoxluğu ilə bağlı olmadığından müəyyən bir sülalə yıxılandan sonra da dövlət məhv olmayıb yaşayır, çünki onu yaradıb paydar edən millətdir. "Sülalə yıxılır, fəqət millət yaşayır və daha ləyaqətli və istedadlı rəhbərlərin ardınca gedərək dövləti də yaşatmağa və təzələməyə müvəffəq olur".

Azərbaycan Cümhuriyyətinin qurucu liderlərindən biri Məhəmməd Əmin Rəsulzadə də din-dövlət münasibətlərini təhlil edərkən dünyəvi dövlət modelinə üstünlük verir, çağdaş dünyada demokratik idarəçilik sisteminin alternativinin olmadığını dəfələrlə vurğulayırdı. Bu haqda M.Ə.Rəsulzadə qeyd edirdi ki: "Azərbaycan müsəlman aləmində ilk cümhuriyyət və türk aləmində ilk dövlətdir... Türk mənşəli bütün digər dövlətlər başlıca olaraq dini təməl üzərində qərar tutduqları halda Azərbaycan Cümhuriyyəti müasir milli-mədəni müstəqillik təməlinə, türk milli-demokratik dövlət qurumu zəmininə əsaslanır və bu baxımdan bizim cümhuriyyətimiz ilk türk dövlətidir".

XX əsrin əvvəllərində türk-islam dünyasında baş verən ictimai-siyasi proseslərdə novatorlarla mühafizəkarlar arasında ciddi fikir mübarizəsi gedir, müzakirə mövzusu olan "İslam birliyi" ideyası fərqli yönlərdən dəyərləndirilirdi. Həmin dövr islam dəyərlərinə yanaşmada və "İslam birliyi" ideyasına münasibətdə üç cərəyan mövcud idi. Bu cərəyanların nümayəndələrindən bir qismi mütərəqqi, yaxud da yeni müsəlmanlar adlanırdı. Əhməd bəy Ağaoğlu onları "ifrat mütərəqqi" müsəlmanlar adlandırır və qeyd edirdi ki, "ifrat mütərəqqilər" çıxış yolunu yalnız Avropanı təqliddə, Avropa həyat tərzini olduğu kimi Şərqə köçürməkdə görürdülər.

İkinci xəttin nümayəndələri mühafizəkar, yaxud da "köhnə müsəlmanlar" adlanırdı. Onlar, əsasən, uzun illər boyu kök salmış klassik islam ehkamlarının toxunulmazlığının tərəfdarı idilər. Əhməd bəy Ağaoğlu bu cərəyanın tərəfdarlarının mövqeyini şərh edərək yazırdı: "Onlar hesab edirlər ki, xalqın keçmişdən uzaqlaşması, köhnə ehkamların zəifləməsi, ifrat sərbəstlik müsəlmanlara üz verən bütün bəlaların yeganə mənbəyidir. Köhnəpərəstlər belə bir əqidədə idilər ki, xilas üçün nə Avropaya, nə də köhnə həyatın dəyişdirilməsinə ehtiyac yoxdur. Sadəcə keçmişə qayıtmaq kifayətdir, bunun özü müsəlmanları xilas edəcək".

Üçüncü cərəyanın nümayəndələri isə bu iki istiqamət arasında orta xətt götürən "panislamistlər" idi. Panislamizmin banisi Şeyx Cəmaləddin Əfqani yazmışdır: "Dini hərəkatdan məqsədimiz islam dinini islah etmək olduğu məlumdur. Dini islahın mənası Rəsulullah (Məhəmməd Peyğəmbər (s.ə.v.)) gətirməyən bir şeyi dinə artırmaq, yainki islam qaydalarını batırmaq deyil, bəlkə Rəsulullah gətirmiş dinə sonradan və sonrakı adamlar tərəfindən əlavə olunan şeyləri götürüb də dini səadət əsrindəki (peyğəmbər və dörd xəlifə dövründəki) rövşənə salmaq deməkdir. Bunu isə çətin yollar ilə deyil, bəlkə vəz, nəsihət, mətbuat ilə ümumi müsəlmanlara anladıb islam əmrlərini də mənasız şeylərə deyil, bəlkə din və dünya üçün lazım olacaq və istiqballarında fayda görüləcək şeylərlə etmək gərəkdir".

Şeyx Cəmaləddin Əfqaninin liberal panislamizmini yüksək dəyərləndirən Əhməd bəy Ağaoğlunun sözləridir: "Panislamizm özünün daxili məzmununa görə, əslində, geriyə dönməkdir, amma köhnəlik girdabında qapanıb qalmaq deyildir. Bu geriyə dönüş daha inamla, daha böyük qüvvətlə irəliyə atılmaq üçün vasitədir. Keçmişə qayıtmağı tələb edən panislamizm eyni zamanda müsəlmanlar arasında müasir həyatın köklü və birdəfəlik dəyişdirilməsini təkid edir. Bu, bir vaxtlar müsəlmanlara məxsus olan iqtisadi, siyasi və mədəni nailiyyətlərin qaytarılmasına təkid idi. Bir sözlə, Avropa düşüncə tərzi və yeni müsəlman meyli arasında panislamizm və avropalaşmaq anlayışı sinonim xarakteri kəsb etmişdi".

Panislamizmi liberal-islahatçı cərəyan adlandıran M.Ə.Rəsulzadə isə qeyd edirdi ki: "Panislamizdəki liberal-yenidənqurucu axın sonrakı inkişafı ilə müsəlman aydınlarında milli-mədəni dünyagörüşün formalaşması üçün çox əlverişli zəmin yaradırdı. Məsələn, panislamizmin görkəmli ideoloqu məşhur Cəmaləddin Əfqani liberal islahat tələb edənlərdən idi və müsəlman aləmində azadlıq üçün öncə milli şüurun oyanmasının zəruriliyini ilk dəfə o göstərmişdir. O, "Milli birliyin fəlsəfəsi" adlı yazısında "Millətindən kənarda xoşbəxtlik yoxdur. Qohumluq dilsiz düşünülməz. Dil isə toplumun bütün qatlarının anlaşma səbəbi olmazsa, özünün sosial funksiyasını yerinə yetirə bilməz", - deyərək öz baxışını təsdiq edirdi".

M.Ə.Rəsulzadə cəmiyyətin sosial-mədəni həyatında dinin əhəmiyyətli rol oynadığını vurğulayır və cəmiyyətdə dini və milli dəyərlərin transformasiyasının vacibliyini xüsusi olaraq qeyd edirdi. "Millətin bir rüknü də dindir", - deyən M.Ə.Rəsulzadə bildirirdi ki, "Din hər nə qədər dildən sonra gələn bir amil isə də bəzi şərait daxilində ondan daha müəssir bir qüvvət şəklini də ala bilir, ümumi bir dil nə qədər dil əhlində ümumi bəzi xislətlər və ideallar tövlid ediyorsa, ümumi bir dinə malik olmaq dəxi o dərəcədə böyük bir təsir icra edə bilər. Müxtəlif din və məzhəblərə malik olan bir dil sahiblərinin "milliyyət" olaraq vahid mədəni bir kütlə vücuda gətirmələri müşkül olduğu halda, bir din və bir dilə malik olanlarca bu müşkülat mütəsəvvir deyildir..."

Məhəmməd Əmin Rəsulzadə islam dininə böyük önəm verməklə yanaşı, cəmiyyətdə mövcud olan cəhaləti də gizlətmir, bu cəhalətin kökündə isə dini yaxşı bilməməyimiz, ondan düzgün nəticə çıxarmamağımızın dayandığını qeyd edirdi. Dinin cəmiyyətin mənəvi həyatındakı rolunu yüksək qiymətləndirən görkəmli mütəfəkkir, ondan sui-istifadə edilməsinin də əleyhinə idi. Dini siyasətdən və dövlət idarəçiliyindən kənarda görmək istəyən Məhəmməd Əmin, onun olduğu kimi cəmiyyətə çatdırılmasını vacib sayır, dinin intibahında, müasirliklə ayaqlaşmasının vacibliyini vurğulayırdı.

*(Ardı var)*

***Mübariz AĞALARLI,***
***AMEA-nın Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent***



# Mədəniyyət



● Cəfər Xəndan - 115

# Böyük alim, istedadlı şair, unudulmaz müəllim

**Ötən əsrdə xalqımızın milli-mənəvi dəyərlərinin zənginləşməsində, ədəbiyyat, mədəniyyət və elmin inkişafında xidmətləri olmuş unudulmazlardan biri də görkəmli şair, tənqidçi, ədəbiyyatşünas, tərcüməçi və pedaqoq kimi tanınan professor Cəfər Xəndandır.**



Cəfər Xəndan Zeynal oğlu Hacıyev 8 may 1910-cu ildə Qərbi Azərbaycanın İrəvan şəhərində müəllim ailəsində anadan olmuşdur. Valideynləri 1918-ci ildə erməni daşnaklarının məqsədli şəkildə müsəlman ailələrinə qarşı aqressiv müdaxilələri, hücum və qətliamları nəticəsində yurdundan didərgin həyatı yaşamışdır. O zaman "Cəmiyyəti-Xeyriyyə"nin dəstəyi ilə fəlakət bölgələrində olan istiqlal şairi Əhməd Cavad və yazıçı-publisist Əli Səbrinin vasitəsilə digər qaçqınlarla birlikdə Gəncədə yerləşdirilmişlər. Az sonra Cəfərin atası və anası vəfat etmişdir. Bundan sonra o, kiçik qardaşı Rəşid və azyaşlı bacısı Leyla ilə birlikdə şəhərdəki uşaq evində yaşamışdır. İbtidai təhsil aldıqdan sonra Gəncə Pedaqoji Texnikumunda oxumuşdur. 1925-ci ildə texnikumu müvəffəqiyyətlə bitirən Cəfər Azərbaycan Dövlət Universitetinin (indi BDU) Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuşdur. Universiteti 1930-cu ildə uğurla başa vurduqdan sonra təhsilini aspiranturada davam etdirmişdir.

Gənclik illərindən ədəbiyyata və dövri mətbuata böyük maraq göstərən Cəfər 1932-1941-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda assistent, müəllim, dosent, kafedra müdiri işləyib, həmçinin ədəbi prosesdə fəal iştirak edib, "Ədəbiyyat qəzeti"nin məsul katibi, "Gənc işçi" qəzetinin ədəbiyyat şöbəsinin müdiri vəzifələrində çalışıb. 1938-ci ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilib. Bunlardan başqa, Cəfər Xəndan M.F.Axundov adına Müəllimlər İnstitutunda (indi Bakı Slavyan Universiteti ) Dil və ədəbiyyat fakültəsində dekan, Azərbaycan Milli Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri, eyni zamanda Azərbaycan Yazıçılar Birliyində təşkilat katibi kimi fəaliyyət göstərib. 1939-cu ildə dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. Həmin ildə orta məktəb şagirdləri üçün "Azərbaycan ədəbiyyatı (sovet dövrü)" dərsliyini nəşr etdirib. 1940-cı ildə Azərbaycan ədəbiyyatşünaslığında M.Ə.Sabir haqqında ilk monoqrafiya "Sabir (həyat və yaradıcılığı)" adlı kitabı çapdan çıxıb.

1941-1945-ci illər Böyük Vətən müharibəsinin iştirakçısı olmuş Cəfər Xəndan Şimali Qafqazda və İranda siyasi rəhbər və jurnalist kimi fəaliyyət göstərib. 1944-1946-cı illərdə Cənub-Qərb, Şimali Qafqaz və Qafqaziya cəbhələrində siyasi şöbənin baş təlimatçısı, "Vətən yolunda" və digər sahə qəzetlərində redaktorun müavini vəzifələrində çalışıb. Ordudan tərxis olunduqdan sonra - 1946-1947-ci illərdə Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında dosent, eyni zamanda "Kommunist" qəzetinin mədəniyyət şöbəsinin müdiri olub. 1947-1950-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri, filologiya fakültəsinin dekanı, 1950-1954-cü illərdə Azərbaycan Dövlət Universitetinin rektoru, 1952-1961-ci illərdə isə həmin universitetin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifələrində işləyib.

Cəfər Xəndan çoxcəhətli ədəbi-bədii, ictimai-siyasi, elmi-pedaqoji fəaliyyəti dövründə bu gün də aktuallığını qoruyub saxlayan, ölkəmizin ali və orta məktəblərində çoxminli tələbə və professor-müəllim kollektivinin bəhrələndiyi dərslik və monoqrafiyalar yazıb. Görkəmli alim 1947-ci ildə "1906-1946-cı illərdə Cənubi Azərbaycan xalqının milli azadlıq mübarizəsi və onun ədəbiyyatda inikası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, filologiya elmləri doktoru alimlik dərəcəsi alıb.

1948-ci ildə "Ədəbiyyat nəzəriyyəsi" kitabını təkrar çap etdirən alim 1949-cu ildə professor olub. 1951-ci ildə "XX əsr Azərbaycan ədəbiyyatı", 1952-ci ildə iki hissədən ibarət "Sovet ədəbiyyatı", "1954-cü ildə Cəfər Cabbarlının həyat və yaradıcılığı", 1955-ci ildə "XX əsr Azərbaycan ədəbiyyatı tarixi oçerkləri", 1956-cı ildə "Mikayıl Müşfiq", "Molla Nəsrəddin", 1958-ci ildə "Mir Cəlal", "M.Ə.Sabir haqqında", 1961-ci ildə "Şairin həyatı", 1962-ci ildə "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri" adlı kitabları çapdan çıxıb. Professor Cəfər Xəndan üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin 1957-ci ildə nəşr olunmuş üçüncü cildinin müəlliflərindən biridir.

Alimin "Ədəbiyyat nəzəriyyəsi", "Şairin həyatı" kitablarının hər biri iki dəfə, "Sovet ədəbiyyatı" kitabı isə 17 dəfə nəşr olunub.

Sabirşünaslığın inkişafında böyük xidmətləri olan professor Cəfər Xəndan Sabiri ədəbiyyatımızın iftixarı hesab edirdi. Təsadüfi deyil ki, o, Sabirə həsr etdiyi məqalələrindən birini "Fəxrimiz" adlandırmışdı. Bütün ədəbi-elmi fəaliyyəti dövründə Sabirin çox zəngin və dəyərli irsinə dönə-dönə müraciət etmiş, ən yaxşı monoqrafik tədqiqatlarında ona daim xüsusi diqqət yetirmiş və mühüm yer ayırmışdır. Abbas Səhhətin "Sabir İran inqilabına bir ordudan artıq kömək etmişdir", - sözlərini təkrar-təkrar xatırlayaraq tədqiqatlarında "Sabir və xalq", "Sabir və zaman" problemlərinin elmi-nəzəri təhlilini vermişdir.

Professor C.Xəndan yaşının və elmi yaradıcılığının kamillik çağlarında Cənubi Azərbaycanda ədəbiyyat, mətbuat, maarif və incəsənət, Azərbaycan ədəbiyyatında cənub mövzusu ilə tədqiqatçı bir alim kimi dərindən maraqlanıb, bütün bu məsələləri əhatə edən doktorluq dissertasiyası yazaraq müdafiə edib. Bu sanballı elmi-tədqiqat işində Cənubi Azərbaycan ədəbiyyatının 1828-ci il Türkmənçay müqaviləsindən sonra 1946-cı ilə qədər keçdiyi yol, mətbuatın, maarifin, incəsənətin inkişafı ilk dəfə olaraq zəngin ədəbi-bədii, tarixi-elmi mənbələr əsasında sistemli və əhatəli surətdə işıqlandırılıb. Həmin maraqlı elmi-tədqiqat işi tamamlandığı vaxtdan xeyli sonra - 1987-ci ildə "Azərnəşr" tərəfindən "Uğur yolu" adında dərc edilib.

Tədqiqatçıların qənaətinə görə, professor Cəfər Xəndanda Cənubi Azərbaycan ədəbiyyatı mövzusuna maraq təsadüfən yaranmayıb. Özünün yazdığı kimi, Tehranda çıxan "Ayəndə" məcmuəsində onun baş redaktorunun Azərbaycan xalqının tarixinə böhtan atması vətənpərvər alimin bununla əlaqədar silsilə məruzələr hazırlayıb təbrizlilər qarşısında ardıcıl çıxışlar etməsinə səbəb olub. Beləliklə, "Monqol istilasına qədər Azərbaycan dili və ədəbiyyatı", "XV-XVI əsrlərdə Təbrizdə ədəbiyyat", "XVII-XVIII əsrlərdə Təbrizdə ədəbiyyat", "XIX-XX əsrlərdə Təbrizdə ədəbiyyat" mövzularında məruzələr ictimaiyyətə çatdırılıb. Bütün bunlardan sonra Cəfər Xəndanın "Cənubi Azərbaycanda ədəbiyyat, mətbuat, maarif və incəsənət, Azərbaycan ədəbiyyatında cənub mövzusu" adlı çox əhəmiyyətli və əhatəli monoqrafiyası meydana çıxıb. Böyük zəhmət və istedadla yazılmış bu əsərdə Türkmənçay müqaviləsindən sonrakı illər və ədəbiyyata ümumi bir baxış, Heyran xanım, Hacı Mehdi Şükuhi, 1905-ci il rus inqilabı və 1917-ci ildən sonrakı dövrdə Cənubi Azərbaycanda inqilabi-ədəbi hərəkat, Milli Azadlıq hərəkatının yeni mərhələsində, yəni 1941-1946-cı illərdə ədəbiyyat, mətbuat və incəsənət kimi məsələlər zənginliyi ilə əhatə edilmişdir.

Professor Cəfər Xəndan şair, tənqidçi, tərcüməçi kimi də maraqlı bir yaradıcılıq yolu keçib. O, "Bəyaz gecələr" (1936), "Cəbhə şeirləri" (1942), "Qafqaz" (1942), "İlk ayrılıq" (1944), "Mübarizə yollarında" (1946), "Şeirlər" (1983) kimi kitablarında toplanmış şeir və poemaları ilə oxucuların estetik zövqünün formalaşmasında, insanların mənəvi dünyasının yetkinləşməsində böyük rol oynayıb.

Cəfər Xəndan Azərbaycan poeziyasının fars dilində yaranmış klassik nümunələrinin tərcümə sahəsində də böyük işlər görmüşdür. Onun yüksək səviyyədə poetik tərcüməsində böyük Azərbaycan şairi Nizami Gəncəvinin "Lirika" (1940), Heyran Xanımın "Qəzəllər" (1975), M.F.Axundzadənin "A.S.Puşkinin ölümünə Şərq poeması" (1962) kitabları geniş oxucu kütləsi tərəfindən böyük maraq və məhəbbətlə qarşılanmışdır. Bu tərcümələr Azərbaycan tərcümə sənətinin tarixində olduqca dəyərli yer tutur.

Onun C.Cabbarlı, S.Vurğun, M.Müşfiq, Mir Cəlal, S.Rüstəm, R.Rza kimi müasirləri, qələm dostları haqqında məqalə və kitabları ədəbi-elmi mühitdə, canlı ədəbi prosesdə, çoxsaylı oxucular arasında geniş əks-səda doğurub. C.Xəndanın Nizami Gəncəvinin qəzəllərindən yüksək məharətlə etdiyi tərcümələri böyük Ü.Hacıbəylinin diqqətini cəlb edib və bu, "Sənsiz", "Sevgili canan" kimi əsl incəsənət nümunələri olan romansların yaranmasına səbəb olub.

Cəfər Xəndanın ədəbi-elmi janrlarda 30-a qədər kitabı çap olunub. Bunlardan birincisi 1936-cı ildə nəşr edilən "Bəyaz gecələr" adlı şeir kitabıdır. Bu ilk kitabın redaktoru Cəfər Xəndanın qələm dostu, istedadlı şair Mikayıl Müşfiq olub. Repressiya qurbanı olan Mikayıl Müşfiqə bəraət verildiyi 1956-cı ildə onun haqqında çap edilmiş ilk kitabın müəllifi isə professor Cəfər Xəndan idi.

Cəfər Xəndan Azərbaycan elminin inkişafında olduğu kimi, elmi kadrların hazırlanmasında da böyük xidmətlər göstərib. Onun rəhbərliyi altında onlarla elmlər doktoru və elmlər namizədi yetişib.

Şair, tənqidçi, ədəbiyyatşünas, pedaqoq, ictimai xadim kimi həyat və yaradıcılıq yolu keçmiş, özündən sonra zəngin və çoxşaxəli bir irs qoyub getmiş Cəfər Xəndan vətən və xalq qarşısında xidmətlərinə görə "Qırmızı Ulduz" (1942), "Qırmızı Əmək Bayrağı" (1946) ordenləri, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə mükafatlandırılıb.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● İncəsənət xadimləri

# Yarımçıq qalmış ömür və yaradıcılıq yolu

**Müasir Azərbayacan heykəltaraşlıq sənətinin inkişafında onun xüsusi xidmətləri olub. Söhbət dəzgah heykəltaraşlığı sahəsində bir sıra uğurlu portret əsərləri yaratmış, bu il 110 illk yubileyi tamam olan, amma cəmi 40 il ömür sürmüş istedadlı heykəltaraş Hüseyn Əhmədovdan gedir.**







Hüseyn Məmməd oğlu Əhmədov Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərində anadan olmuşdur. Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda ixtisas təhsili almış, sonra İ.Repin adına indiki Sankt-Peterburq Boyakarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunda ali təhsil almışdır. Onun müəllimi tanınmış rus heykəltaraşı, professor Andrey Sinayiski olmuşdur. H.Əhmədovun əsərləri 1937-ci ildən başlayaraq, bir sıra yerli və beynəlxalq əhəmiyyətli sərgilərdə nümayiş olunmuşdur. İkinci Dünya müharibəsində cəbhəyə yollanan sənətkar ağır döyüş yolu keçmişdir. O, 1943-cü ildə Kursk uğrunda gedən ağır döyüşlərdə yaralanmış, hospitalda müalicə olunduqdan sonra ordu sıralarından tərxis olunmuşdur.

Bakıya dönən H.Əhmədov burada yaradıcılıq fəaliyyətinə başlayır və bir sıra yaddaqalan sənət əsərləri yaradır. Baxmayaraq ki, heykəltaraşın yaratdığı bəzi portret əsərlərinin qəhrəmanları bu gün aktuallıq kəsb etmirlər, həmin büst portretlər sənət əsəri kimi, peşəkar ustalıqla bədii və texniki cəhətdən icrası baxımından əhəmiyyətlidir. Bu sənət nümunələri onları yaradan sənətkarın bədii yaradıcılıq qabiliyyətinin və peşəkar ustalıq məharətinin bariz göstəriciləridir. Heykəltaraşın uğurlu portret əsərlərindən Abbas Səhhət (1941), Abdulla Şaiq (1946), Nazim Hikmət (1951, 1953), Sovet İttifaqı qəhrəmanları Gəray Əsədov (1947), Xəlil Məmmədov (1948), Qafur Məmmədov (1948), Sosialist Əməyi Qəhrəmanı Muleyli Məmmədova (1949), Rüstəm Rüstəmov (1949), iki dəfə Sosialist Əməyi Qəhrəmanı Şamama Həsənova (1950, 1951) və başqalarının adlarını qeyd etmək olar.

H.Əhmədovun adları sadalanan əsərləri heykəltaraşın gərgin yaradıcılıq axtarışları, zəhməti və yüksək yaradıcılıq səyləri nəticəsində ərsəyə gəlmişdir. Təbii ki, belə əsərlərin yaradılması üçün sənətkardan yüksək bədii təxəyyül, yaradıcılıq qabiliyyəti və peşəkar ustalıq tələb olunurdu. Sənətşünaslıq doktoru N.Miklaşevskaya H.Əhmədovun portret yaradıcılığı haqqında yazır: "H.Əhmədovun portretlərinə realist heykəltaraşlığın müsbət cəhətləri xasdır. Onun portretləri psixoloji təsir oyadan, insanı heyrətə gətirəcək dərəcədə canlı görünən, həmin şəxsə son dərəcə oxşayan bədii əsər nümunələridir". Moskvada Nazim Hikmətlə tanış olmuş sənətkar şairin iki dəfə büst portretini yaratmışdır. N.Hikmət öz büstünü gördükdən sonra heykəltaraşa bağışladığı fotosunun arxasında fikirlərini belə yazmışdı: "Hüseyn Ahmetov yoldaşın beni vesile ederek Türk halkının azmini, kurtuluş ve barış için mücadilesini iade eden eserine teşekkür ederim".

H.Əhmədov 1945-ci ildə xalq qəhrəmanı Babəkin at üzərində heykəlinin yaradılması istiqamətində gərgin yaradıcılıq axtarışları aparmış, bir sıra eskiz və heykəl modelləri hazırlamışdır. Bu barədə rəssamın yaxın dostu olmuş rəssam Sadıq Şərifzadə belə yazırdı: "Babəkin obrazını yaratmaq üçün Hüseyn daim axtarışda idi. Babəkin yaşadığı dövrə aid kitablar oxuyur, tarixçilərlə məsləhətləşirdi. Öyrəndiklərini mənimlə də bölüşürdü... Atın plastikasını Hüseyn qədər bilən ikinci sənətkar yox idi. O, atın hər hərəkətini heykəldə canlandıra bilirdi. Onun "Babək"i xalqımızın qəhrəmanlığını əks etdirən simvol, şəhərimizin isə ən gözəl atlı heykəli olmalı idi". Lakin heykəlin aqibəti naməlum olaraq qalıb və iş tamamlanmayıb. Mirzə Ələkbər Sabirin Şamaxı şəhərində qoyulmuş abidəsi heykəltaraşın yeganə monumental heykəltaraşlıq əsəri hesab olunur.

Qısa ömür yaşasa da, heykəltaraş Hüseyn Əhmədov öz adını Azərbaycan heykəltaraşlıq sənəti tarixinə əbədi həkk edib. Sənətkarın əsərləri ölkəmizdə Azərbaycan Milli İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında, Rusiyada Dövlət Şərq Xalqları İncəsənəti Muzeyində saxlanılır. Bu il sənətkarın anadan olmasından 110, vəfatından isə 70 il ötür. Amma nə qədər zaman ötsə də, Hüseyn Əhmədov kimi sənətkarların qədir-qiyməti azalmır.

***Əsəd QULİYEV,***
***sənətşünas,***
***Azərbaycan Rəssamlar İttifaqının üzvü***

# Azərbaycanlı tarixçi alim beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir

**Sankt-Peterburqdakı "Artilleriya, Mühəndis və Rabitə Qoşunları Hərbi Tarix Muzeyi"ndə Rusiya Müdafiə Nazirliyinin Mədəniyyət İdarəsinin və Rusiya Raket və Artilleriya Elmləri Akademiyasının təşkilatçılığı ilə "Müharibə və silahlar, yeni tədqiqatlar və materiallar" adlı XII beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.**




Konfrans faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuşdur. 130 alim və tədqiqatçının iştirak etdiyi konfransda "QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq İctimai Birliyinin direktoru, ICOMAM Beynəlxalq Komitəsinin İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov üç elmi məruzə ilə çıxış etmişdir. Məruzədə XVIII əsrin sonu və XIX əsrin əvvəllərində baş verən hadisələrdən, Azərbaycan xanlıqlarının Rusiya ilə İran arasında bölünməsi prosesindən danışılmışdır. Digər məruzələr "Avropanın azad edilməsində Azərbaycan SSR döyüşçüləri" II Dünya müharibəsində qələbəyə Azərbaycan SSR-nin töhfəsi, Qafqaz və Xəzəryanı regionlardakı xalqların qarşılıqlı fəaliyyəti" mövzularına həsr olunmuşdur. P.Gözəlov bildirmişdir ki, II Dünya müharibəsi illərində Azərbaycan SSR-dən hərbi ehtiyaclar üçün 75 milyon tondan çox neft göndərilmişdir. Böyük itkilər bahasına və inanılmaz şücaətlə nasist qoşunlarına layiqli cavab verilmiş və müharibənin gedişatı tamamilə dəyişmişdir. Məhz buna görə faşizm üzərində Qələbə günü Azərbaycan Respublikasında hər il dövlət səviyyəsində qeyd olunur.

Pərvin Gözəlov 2015-ci ildə həmin muzeyin fondundan Azərbaycanın elmi-mədəni həyatında ilk dəfə olaraq şəxsi təşəbbüsü ilə ölkəmizin dövlətçiliyi tarixinə dair materialları, eksponatları müəyyən edərək nəşr etdirib. Müəllifin "Artilleriya, Mühəndis və Rabitə Qoşunları, Hərbi Tarix Muzeyində"ki araşdırması Rusiya Federasiyası muzeylərində Azərbaycanın tarixi bayraqlarının tədqiqi istiqamətində aparılan ilk araşdırmadır.

***"Azərbaycan"***

# Rəşid Behbudovun xatirə otağı yaradılıb

**Dövlət Mahnı Teatrında dünyaşöhrətli müğənni, SSRİ Xalq artisti Rəşid Behbudovun anım günü münasibətilə sənətkarın xatirə otağının açılışı olub.**



Teatrdan bildirilib ki, bu münasibətlə keçirilən tədbirdə çıxış edən Rəşid Behbudov Fondunun direktoru Kamil Şahverdiyev, Əməkdar incəsənət xadimləri - bəstəkar Aydın Əzimov, şair Baba Vəziroğlu sənətkarın Azərbaycanın musiqi mədəniyyəti tarixindəki rolundan söz açıblar.

Çıxışçılar Rəşid Behbudovun yaratdığı və adını daşıyan teatrda xatirə otağının yaradılmasını təqdirəlayiq addım kimi dəyərləndiriblər. Tədbir bədii hissə ilə davam edib. Mahnı Teatrının musiqi kollektivi və tanınmış ifaçılar sənətkarın repertuarından nəğmələr səsləndirib.

# Avropa Komissiyası Rusiyaya qarşı yeni sanksiyalar paketi hazırlayıb



**Avropa Komissiyası Rusiyaya Ukraynada apardığı müharibəyə görə tətbiq edilən 18-ci sanksiyalar paketi çərçivəsində "Şimal axını-1" və "Şimal axını-2" qaz kəmərləri ilə bağlı hər hansı əməliyyatların qadağan olunmasını təklif edir. Təklifdə bildirilir ki, Avropa İttifaqının heç bir operatoru bu layihələrdə birbaşa və ya dolayısı ilə iştirak edə bilməz.**

Bu barədə Brüsseldə jurnalistlərə Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas bildiriblər. Bundan başqa, sənəddə Rusiyanın "kölgə donanması"nın daha 77 tankerinin Aİ-nin sanksiya siyahısına daxil edilməsi təklif olunub. Bu qəbul olunarsa, məhdudiyyətlərə məruz qalan gəmilərin ümumi sayı 400-ü keçəcək.

Yeni paketə daha 22 Rusiya bankına (SWIFT sistemindən ayrılma) və Moskva ilə Vaşinqton arasında danışıqların iştirakçısı Kirill Dmitriyevin rəhbərlik etdiyi Rusiya Birbaşa İnvestisiya Fonduna (RDIF) qarşı sanksiyalar da daxildir. Bundan əlavə, Rusiya silahlı qüvvələrinə dəstək verən daha 22 yerli və xarici şirkət də sanksiyalar siyahısına əlavə olunacaq. Onların arasında Belarus və Çin müəssisələri də var.

Fon der Lyayenin dediyinə görə, məhdudlaşdırıcı tədbirlər Moskvanı bu sahədə Avropa texnologiyalarına hər hansı çıxışdan məhrum etmək üçün dronların istehsalı üzrə bütün təchizat zəncirinə də təsir edəcək.

Təkliflərə həmçinin Rusiya neftinin qiymətinin bir barel üçün 60 dollardan 45 dollara endirilməsi, Rusiya nefti əsasında emal olunmuş neft məhsullarının idxalına qadağa daxildir. Neftin yeni qiymət həddini təsdiqləmək üçün G7 ölkələri arasında birliyə ehtiyac var. Avropa Komissiyasının rəhbərinin fikrincə, "əgər müvafiq addımlar ABŞ-nin tədbirləri ilə birlikdə atılsa, bu, sanksiyalarımızın ümumi təsirini kəskin şəkildə artıracaq".

Fon der Lyayen bir daha vurğulayıb ki, Avropa İttifaqı G7 ölkələri, xüsusən ABŞ ilə neftin qiymətinin yuxarı həddini aşağı salmaqda konsensusa nail olmağa çalışır. Bu mövzu ilə bağlı növbəti müzakirə iyunun 15-16-da Kanadada keçiriləcək G7 sammitində aparılacaq.

Avropa Komissiyasının rəhbəri mətbuat konfransında jurnalistlərin suallarını da cavablandırıb: "Mən bu tədbirləri G7 ilə birlikdə görəcəyimizi düşünürəm: biz bu prosesə onlarla birlikdə başlamışıq və birlikdə davam etdirmək istərdik". Onun sözlərinə görə, Brüssel və Vaşinqton bu mövzuda dialoq aparır və Ursula fon der Lyayen özü də bir neçə dəfə senator Lindsi Qremlə danışıb. Amerikalı senator ABŞ-nin Rusiyaya qarşı sanksiyalarının "dağıdıcı paketi"ni təqdim etməyi təklif edib: "Əminəm ki, bu məqsədə nail olacağıq".

Ursula fon der Lyayenin bildirdiyinə görə, Ukraynada atəşkəsə nail olmaq üçün diplomatik səylər fonunda aydın olub ki, Rusiyanın məqsədi sülh deyil və güc Rusiyanın anladığı yeganə dildir. "Bu müharibə bitməlidir, Rusiya ciddi təkliflə danışıqlar masası arxasına oturmalıdır", - deyə o vurğulayıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Orqanizmimiz yay mövsümünə hazırdırmı?

**Yay fəslinin gəlişi ilə artan temperatur, Günəş şüalarının intensivliyi, havadakı rütubət səviyyəsinin dəyişməsi və gündəlik həyat ritminin yenilənməsi insan orqanizminin də bu prosesə adaptasiyasına ehtiyac yaradır. Bədənimiz də dəyişən hava şəraitinə, qidalanma rejiminə və həyat tərzinə uyğunlaşmağa çalışır.**



Bu mövsümdən maksimum fayda əldə etmək sağlamlıq, əhvali-ruhiyyə və enerji ilə birbaşa bağlıdır. Buna görə də, bədənimizi bu dövrə fiziki, bioloji və emosional baxımdan düzgün hazırlamalıyıq.

### Toksinlərdən təmizlənmək üçün ideal vaxt

Yay ayları yüngül və təbii qidalanma ilə bədəni toksinlərdən təmizləmək üçün ideal vaxtdır. Enerjini bərpa etmək və orqanizmi mövsümə hazırlamaq üçün təbii detoks üsullarına üstünlük verilməlidir. Yay detoksu zamanı ilk və əsas addım düzgün qidalanmaya diqqət yetirilməsidir. Bunun üçün gündəlik qida rasionuna həm su, həm də vitaminlərlə zəngin xiyar, pomidor, göyərti, qarpız, yemiş, moruq, giləmeyvə, albalı kimi mövsümi meyvə və tərəvəzlər, liflə bol yulaf, çia və kətan toxumu, tam buğda məhsulları, orqanizmi sakitləşdirən bitki mənşəli zəncəfil, nanə, çobanyastığı və qarabaşaq çayları əlavə edilməlidir.

Detoks zamanı həm su, həm də çay şəklində hazırlanan içkilərdən istifadə etmək məqsədəuyğundur. Olduqca faydalı olan detoks çayları individual hazırlanmalıdır. Belə ki, bu içkinin tərkibində olan məhsullar insana mənfi təsir də edə bilər. Yüksək təzyiq, diabet, sümük, qanazlığı və ürək-damar xəstəliklərindən əziyyət çəkənlər, habelə hamilələr, 16 yaşından aşağı uşaqlar, fiziki ağır işdə çalışanlar və sağlamlıq problemi olan yaşlılar detoks içkilərinin istifadəsi zamanı xüsusilə ehtiyatlı olmalıdırlar.

Detoks çayları bir çox bitki və meyvə qarışığından ibarət olduğundan gün ərzində onları tez-tez içmək tövsiyə edilmir. Mütəxəssislər belə çayları səhər oyandıqdan sonra və gecə yatmazdan əvvəl istehlak etməyi məsləhət görürlər. Gecə yatmazdan əvvəl çayın sakitləşdirici təsirindən faydalanmaq imkanı artır və yuxu prosesində toksinlər təmizlənir. Səhər yuxudan duranda detoks çayı içmək isə təravətləndirici təsir göstərir və gün ərzində bədəndən toksinləri çıxarmağa davam edir.

Detoks içkisi hazırlayarkən suya meyvə və tərəvəzlərlə yanaşı, darçın çubuqları, mixək, qara bibər kimi ədviyyatların əlavə edilməsi də faydalıdır. Suyun 1-12 saat dəmlənməsini, yəni tərəvəz, meyvə və ədviyyatların dadının, vitamin və minerallarının suya keçməsini gözləmək lazımdır. Gözləmə müddətini azaltmaq istədikdə tərəvəz və meyvələr yüngülcə əzilib suya əlavə edilə bilər. Detoks suları bədəndən bütün zərərli maddələri çıxararaq, bağırsaqları təmizləməyə kömək edir. Lakin bu sular bağırsaq tənbəlliyinə səbəb ola biləcəyi üçün uzunmüddətli istifadəsi tövsiyə olunmur. Suya əlavə edilən ərzaqların həddindən artıq istehlakı kalium, kalsium, sink, fosfor və bəzi vitaminlərin bağırsaqlar tərəfindən sorulmasına mane ola və əzələ spazmlarına səbəb ola bilər. Buna görə də, detoks içkilərini qəbul etməzdən əvvəl onun tərkibini diqqətlə araşdırmaq lazımdır.

### Qidanı az-az və tez-tez qəbul etmək lazımdır

İsti havalarda ağır, yağlı yeməklər orqanizmi yorur və həzm sisteminə əlavə yük yaradır. Bu səbəbdən tərəvəzli yeməklər, buğda məhsulları, bişmiş və ya buxarda hazırlanmış qidalara üstünlük vermək daha münasibdir. Yay mövsümündə bol olan, vitamin və minerallarla zəngin meyvə və tərəvəzlər orqanizmi ehtiyac duyduğu antioksidantlarla təmin edir. Orqanizmin zülala olan tələbatını qarşılamaq üçün isə toyuq və balıq kimi ət məhsulları, paxlalılar, yumurta və süd məhsulları istifadə edilməlidir.

Gün ərzində az-az və tez-tez qidalanmaq bədəni yükləmədən enerji ilə təmin edir. Qızartmalar, yağlı və ağır yeməklər, şəkərli və qazlı içkilər, paketlənmiş və yarımfabrikat qidaların yeyilməsi tövsiyə olunmur. Xüsusilə günün isti saatlarında (12:00-16:00) ağır yeməklərdən çəkinmək məsləhətdir. Yayda qidalanma təkcə bədən formasını qorumaq üçün deyil, həm də sağlamlıq və enerji səviyyəsinin yüksək qalması üçün vacibdir.

Yayda orqanizmin bakterial və virus mənşəli infeksiyalara qarşı dözümlülüyü də zəifləyir. Buna isti havalarda qida məhsullarının tez xarab olması, su mənbələrinin çirklənməsi və günvurma halları səbəb olur. Sağlam bağırsaq mikroflorası isə orqanizmin immun sistemini gücləndirir. C, D və E vitaminləri ilə yanaşı, qəbul edilən sink və selen elementi də immunomodulyator rolunu oynayır.

### Gündə minimum 2-2,5 litr sadə və ya detoks suyu içmək tövsiyə olunur

Yay fəsli imkan yaradır ki, açıq havada hərəkəti intensivləşdirəsən. Səhər saatlarında yürüş, üzgüçülük, velosiped sürmək orqanizmi həm fiziki, həm də psixoloji cəhətdən gücləndirir. Açıq səma altında idmanla məşğul olmağın əsas müsbət cəhəti beynin oksigenlə qidalanması və D vitamini qəbuludur. Günəş şüaları D vitamini sintezini artırsa da, uzun müddət qorunmadan gün altında qalmaq dəridə yanma, erkən qocalma və hətta onkoloji xəstəliklərə yoluxma riskləri yarada bilər. Buna görə də günəş kremi, papaq və gün eynəyi kimi qoruyucu tədbirlərdən istifadə etmək lazımdır.

Günvurma və dehidrasiya riski yüksək olduğu üçün fiziki aktivliklə günün isti saatlarında məşğul olmaq tövsiyə edilmir. Hər yaş üçün uyğun olan optimal variant isə 30 dəqiqəlik səhər gəzintisidir.

İdmanla məşğul olarkən, maye qəbuluna ciddi fikir vermək lazımdır. İsti havalarda bədən qəbul etdiyindən daha çox maye itirir. Dehidrasiyanın qarşısını almaq üçün gündə minimum 2-2,5 litr sadə və ya detoks suyu içmək tövsiyə olunur.

Yay aylarında gün işığının artması ilə hormonal balansda dəyişikliklər baş verir. Günəş işığı serotoninin (xoşbəxtlik hormonu) səviyyəsini artırır. Bu əhvalın yaxşılaşmasına səbəb olsa da, yuxu ritmini pozur. Yuxu rejimini qaydaya salmaq üçün meditasiya və nəfəs məşqləri etmək, sakitləşdirici musiqi dinləmək lazımdır. Mütəxəssislərin verdikləri bu tövsiyələrə əməl edərək yay mövsümünü sağlam və enerjili keçirmək mümkündür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 13.06.2025-ci il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.


# Uzaq planetlərdə ekzotik silikat buludların ilk fotoşəkilləri təqdim edilib

**NASA-nın "James Webb" kosmik teleskopu Yerdən 305 işıq ili uzaqlıqda, Sentavr bürcündə yerləşən YSES-1 ulduz sistemində iki uzaq ekzoplanetin atmosferinin ilk ətraflı fotoşəkillərini çəkib.**

Bu görüntülər alimlərə ilk dəfə olaraq bu qaz nəhənglərindən birinin atmosferində ekzotik silikat buludları görməyə kömək edib. AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, bu kəşf barədə İrlandiyanın Triniti Kollecinin Mətbuat xidməti bildirib.

Məlumatda qeyd olunub: "YSES-1 ulduz sistemi maraqlıdır, çünki hazırkı planet nəzəriyyələri onun dünyalarının niyə bir-birindən qeyri-adi böyük məsafə ilə ayrıldığını izah edə bilmir. YSES-1c atmosferində silikat buludlarının, eləcə də qonşusu YSES-1b ətrafındakı orbitdə isti toz klasterlərinin kəşfi bu sistemi daha da maraqlı edir".

Astronomlar bu kəşfi "James Webb" orbital teleskopundan istifadə edərək, yaxınlarda yaranmış ulduzların ətrafında dövr edən ekzoplanetlərin axtarışı və tədqiqinə yönəlmiş xüsusi YSES müşahidə proqramının bir hissəsi kimi ediblər. Bu cür ulduz sistemləri planetlərin əmələ gəlməsi prosesini tədqiq edən nəzəri planetoloqların xüsusi marağına səbəb olur ki, onun bir çox mərhələsi uzun onilliklər ərzində alimlər arasında böyük mübahisələrə səbəb olur. Belə ki, onlar həmin mübahisələri həll etmək üçün bu yaxınlarda təxminən 14-16 milyon il əvvəl Sentavr bürcündə böyük qaz və toz buludlarından birində əmələ gələn və Günəşə bənzəyən YSES-1 ulduzunu müşahidə etməyə başladılar ki, bu da astronomik baxımdan bir anlıq hadisədir. Bu ulduzun ətrafında eyni vaxtda iki ekzoplanet fırlanır, ulduzdan 160 və 320 astronomik vahid (Yer və Günəş arasındakı orta məsafələr) məsafədə yerləşir və böyük miqdarda infraqırmızı şüalanma yayır.

Silikat buludların spektr strukturunun təhlilindən göründüyü kimi, onlar piroksen mineralının mikroskopik hissəciklərindən və ya silikatlar və maqnezium ortosilikatlarının qarışığından ibarətdir. YSES-1c atmosferində bu hissəciklərin kəşfi planetoloqlara onun qeyri-adi quruluşunu və digər xüsusiyyətlərini izah etməyə qadir olan bu ulduz sisteminin formalaşması üçün mümkün ssenarilərin siyahısını əhəmiyyətli dərəcədə daraltmağa imkan verir.

Kəşf müəlliflərinin fikrincə, YSES-1 sisteminin sonrakı müşahidələri bu nəzəriyyələri sınaqdan keçirməyə kömək edəcək.

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilova anası

**HƏVVA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru dosent Rüfət Əzizov və universitetin kollektivi Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Hüseynbala Mirələmov ailəsi ilə birlikdə Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilova anası

**HƏVVA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rəhbərliyi və kollektivi Beynəlxalq İqtisadiyyat Məktəbinin (ISE) direktoru dosent İnara Rzayevaya atası

**RZA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tərtərdən Müstəqim Məmmədov Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası

**TAPDIQ GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

YAP Cəlilabad Rayon Təşkilatı Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilova anası

**HƏVVA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru






www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3824
Sifariş 1197

Qiyməti 60 qəpik